# DİPLOMATİYA ALƏMİ

AZƏRBAYCAN RESPUBLİKASI
XARİCİ İŞLƏR NAZİRLİYİNİN
JURNALI
№ 8, 2004

---


## ***Redaksiya Şurası***

| | |
|---|---|
| 1. Elmar Məmmədyarov | Nazir (Baş redaktor) |
| 2. Novruz Məmmədov | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri (Baş redaktorun birinci müavini) |
| 3. Araz Əzimov | Nazir müavini |
| 4. Xələf Xələfov | Nazir müavini |
| 5. Mahmud Məmməd-Quliyev | Nazir müavini |
| 6. Vaqif Sadıqov | Nazir müavini |
| 7. Qabil Köçərli | Mətbuat və informasiya siyasəti idarəsinin rəisi |

## ***Redaksiya heyəti***

| | |
|---|---|
| 1. Aliyə Ağazadə | Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) II katibi (məsul katib) |
| 2. Mütəllim Əlimərdanov | İnformatika şöbəsinin baş mütəxəssisi |

| | |
|---|---|
| 3. Ceyhun Musayev | Mətbuat və informasiya siyasəti idarəsinin III katibi |
| 4. Ramil Əkbərov | Mətbuat və informasiya siyasəti idarəsinin attaşesi |
| 5. Elçin Hüseynli | Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) attaşesi |

---

Jurnal üç aydan bir nəşr edilir. Xarici siyasət və diplomatiyaya aid olan sənədləri, fotoşəkilləri və ya məqalələrini jurnalda çap etdirmək istəyənlər XİN-ə müraciət edə bilərlər. Qeyri-dəqiq faktlara görə məqalələrin müəllifləri məsuliyyət daşıyırlar. Müəlliflər məqalələrin elektron (disket və ya elektron poçt vasitəsilə) və çap variantı ilə yanaşı, 5x6 ölçüsündə fotoşəkil, müəllifin qısa tərcümeyi-halını, məqalənin rus və ya ingilis dilində qısa xülasəsi (10 cümləyə qədər) və ünvan və telefonlarını təqdim edirlər. Jurnala qəbul edilən məqalələrə olan tələblər:

Həcm: 10 səhifəyə qədər

Dil: Azərbaycan, rus və ya ingilis

Şrift: Azərbaycan dilində: Times Roman AzLat; rus və ingilis dillərində: Times New Roman

Şriftin ölçüsü: 12

İnterval: 1,5

İstifadə edilmiş ədəbiyyata və ya digər nəşrlərdən sitatlar gətirəndə həmin ədəbiyyata istinad vacibdir.

İstinadlar qeyd vasitəsilə hər səhifədə yeni nömrə ilə səhifənin aşağısında xətt altında verilir. Qeydlərdə müəllifin tam adı və familiyası, əsərin adı, nəşr olunan şəhərin və nəşriyyatın adı, nəşrin tarixi və sitat gətirilən səhifə göstərilir. İnternet vasitəsilə əldə edilmiş mənbələrin web site ünvanları tam və tarixi ilə verilir. Əlyazmalar və disketlər qaytarılmır. Məqalələr redaktə və ixtisar edilə bilər.

Ünvan: Xarici İşlər Nazirliyi, Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsi (Mərkəz), Ş.Qurbanov küç. 4, Bakı AZ 1009; Tel. 92 73 28; 92 80 35.

e-poçt: i_mammadov@mfa.gov.az

Jurnalın satışı, nəşri, abunə yazılması və ya digər texniki məsələlər: Tel. 92 80 92, Fəxrəddin Şükürov

# Mündəricat

## Rəsmi xronika

*Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin diplomatik fəaliyyəti*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi səfərləri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görüşləri

*Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarovun diplomatik fəaliyyəti*

Azərbaycan Respublikası Xarici İşlər Naziri Elmar Məmmədyarovun ABŞ-a rəsmi səfəri

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarovun İrana səfəri

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun İran İslam Respublikasının xarici işlər naziri Kamal Xərrazi ilə görüşünə dair

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Moskvaya üçgünlük işgüzar səfərinə dair

Praqada Azərbaycan və Ermənistan Xarici İşlər Nazirlərinin görüşü keçirildi

Astanada MDB Xarici İşlər Nazirləri və Hökumət Başçıları Şurasının İclaslarının keçirilməsinə dair

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarovun digər görüşləri

## Rəsmi məlumat

Azərbaycanın Avropa Şurasının çərçivə konvensiyasını yerinə yetirməsi haqqında qətnamə qəbul edilmişdir

“Azərbaycan Respublikası hökuməti ilə Gürcüstan hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında saziş” in imzalanmasına dair

“Azərbaycan Respublikası hökuməti ilə İtaliya Respublikası hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya”nın imzalanmasına dair

## Çıxışlar

“Əsrin müqaviləsi”nin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Speech of the President of the Republic of Azerbaijan İlham Aliyev at the United Nations General Assembly’s 59th Session

BMT Baş Məclisi 59-cu sessiyasının Ümumi Müzakirələrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı

## Bəyanatlar

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatı, 24.06.04

Azərbaycan Respublikasının Xarici işlər Nazirliyinin bəyanatı, 14.09.04

## Qanunlar

Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında Azərbaycan Respublikasının Qanunu

## Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində

Azərbaycan Prezidenti İlham Əliyevin Respublikamızın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin başçıları ilə görüşü

Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini Mahmud Məmməd-Quliyevin Gürcüstana səfəri

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin press-relizi

## Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərində

Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi səfir Aqşin Mehdiyevin AzərTAc-ın Fransadakı xüsusi müxbiri ilə müsahibəsi

Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənovun İranın energetika nazirinin su ehtiyatları məsələləri üzrə müavini Rza Ərdəkanian ilə görüşünə dair

M.N. Əfəndiyevin Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri, Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı, Kimyəvi silahların qadağan olunması üzrə təşkilatda Azərbaycan Respublikasının daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

M.N. Əfəndiyevin Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Mir-Həmzə Əfəndiyev. Tərcümeyi-hal

H.S.Zeynalovun Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

H.S.Zeynalova birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Həsən Zeynalov. Tərcümeyi-hal

Azərbaycan Respublikasının Yunanıstanda yeni təyin olunmuş səfiri Mirhəmzə Əfəndiyev etimadnaməsini Yunanıstanın Prezidenti Konstantinos Stefanopulosa təqdim etməsinə dair

Azərbaycan Nümayəndə Heyəti BMT-nin İqtisadi və Sosial Şurasının əsas sessiyasında iştirakına dair

Ramiz Rizayevin Azərbaycan-Rusiya münasibətlərinin bugünkü vəziyyəti haqqında verdiyi müsahibəyə dair

H.Ə.Həsənovun Azərbaycan Respublikasının Macarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Həsən Həsənov. Tərcümeyi-hal

T.Y.Qarayevin Azərbaycan Respublikasının Hindistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Tamerlan Qarayev. Tərcümeyi-hal

Ş.Ş.Abdullayevin Azərbaycan Respublikasının Küveyt dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ş.Ş.Abdullayevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Şahin Abdullayev. Tərcümeyi-hal

F.İ. Qurbanovun Azərbaycan Respublikasının Kanadada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Fəxrəddin Qurbanov. Tərcümeyi-hal

Azərbaycan Respublikasının Səudiyyə Ərəbistandakı səfiri Elman Araslının Səudiyyə Qırmızı Aypara Cəmiyyətinin sədri Abdulrahman bin Əbdüləziz Assuveylimlə görüşünə dair

E.M.Hüseynovanın Azərbaycan Respublikasının Fransa Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

E.M. Hüseynovanın Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

Eleonora Hüseynova Tərcümeyi-hal

E.Z. Kərimova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

E.Z. Kərimova Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

Emil Kərimov. Tərcümeyi-hal

T.İ. Əliyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

T.İ. Əliyevin Azərbaycan Respublikasının Fransa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

Tarik Əliyev. Tərcümeyi-hal

Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfiri Ramiz Rizayev Rusiyadakı diplomatik korpusun duayeni seçilmişdir

**<u>Məqalələr</u>**

İlqar Muxtarov. ABŞ-ın Latın Amerikasına nəzərən siyasəti

Həsən Məmmədzadə. Pakistanın siyasi dini partiyalarının və ictimaiyyətinin Kəşmir məsələsinə münasibəti

Gülgəz Əliyeva. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri haqqında

Rəna Osmanova. 20-ci illərdə Azərbaycan SSR rəhbərliyində ərazi bütövlüyü uğrunda mübarizə

Низами Сафаров. Современные проблемы универсальной юрисдикции в международном уголовном праве и национальном законодательстве

**<u>Xarici Nəşrlər</u>**

Brenda Shaffer. U.S. Policy towards the Nagorno-Karabakh Conflict

**<u>Azərbaycan Diplomatiyasının Tarixi</u>**

Azərbaycan Respublikasının Xarici İşlər Nazirləri:

Nəriman Nəcəf oğlu Nərimanov

Mirzə Davud Bağır oğlu Hüseynov

**«Diplomatiya Aləmi» jurnalına abunə olmaq forması**

# *RƏSMİ XRONİKA*



## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2004-CÜ İLİN İYUL-SENTYABR AYLARI ƏRZİNDƏ DİPLOMATİK FƏALİYYƏTİ

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi səfərləri**

**12.08 – 19.08 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yunanıstana səfəri**

**Səfər zamanı keçirilmiş görüşlər:**

*Yunanıstanın baş naziri Konstantinos Karamanlislə görüş*

*Beynəlxalq Birləşmiş Müqavilələr Şirkətinin (CCIC) vitse-prezidenti Nəcib Xurini*

**24-26.08.04 - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri**

**Səfər zamanı keçirilmiş görüşlər:**

*Almaniyanın Prezidenti Horst Köler ilə görüş*

*Kansleri Gerhard Şröder ilə görüşü*

*Bundestaqın Almaniya-Qafqaz Qrupunun Rəhbəri Kristof Berqnet ilə görüş*

*Bundestaqın Xarici Əlaqələr Komitəsinin sədri Fölker Rühen İlə Görüş*

*Almaniyanın Xarici İşlər Naziri Yoşka Fişer ilə görüş*

**Səfər zamanı imzalanmış sənədlər:**

*"Dörd ədəd aerobus təyyarəsi alınmasına dair Azərbaycan Respublikasının AZAL Dövlət Konserni ilə Almaniya Federativ Respublikasının "Aerobus" şirkəti arasında müqavilə, "İkiqat vergidən azad olmaq barədə müqavilə".*

**02-03.09.04 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri**

*İyulun 3-də Moskvanın mərkəzi cıdır meydanında Rusiya Prezidentinin mükafatı uğrunda ilk atçapma yarışları keçirilmişdir. Prezident belə yarışların keçirilməsi barədə qərarı 2003-cü ilin dekabrında təsdiq etmişdir.*

**07 - 09.09.04 Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya işgüzar səfəri**

**Səfər zamanı keçirilmiş görüşlər:**
*Fransa Prezidenti Jak Şirak ilə təkbətək görüşü*
*Fransa Beynəlxalq Əlaqələr İnstitutunun (İFRİ) direkto ru Tyerri de Montbiral ilə görüş*
*Fransa Senatının sədri Kristian Ponsöle ilə görüş*
*ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Anri Jakolən ilə görüş*

**16-17.09.04 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri**

*Astanada, Qazaxıstan Prezidentinin yeni iqamətgahında MDB dövlət başçılarının 38-ci zirvə görüşü keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak etmişdir.*

**22-24.09.04 Azərbaycan Respublikasının Prezidenti İlham Nyu-Yorka səfəri**

**Səfər zamanı keçirilmiş görüşlər:**
*ATƏT-in hazırki sədri Solomon Pasi ilə görüş*
*İspaniyanin xarici işlər naziri Migel Anxel Moratinos Kuyyaubeni ilə görüş*
*Ekson/Mobil şirkətinin prezidenti  Tim Seykan ilə görüş*
*BMT-nin Baş Katibi Kofi Annan ilə görüş*
*Soros Fondunun prezidenti Corc Soros ilə görüş*
*Nyu-Yorkun Kolumbiya Universitetində görüş*
*Cibuti Respublikasının Prezidenti İsmail Ömər Qulleh ilə görüş*
*ATƏT-in Minsk qrupunun Amerika Birləşmiş Ştatlarından olan həmsədri səfir Stiven Mənn ilə görüş*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görüşləri***

1 iyul - Avropa Şurası Parlament Assambleyasının baş katibi Bruno Haller ilə görüş

1 iyul - Almaniyanın Bakıdakı səfiri Klaus Qrevlixi və bu ölkənin hərbi və təhlükəsizlik məsələləri üzrə eksperti Vilhelm German ilə görüş

5 – iyul - Moskvanın meri Yuri Lujkov başda olmaqla Rusiya Federasiyası paytaxtının nümayəndə heyəti ilə görüş

9 iyul - Azərbaycan Respublikasında rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf ilə görüş

10 iyul - Rusiya Federasiyası Hesablama Palatasının sədri Sergey Stepaşin ilə görüş

12 iyul - MDB-nin icraçı katibi Vladimir Ruşaylo ilə görüş

12 iyul - Kanadanın, Qana Respublikasının, Filippin Respublikasının, Birləşmiş Ərəb Əmirliklərinin, Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri Maykl Lir, Fransis Yahaya Mahama, Ernesto LLamas, Xalid Ğanim Məhəmməd əl-Ğeys və Əbdülhəmid Senuci Bereksinin etimadnamələrin qəbul etmə mərasimi

12 iyul - Ukraynanın ölkəmizdəki səfiri Boris Aleksenko ilə diplomatik fəaliyyətini başa çatdırması ilə əlaqədar görüş

12 iyul - Fransanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rolan Blatmanın etimadnaməsini qəbul etmə mərasimi

14 iyul - Ümumdünya Səhiyyə Təşkilatı Avropa Regional Bürosunun direktoru Mark Danzonu və həmin büronun ölkələrə yardım departamentinin direktoru Natella Menabde ilə görüş

15 iyul - Rusiya Federasiyası hökumətinin keçmiş sədri Viktor Çernomırdin ilə görüş

16 iyul - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə ATƏT-in Minsk qrupunun Amerika Birləşmiş Ştatlarından, Rusiyadan və Fransadan olan həmsədrləri Stiven Mənni, Yuri Merzlyakovu və Anri Jakole ilə görüş

19 iyul – Azərbaycanda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin qadın deputatlarından ibarət nümayəndə heyətini ilə görüş

19 iyul - Tokio Dünya Ticarət Mərkəzinin sədri, Yaponiyanın Ticarət və Sərmayə Sığortalanması Təşkilatının rəhbəri Toru Toyoşima başda olmaqla bu ölkənin nümayəndə heyəti ilə görüş

22 iyul - Ümumdünya Gömrük Təşkilatının Baş katibi Mişel Danen ilə görüş

23 iyul - ATƏT-in Bakı ofisinin yeni təyin olunmuş rəhbəri, səfir Mauritsio Pavezi ilə görüş

23 iyul - Çin Milli Neft Korporasiyasının vitse-prezidenti Cou Dzipinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

26 iyul - Dünya Taekvondo Federasiyasının prezidenti Çanq Von Çun ilə görüş

27 iyul - Almaniya Federativ Respublikasının Federal Sərhəd Mühafizə Xidmətinin rəisi Udo Burkxolder ilə görüş

28 iyul - Ukrayna Ali Radasının insan hüquqları üzrə müvəkkili Nina Karpaçova ilə görüş

28 iyul - Dəmir Yolu İnkişaf Korporasiyası beynəlxalq təşkilatının (RDC) sədri, mesenat Henri Poznerin (ABŞ) başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

29 iyul - ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya işləri bürosunda dövlət katibinin köməkçisi Elizabet Consun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

31 iyul - Rusiya Olimpiya Komitəsinin prezidenti Leonid Tyaqaçov başda olmaqla bu ölkənin nümayəndə heyəti ilə görüş

5 avqust - İran İslam Respublikasının Prezidenti Məhəmməd Xatəmi ilə görüş

6 avqust - Avropa Şurası Parlament Assambleyası monitorinq komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Andreas Qross və Andres Herkel igə görüş

6 avqust - Küveyt dövlətinin vəqflər və islam işləri naziri doktor Abdullah Məətuq əl-Məətuqun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

7 avqust - Dmitri Roqozinin başçılıq etdiyi Rusiya Federasiyası Dövlət Dumasında "Rodina" fraksiyasının nümayəndə heyəti ilə görüş

9 avqust - senator Ted Stivensin başçılığı ilə ABŞ Senatının nümayəndə heyəti ilə görüş

10 avqust - Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Məhəmməd Əziz Xan ilə görüş

12 avqust - Amerika Birləşmiş Ştatlarının müdafiə naziri Donald Ramsfeldin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

23 avqust - Danimarkanın xarici işlər naziri Per Stiq Möller ilə görüş

31 avqust - Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının sədri Akira Amarinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

3 sentyabr - Avropa Şurası Venesiya Komissiyasının katibi Canni Bukikkio ilə görüş

3 sentyabr - Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin sədri Valeri Zorkin ilə görüş

3 sentyabr - Almaniya Federativ Respublikasının ölkəmizdəki səfiri Klaus Qrevlix ilə və onun xanımını respublikamızda səlahiyyət müddətinin başa çatması münasibəti ilə görüş

6 sentyabr - Rusiya Federasiyasının ölkəmizdəki səfiri Nikolay Ryabov ilə səlahiyyət müddətinin başa çatması ilə əlaqədar görüş

17 sentyabr - Avropa Birliyi Komissiyasının sədri Romano Prodinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

17 sentyabr - İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Əhəd Qəzai ilə Bakıda diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüş

18 sentyabr - Görkəmli musiqiçi və dirijor Mstislav Rostropoviç ilə görüş

20 sentyabr - Türkiyənin energetika və təbii sərvətlər naziri Hilmi Gülərin başçılığı ilə ölkəmizə gəlmiş nümayəndə heyəti ilə görüş

20 sentyabr - Norveçin dövlət katibi, energetika nazirinin müavini Oluf Ulsethin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

20 sentyabr - Rusiya Federasiyasının beynəlxalq əməkdaşlıq üzrə xüsusi nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir İqor Yusufov ilə görüş

21 sentyabr - Avstriyanın baş prokuroru Valter Preslauyer ilə görüş

21 sentyabr - ATƏT-in hazırkı sədrinin Azərbaycan və Ermənistan üzrə xüsusi elçisi Filipp Dimitrovin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

29 sentyabr - Böyük Britaniyanın keçmiş energetika naziri, İngiltərə-Azərbaycan cəmiyyətinin sədri Tim Eqqar ilə görüş



# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN 2004-CÜ İL İYUL-SENTYABR AYLARI ƏRZİNDƏ DİPLOMATİK FƏALİYYƏTİ

## Azərbaycan Respublikası Xarici İşlər Naziri Elmar Məmmədyarovun ABŞ-a rəsmi səfəri

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ABŞ dövlət katibi Kolin Pauellin dəvəti ilə Vaşinqtonda işgüzar səfərdədir. Bu, onun xarici siyasət idarəsinin başçısı vəzifəsində ABŞ-a ilk səfəridir.

İyulun 20-də E.Məmmədyarov dövlət katibi Kolin Pauell, energetika naziri Spenser Abraham və Konqres-Milli Məclis işçi qrupunun həmsədrləri, konqresmenlər Kurt Ueldon və Solomon Ortislə, ABŞ-ın yəhudi icmasının nümayəndələri ilə görüşmüşdür.

Energetika naziri Spenser Abrahamla apardığı danışıqlarda E.Məmmədyarov ölkəmizdə neft və qaz sahəsində əldə olunan nailiyyətlər barədə məlumat vermişdir. Tərəflər Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin bölgə üçün böyük əhəmiyyətini vurğulamışlar. Nazir Məmmədyarov demişdir ki, hazırda Azərbaycan tərəfi Yunanıstanla qaz nəqli ilə bağlı müzakirələr aparır. Azərbaycan qazının Avropa bazarlarına çıxarılması üçün yaxşı imkanlar yaranıbdır. O, bu məsələdə ABŞ dəstəyinin vacibliyini bildirmişdir.

Nazirlər energetika sektorunda ikitərəfli əməkdaşlığı əhatə edən "ABŞ-Azərbaycan enerji dialoqu"na dair sənəd layihəsinin imzalanması vacibliyinə toxunmuşlar. Qeyd olunmuşdur ki, dünyada bərpa olunan enerji mənbələrinə maraq artır. S.Abraham ümid etdiyini bildirmişdir ki, ölkələrimiz arasında bu sahədə faydalı əməkdaşlıq yaranacaqdır. Söhbət zamanı, ABŞ-dakı tanınmış elmi tədqiqat mərkəzləri ilə əlaqələrin qurulması, Azərbaycan alimlərinin buradakı laboratoriyalarda amerikalı həmkarları ilə birgə tədqiqatlar aparılmasına dair təkliflər səslənmişdir.

Həmin gün E.Məmmədyarov Vaşinqtonun Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində "Azərbaycanın xarici siyasət prioritetləri" mövzusunda məruzə ilə çıxış etmişdir. Nazir ölkəmizin ABŞ, İran, Rusiya, Türkiyə və NATO ilə əlaqələri, Xəzər hövzəsində həyata keçirilən layihələr, neft-qaz yataqlarımızın təhlükəsizliyinin təmin edilməsi, Ermənistan-Azərbaycan münaqişəsinə dair ətraflı məlumat vermişdir. Ölkədə demokratik və iqtisadi islahatların sürətinin səngimədiyini vurğulayan nazir demişdir ki, neft gəlirlərini Azərbaycanın qeyri-neft sektoruna yatırdaraq, möhkəm və rifahlı dövlət qurmaq Azərbaycan hökumətinin qarşısında duran ən vacib məsələlərdən biridir. Şəffaf şəkildə fəaliyyət göstərən Dövlət Neft Fondunda toplanan vəsait kənd təsərrüfatı, turizm, nəqliyyat, kommunikasiya və digər sahələrin inkişafına sərf ediləcəkdir.

Cənubi Qafqazda regional inkişafı ləngidən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzindəki görüşün ən başlıca mövzusuna çevrilmişdir. Tədbir iştirakçılarının çoxsaylı suallarına cavab verən E.Məmmədyarov bildirmişdir ki, ərazimizin 20 faizinin işğalına və 1 milyon nəfər qaçqın və məcburi köçkünün mövcudluğuna baxmayaraq, Azərbaycanın niyyəti hələ də münaqişəni beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə həll etməkdir. O, bu ilin əvvəlindən Ermənistan və Azərbaycan prezidentlərinin iki dəfə, xarici işlər nazirlərinin isə üç dəfə görüşdüklərini xatırlatmışdır. ATƏT-in Minsk qrupu həmsədrlərinin bölgəyə səfəri zamanı aparılan müzakirələrin təfərrüatına varmayan nazir demişdir ki, məsələyə nikbinliklə yanaşır. Onun sözlərinə görə, buna əsas beynəlxalq ictimaiyyətin Azərbaycanın mövqeyinə verdiyi dəstəkdir. O, Avropa Şurasının bu günlərdə qəbul etdiyi qətnaməsində Azərbaycanın ərazi bütövlüyünün bir daha təsdiq olunduğunu vurğulamışdır.

Görüşdə haqqında danışılan daha bir mövzu Konqres komitəsinin Azərbaycan və Ermənistana eyni miqdarda hərbi yardımın ayrılması barədə qərarı idi. E.Məmmədyarov Azərbaycanın Pentaqonla əlaqələrini yüksək qiymətləndirmiş, hərbi sahədə bir sıra uğurlu proqramların həyata keçirildiyini xatırlatmışdır. Eyni zamanda vurğulamışdır ki, anti terror koalisiyası çərçivəsində sülhməramlı qüvvələri qaynar nöqtələrdə olan Azərbaycana və koalisiyaya, sadəcə, dəstək ifadə edən Ermənistana eyni həcmdə yardımın göstərilməsi təəccüb doğurur. Nazir bildirmişdir ki, ABŞ bu sahədə Azərbaycanla əməkdaşlığı davam etdirmək istəyirsə, hərbi sahədə ayrılan yardım məsələsinə müvafiq şəkildə yanaşmalıdır.

İyulun 20-də Elmar Məmmədyarov Dövlət Departamentində dövlət katibi Kolin Pauellə görüşmüşdür. Danışıqlar zamanı Kolin Pauell anti terror kampaniyasında fəal iştirakına və xüsusilə də, silahlı qüvvələrimizin Kosovo, Əfqanıstan və İraqda sülhməramlı əməliyyatlarda xidmətinə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirmişdir. Dövlət katibi demişdir ki, ABŞ Azərbaycanda aparılan demokratik və iqtisadi islahatları yaxından izləyir. Corc Buş hökumətinin hakimiyyətə gəldiyi dövrdən Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə diqqət yetirdiyini söyləyən Kolin Pauell bildirmişdir ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ bölgədə baş verən prosesləri izləyəcək və danışıqlar prosesində fəal vasitəçi rolunu davam etdirəcəkdir. O qeyd etmişdir ki, cəmiyyətin münaqişənin həllini müzakirə etməyə nə qədər hazır olduğu nəzərə alınmalıdır.

Nazir E.Məmmədyarov bəyan etmişdir ki, "məcburi köçkün düşən insanlar öz yurd-yuvalarına qayıtmayınca, cəmiyyətdə münaqişənin həllinə olan həssaslıq yüksək qalacaq və bu halda, problemin həlli real deyildir". O, Minsk qrupunun həmsədri və fövqəldövlət kimi ABŞ-ı Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları əsasında ədalətli yolla həllinə səylər göstərməyə çağırmışdır.

Söhbət zamanı Xəzər hövzəsində həyata keçirilən enerji layihələri də diqqət mərkəzində olmuşdur. Tərəflər qarşılıqlı maraq doğuran digər məsələləri də nəzərdən keçirmişlər. Görüşdə dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Elizabet Cons, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Stiven Mənn, Azərbaycanın Vaşinqtondakı səfiri Hafiz Paşayev, BMT-dəki daimi nümayəndəmiz Yaşar Əliyev iştirak etmişlər.

Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Elizabet Cons, siyasi-hərbi məsələlər üzrə müavini Linkoln Blumfild, demokratiya, insan hüquqları və əmək üzrə müavini Maykl Kozak, beynəlxalq dini azadlıqlar üzrə səlahiyyətli səfir Con Hanfordla apardığı

müzakirələrdə Elmar Məmmədyarov Azərbaycanda keçirilən siyasi və iqtisadi islahatlar, ölkəmizin NATO-ya və digər Avropa strukturlarına inteqrasiyası, insan hüquqları ilə bağlı vəziyyətin yaxşılaşdırılması istiqamətində hökumətin atdığı addımlar haqda ətraflı məlumat vermişdir. Tərəflər ABŞ-Azərbaycan münasibətlərinin geniş spektri üzrə fikir mübadiləsi aparmışdır.

ATƏT-in Minsk qrupunun amerikalı həmsədri və Xəzər hövzəsi diplomatiyası üzrə müşavir Stiven Mənnlə görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və bölgəmizdə həyata keçirilən energetika layihələri müzakirə edilmişdir.

Elmar Məmmədyarov ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Kondoliza Raysla da görüşmüşdür. Xanım Rays qlobal terrorla müharibədə göstərdiyi dəstəyə görə Azərbaycan tərəfinə təşəkkür etmişdir. Ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu bildirən xanım Rays demişdir ki, Birləşmiş Ştatlar Azərbaycanı "yaxın dost və müttəfiq" hesab edir.

Elmar Məmmədyarov Azərbaycanın yerləşdiyi mürəkkəb coğrafi-siyasi bölgədəki vəziyyətdən, ölkəmizdə həyata keçirilən islahatlardan söhbət açmışdır. Nazir bildirmişdir ki, Azərbaycanın ABŞ-la münasibətləri strateji tərəfdaşlıq səviyyəsində qalmaqdadır.

Tərəflər Xəzər hövzəsinin enerji ehtiyatlarının işlənilməsi və nəqli, ABŞ-ın Cənubi Qafqaz bölgəsindəki yardım proqramları, Azərbaycanın qonşu dövlətlərlə münasibətləri barədə də fikir mübadiləsi aparmışlar. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi danışıqların mövzularından biri idi. Kondoliza Rays vurğulamışdır ki, ABŞ məsələnin tezliklə sülh yolu ilə həllində maraqlıdır və bu istiqamətdə vasitəçi kimi münaqişənin aradan qaldırılması yollarının tapılması səylərini dəstəkləyəcəkdir.

Azərbaycanın xarici işlər naziri konqresmenlərlə - Cemys Gibbon və Nümayəndələr palatasının xarici əməliyyatlar üzrə yardımçı komitənin sədri Ceyms Kolbe ilə də görüşmüşdür. Amerika qanunvericiləri ilə müzakirələrdə Elmar Məmmədyarov Konqresin 2005-ci maliyyə ilində Azərbaycan və Ermənistana eyni miqdarda hərbi yardım ayrılması barədə qərarının ölkəmizdə birmənalı qarşılanmadığını vurğulamışdır. O demişdir ki, Azərbaycan anti terror müharibəsində ilk gündən ABŞ-a real dəstək nümayiş etdirdiyi halda, Konqres belə qərarları ilə ölkəmizin ictimaiyyətinə yanlış siyasi mesaj göndərir. Buna cavab olaraq konqresmenlər demişlər ki, Azərbaycanın məsələdəki mövqeyini həmkarları arasında yaymağa çalışacaqlar.

Elmar Məmmədyarov "Vaşinqton tayms" qəzetinin redaktorlar şurası ilə də görüşmüş, onların çoxsaylı suallarına cavab vermişdir.

ABŞ-Azərbaycan Ticarət Palatası ölkəmizin xarici işlər nazirinin şərəfinə ziyafət təşkil etmişdir. Ziyafətə Vaşinqtondakı diplomatik korpusun, ABŞ hökumət strukturlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri gəlmişdilər.

**«AZƏRTAC» 23.07.04**

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarovun İrana səfəri

İranda səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovu iyulun 31-də bu ölkənin Prezidenti Seyid Məhəmməd Xatəmi qəbul etmişdir. Ölkəmizin xarici siyasət idarəsinin başçısı E.Məmmədyarov həmin gün iranlı həmkarı Kamal Xərrazi ilə də görüşüb danışıqlar aparmışdır.

Xarici İşlər Nazirliyinin mətbuat mərkəzindən AzərTAc-a bildirmişlər ki, görüşlərdə E.Məmmədyarov Azərbaycan-İran münasibətlərinə xalqımızın ümummilli lideri Heydər Əliyevin xüsusi diqqət yetirdiyini vurğulamış, ölkələrimizin prezidentlərinin qarşılıqlı səfərlərinin ikitərəfli əlaqələrin inkişafına xidmət etdiyini bildirmiş, münasibətlərimizin irəli getməsi üçün həmin siyasi xəttin bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləmişdir.

Beynəlxalq və regional təşkilatlar çərçivəsində dövlətlərimiz arasında mövcud olan əməkdaşlıqdan məmnun qaldığını bildirən E.Məmmədyarov, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dövlətimizin ərazi bütövlüyünün İran tərəfindən dəstəkləndiyini yüksək qiymətləndirmişdir. Nazir İran Prezidentinin Azərbaycana yaxın günlərdə həyata keçiriləcək rəsmi səfəri ilə əlaqədar hazırlıq işlərinin davam etdirildiyini bildirmişdir.

İran-Azərbaycan münasibətlərinin inkişafına xüsusi diqqət yetirdiyini söyləyən Prezident Seyid Məhəmməd Xatəmi ümummilli liderimiz Prezident Heydər Əliyevin əlaqələrimizin inkişafına xüsusi qayğı ilə yanaşdığını minnətdarlıqla xatırlamış, ölkələrimizin münasibətlərinin tərəqqisinə göstərdiyi diqqətə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirmişdir.

Yaxın günlərdə Azərbaycan Respublikasına edəcəyi səfərdən son dərəcə məmnun olduğunu bildirən İran Prezidenti ölkəsinin respublikamızla münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu vurğulamışdır. İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə və işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsinə tərəfdar olduğunu bildirən İran Prezidenti, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan etmiş, münaqişənin nizamlanmasında ölkəsinin səylərini əsirgəməyəcəyini diqqətə çatdırmışdır.

Prezident Xatəmi ölkələrimiz arasında iqtisadi layihələrin həyata keçirilməsi istiqamətində birgə səylərin bundan sonra da davam etdirilməsinin zəruriliyini bildirmişdir.

Azərbaycanın xarici işlər naziri E.Məmmədyarovun iranlı həmkarı K.Xərrazi ilə görüşündə İran Prezidenti S.M.Xatəminin respublikamıza yaxın günlərdə həyata keçiriləcək rəsmi səfəri, habelə siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığa dair məsələlər müzakirə olunmuşdur. K.Xərrazi Şimal-Cənub nəqliyyat dəhlizi layihəsində Azərbaycanın iştirakının İran tərəfindən dəstəkləndiyini bəyan etmişdir. Xarici işlər nazirlərinin danışıqlarının yekunlarına dair kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransı keçirilmişdir.

Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov Tehranda İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi A.Orazbay ilə də görüşmüşdür. Görüşdə İƏT-ə üzv ölkələrin dövlət başçılarının bu ilin sentyabr ayında Düşənbədə keçiriləcək zirvə toplantısına hazırlıq, habelə təşkilata üzv ölkələr arasında nəqliyyat, tarif və energetika sahələrində əməkdaşlığa dair məsələlər müzakirə edilmişdir.

Nazir E.Məmmədyarov Azərbaycanın Tehrandakı səfirliyinin əməkdaşları ilə görüşmüş, bu il iyulun 27-28-də respublikamızın xarici ölkələrdəki səfirləri ilə Bakıda keçirilən müşavirədə Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələr barədə ətraflı məlumat vermişdir.
Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov İran islam inqilabının lideri imam Xomeyninin məzar-məqbərə kompleksini ziyarət etmiş, abidənin önünə əklil qoymuşdur.

**«AZƏRTAC» 31.07.04**

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun İran İslam Respublikasının xarici işlər naziri Kamal Xərrazi ilə görüşünə dair**

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov avqustun 6-da ölkəmizdə səfərdə olan İran İslam Respublikasının xarici işlər naziri Kamal Xərrazinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.
Qonaqları səmimi salamlayan nazir Elmar Məmmədyarov Azərbaycan ilə İran arasında münasibətlərin inkişafındakı bugünkü uğurların təməlinin ümummilli liderimiz Prezident Heydər Əliyevin 2002-ci ildə qonşu ölkəyə rəsmi səfəri zamanı qoyulduğunu xüsusi vurğulamışdır. Nazir İran Prezidenti Məhəmməd Xatəminin Azərbaycana indiki rəsmi səfərinin və bu səfər zamanı imzalanmış ikitərəfli sazişlərin ölkələrimiz arasında dostluq münasibətlərini və siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığı daha da möhkəmləndirəcəyinə əmin olduğunu bildirmişdir.
Nazir Elmar Məmmədyarov ölkələrimiz arasında viza məsələlərinin sadələşdirilməsi istiqamətində işlərin aparılmasının vacib olduğunu və bunun xüsusən də kiçik ticarətin inkişafına təkan verəcəyini diqqətə çatdırmışdır.
İranın xarici işlər naziri Kamal Xərrazi ölkəsinin Prezidenti Məhəmməd Xatəminin respublikamıza rəsmi səfərini İran ilə Azərbaycan arasında əlaqələrin genişlənməsində mühüm rol oynayacağını qeyd etmiş və gələcəkdə dövlətlərimiz arasında siyasi və iqtisadi sahədə nailiyyətlərin artacağına əmin olduğunu bildirmişdir.
Görüşdə iranlı nazir Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, ticarət, biznes, enerji bölmələrində və digər sahələrdə ölkələrimizin əməkdaşlığı məsələlərinə toxunmuş və nəqliyyatla bağlı imzalanmış sazişlərin bütün region üçün əhəmiyyətli olduğunu vurğulamışdır.
Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə edilmişdir.

**XİN, Mətbuat Mərkəzinin məlumatı, 06.08.04**

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Moskvaya üçgünlük işgüzar səfərinə dair**

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov avqustun 17-də Moskvaya üçgünlük işgüzar səfərə gəlmişdir.

Elə həmin gün o, Rusiya Dövlət Dumasının Beynəlxalq işlər Komitəsinin sədri Konstantin Kosaçov ilə görüşdü.

Görüşdə ölkəmizin xarici işlər naziri və duma komitəsinin sədri Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu və bu münasibətləri bütün sahələrdə, xüsusən iqtisadi sahədə inkişaf etdirib dərinləşdirməyin zəruriliyini vurğuladılar.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dincliklə nizama salınması məsələsinə və bu prosesdə ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Rusiyanın roluna xüsusi diqqət yetirildi. E.Məmmədyarov danışıqlar prosesindən ətraflı söhbət açaraq, Azərbaycanın mövqeyini nəzərə çarpdırdı. O, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın bu yaxınlarda komanda-qərargah təlimləri keçirməsini və Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda yerli orqanlara “seçkilər”i kəskin tənqid etdi. E.Məmmədyarov bildirdi ki, erməni tərəfinin bu cür addımları danışıqlar prosesinə və Azərbaycan cəmiyyətində əhval-ruhiyyəyə mənfi təsir göstərir.

Nazir dedi: “Azərbaycanın mövqeyi çox sadədir - ərazi bütövlüyü prinsipinə əməl olunmalıdır. Bu, beynəlxalq birliyin əsas prinsipidir və Azərbaycan nizamasalmanın müxtəlif formalarını bu proses çərçivəsində müzakirə etməyə hazırdır”. E.Məmmədyarov həmçinin diqqətə çatdırdı ki, Azərbaycanın mövqeyini, demək olar, bütün beynəlxalq təşkilatlar dəstəkləyir. Avropa Şurasının baş katibi, ATƏT-in hazırkı sədri, ABŞ və Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən mövqelərini açıqlamış və ölkəmizin işğal edilmiş ərazilərində komanda-qərargah təlimləri və “seçkilər” keçirilməsini pisləmişlər. Ərazi bütövlüyü çərçivəsində ABŞ buna öz mənfi münasibətini birincilər sırasında açıqlamışdır. Avropa Birliyi də sərt mövqe tutmuşdur. Onların hamısı aydın şəkildə bəyan etmişdir ki, Azərbaycanın ərazi bütövlüyünü tamamilə dəstəkləyirlər. Azərbaycanın işğal olunmuş ərazilərini məskunlaşdırmağın qeyri-məqbulluğu barədə də fikirlər söylənilmişdir və bu, beynəlxalq normaların, o cümlədən Cenevrə Konvensiyasının və ona əlavə protokolların pozulması kimi qiymətləndirilir. Bu sənədlərdə bildirilir ki, işğal edilmiş ərazilərin məskunlaşdırılması qətiyyən yolverilməzdir.

K.Kosaçov bildirdi ki, Rusiya bu münaqişənin dincliklə nizama salınması yollarının axtarışı xəttini kifayət qədər şəffaf şəkildə aparır və hər vasitə ilə kömək göstərməyə hazırdır. Onun fikrincə, münaqişə nə qədər tez nizama salınarsa, bu, hamının xeyrinə olar, onun dondurulması Rusiyanın mənafelərinə əsla uyğun deyildir. Komitə sədri dedi: “Mən Strasburqda, Avropa

Şurası Parlament Assambleyasının iclasında Azərbaycan Prezidenti İlham Əliyevin nitqini dinləmişəm. Qeyd etməliyəm ki, Azərbaycan dövləti başçısının gətirdiyi dəlillər çox inandırıcı və sanballı idi. O, auditoriyaya çox gözəl təsir bağışladı. Görünürdü ki, BMT, ATƏT, Avropa Şurası kimi beynəlxalq təşkilatların əhval-ruhiyyəsi Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsinə doğru meyl edir".

Görüşdə regional və beynəlxalq əməkdaşlıq məsələləri barədə də fikir mübadiləsi aparıldı.

Azərbaycanın Rusiyadakı səfiri  Ramiz Rizayev, xarici işlər nazirinin müavini Xələf Xələfov görüşdə iştirak edirdilər.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov avqustun 17-də, Moskvaya rəsmi səfəri çərçivəsində Rusiya Dövlət Dumasının Beynəlxalq işlər komitəsinin sədri Konstantin Kosaçovla görüşmüşdür.

Söhbət zamanı ikitərəfli ticarət-iqtisadi, siyasi əlaqələrin, Azərbaycanın Rusiya və onun subyektləri ilə əməkdaşlıq məsələləri müzakirə edilmiş, mövcud əlaqələrin bundan sonra da genişləndirilməsinin vacibliyi vurğulanmışdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxunulmuşdur. K.Kosaçov Rusiyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və ölkəsinin bu münaqişənin həllində maraqlı olduğunu bildirmişdir. O demişdir ki, Rusiya münaqişə ilə bağlı tərəflərin əldə edəcəkləri hər hansı razılaşmanı dəstəkləyəcəkdir.

Daha sonra aktual regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparılmışdır. Terrorizmlə, narkotiklərlə və qeyri-qanuni miqrasiya ilə bağlı mübarizədə birgə səylərin, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi vurğulanmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunmuşdur.

Moskvada rəsmi səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Rusiyanın xarici işlər naziri Sergey Lavrovla avqustun 18-də keçirilmiş ikitərəfli danışıqların əsas yekunlarını AzərTAc üçün şərh etmişdir.

E.Məmmədyarov danışıqların yekunlarını müsbət qiymətləndirmişdir. Onun sözlərinə görə, Rusiya Federasiyası ilə qarşılıqlı münasibətlər Azərbaycanın xarici siyasətinin öncül istiqamətlərindən biridir və hazırda bu münasibətləri iki bərabər hüquqlu müstəqil dövlətin strateji tərəfdaşlığı kimi qiymətləndirmək olar. Nazir bildirmişdir ki, Rusiya tərəfi ilə siyasi və iqtisadi məsələlər, o cümlədən beynəlxalq terrorizmlə, narkotrafiklə, qanunsuz miqrasiya ilə mübarizə problemləri, habelə bir sıra digər beynəlxalq məsələlər müzakirə olunmuşdur.

E.Məmmədyarov qeyd etmişdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsi kifayət qədər intensiv müzakirə edilmişdir. Nazir demişdir: "Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin həllində Azərbaycanın tutduğu mövqeyi kifayət qədər yaxşı başa düşür". Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüquq prinsipləri əsasında nizama salınmalıdır,

bu prinsiplərin əsasını isə ərazi bütövlüyü təşkil edir. Biz belə hesab edirik ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiya nizamlama prosesində daha fəal iştirak etməlidir. Rusiya tərəfindən belə bir meyl müşahidə olunur, çünki xarici işlər naziri Sergey Lavrov bəyan etmişdir ki, Rusiya tərəfi problemin tezliklə həllinə tərəfdardır. İşğal olunmuş ərazilərin azad edilməsinin və qaçqınların təhlükəsizliyi təmin edilməklə doğma yurd-yuvalarına qayıtmasının zəruriliyi barədə Azərbaycanın mövqeyi getdikcə daha düzgün başa düşülür.
Azərbaycan XİN-in başçısı, eyni zamanda bildirmişdir ki, iqtisadi məsələlər bloku üzrə də çox maraqlı müzakirələr aparılmışdır. İki dövlətin prezidentlərinin tapşırığına, habelə Azərbaycanla Rusiya arasında imzalanmış sənədlərə uyğun olaraq, əmtəə dövriyyəsinin artırılmasından, ticarət və iqtisadi əlaqələrin inkişafından, habelə "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsindən söhbət getmişdir. Humanitar məsələlərə, o cümlədən xarici işlər nazirlikləri arasında məsləhətləşmələrə dair də maraqlı müzakirələr aparılmışdır. Xəzər problematikası da müzakirə olunmuşdur.
Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov həmin gün Rusiya Dövlət Dumasının sədri Boris Qrızlovla da görüşmüşdür. Görüşdə Azərbaycan-Rusiya münasibətlərinin və parlamentlərarası əlaqələrin inkişaf perspektivlərini müzakirə etmişlər.
E.Məmmədyarov Rusiyanın populyar "Exo Moskvı" radiostansiyasının birbaşa efirində də çıxış etmiş və ikitərəfli əməkdaşlığın perspektivləri ilə bağlı bir sıra suallara cavab vermiş, habelə Moskvada aparılan danışıqların yekunlarından bəhs etmişdir.

**«AZƏRTAC» 18.08.04**

### Praqada Azərbaycan və Ermənistan Xarici İşlər Nazirlərinin görüşü keçirildi

Cari ilin avqust ayının 30-da Çexiyanın paytaxtı Praqada Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun ermənistanlı həmkarı Vardan Oskanyanla görüşü keçirildi. Qapalı keçirildiyi üçün hələlik görüşün təfərrüatı məlum deyil.
Qeyd edək ki bir neçə gün əvvəl E.Məmmədyarov jurnalistlərə müsahibəsində görüşdə bir çox məsələlərin müzakirə olunacağını desə də, konkret hansı məsələ ətrafında fikir mübadiləsinin aparılacağını bildirməmişdi. V.Oskanyan isə informasiya agentliklərinə müsahibəsində qeyd etmişdi ki, görüşün məqsədi prezidentlər səviyyəsində Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqların aparılması üçün zəmin yaradılmasıdır. Bununla belə görüşdən heç bir nəticə gözləmədiyini vurğulayan Ermənistan xarici siyasət idarəsinin rəhbərinin sözlərinə görə, Praqa görüşünün yeganə nəticəsi hər iki tərəfin gələcək danışıqların hansı istiqamətdə aparılacağını müəyyənləşdirməsi ola bilər.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Praqada ermənistanlı həmkarı Vardan Oskanyanla keçirdiyi görüşün nəticələrini müsbət qiymətləndirir. Bu barədə ATV kanalına məlumat verən Azərbaycanın xarici siyasəti idarəsinin rəhbərinin sözlərinə görə, Praqa görüşü Dağlıq Qarabağ probleminin həlli ilə bağlı irəliyə doğru atılmış bir addım oldu və hər iki nazir dövlət başçılarına məruzə etdikdən sonra danışıqların gələcək taleyinə dair konkret qərar qəbul ediləcəkdir.

Qeyd edək ki, Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü sentyabrın 15-də MDB üzvü olan dövlətlərin başçılarının Astana sammiti çərçivəsində baş tutacaqdır.

**«ASSA-İRADA» 31.08.04**

## Astanada MDB Xarici İşlər Nazirləri və Hökumət Başçıları Şurasının İclaslarının keçirilməsinə dair

Sentyabrın 15-də Qazaxıstanın paytaxtı Astanada Müstəqil Dövlətlər Birliyi Xarici İşlər Nazirləri Şurasının iclası keçirilmişdir. İclasda xarici işlər naziri Elmar Məmmədyarovun başçılığı ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir.

Qazaxıstanın xarici işlər naziri Qasımcomərd Tokayev iclası açaraq iştirakçıları salamlamış, Beslanda, Rusiyanın başqa yerlərində və Daşkənddə törədilmiş terror aktlarını pisləmişdir. O demişdir ki, əgər terrorizmlə mübarizədə MDB çərçivəsində səyləri birləşdirməsək, bu bəlanın qarşısını almaq çətin olacaqdır.

İclasda beynəlxalq terrorizmlə və mütəşəkkil cinayətkarlıqla birgə mübarizədə MDB çərçivəsində hərtərəfli əlaqələrin genişləndirilməsi, habelə MDB-də islahatlar aparılması, onun rolunun artırılması, Birlik ölkələrinin hüquq mühafizə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, MDB-də azad iqtisadi zonaların yaradılması, mədəniyyət sahəsində əməkdaşlıq və bir sıra digər məsələlər müzakirə edilmiş, imzalanmaq üçün sənədlər hazırlanmışdır.

Həmin gün Astanada MDB Hökumət Başçıları Şurasının iclası olmuşdur. İclasda Baş nazir Artur Rasi-zadənin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir.

Qazaxıstanın Baş naziri Danial Axmetov iclası acaraq, üzv ölkələr arasında əlaqələrin genişləndirilməsində MDB-nin rolunun artırılmasından danışmışdır.

Hökumət başçıları Xarici İşlər Nazirləri Şurasının təqdim etdiyi sənədləri müzakirə etmiş, 30-dək sənədi imzalamışlar.

Qapalı keçən iclas qurtardıqdan sonra hökumət başçıları jurnalistlərin suallarına cavab vermişlər.

Sentyabrın 15-dən etibarən Rusiyanın Azərbaycanla sərhəddə nəzarəti gücləndirməsi ilə bağlı

suala cavabında Baş nazir Artur Rasi-zadə demişdir: Biz buna normal yanaşırıq, belə ki, bir ölkədə cinayət törətmiş adamlar sərbəst şəkildə digər ölkəyə keçə bilirlər. Azərbaycanın hüquq mühafizə orqanları ölkədə çoxlu belə cinayətkarı yaxalayaraq, Rusiyaya təhvil vermişlər. Biz Rusiyada baş vermiş bütün terror aktlarını, o cümlədən Beslanda törədilmiş cinayəti pisləyirik. Rusiyanın Azərbaycanla sərhəddə nəzarəti gücləndirməsi əlaqələrimizin genişlənməsinə mane olmayacaqdır.

**«AZƏRTAC» 15.09.04**

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarovun Gürcüstana rəsmi səfərinə dair**

Sentyabrın 29-da Gürcüstan Prezidenti Mixail Saakaşvili Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovu qəbul etmişdir.

E.Məmmədyarov görüşdən sonra jurnalistlərə Gürcüstan Prezidenti ilə söhbətin çox səmərəli olduğunu, siyasi, iqtisadi xarakterli məsələlərin müzakirə edildiyini bildirmişdir. O demişdir ki, görüşdə regional və beynəlxalq məsələlər, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Qars-Axalkalaki dəmir yolunun çəkilişi, münaqişələrin tənzimlənməsi və digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır. Həm Azərbaycan, həm də Gürcüstan tərəfinin mehriban qonşuluq, strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə böyük əhəmiyyət verdiyi vurğulanmışdır.

Azərbaycanın Tbilisidəki səfiri Ramiz Həsənov və Gürcüstanın Bakıdakı səfiri Zurab Qumberidze qəbulda iştirak etmişlər.

Həmin gün Elmar Məmmədyarov, Azərbaycan Respublikasının Gürcüstandakı səfiri Ramiz Həsənov və Azərbaycan nümayəndə heyətinin üzvləri Tbilisidə ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan parka getmiş, buradakı xatirə abidəsi önünə əklil qoymuşlar.

**«AZƏRTAC», 29.09.04**

***Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarovun digər görüşləri***

1 iyul - Avropa Şurası Parlament Assambleyasının baş katibi Bruno Haller ilə görüş

9 iyul - Azərbaycan Respublikasında rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf ilə görüş

12 iyul - MDB-nin icraçı katibi Vladimir Ruşaylo ilə görüş

12 iyul - Kanadanın, Qana Respublikasının, Filippin Respublikasının, Birləşmiş Ərəb Əmirliklərinin, Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri Maykl Lir, Fransis Yahaya Mahama, Ernesto LLamas, Xalid Ğanim Məhəmməd əl-Ğeys və Əbdülhəmid Senuci Bereksini ilə görüş

12 iyul - İspaniyanın Türkiyədəki və ölkəmizdəki səfiri Manuel De La Kamara ilə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüş

14 iyul - Ümumdünya Səhiyyə Təşkilatı Avropa Regional Bürosunun direktoru Mark Danzon ilə görüş

15 iyul - ATƏT-in Bakıdakı nümayəndəliyinin yeni təyin olunmuş başçısı səfir Maurisio Pavesi ilə görüş

16 iyul - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə ATƏT-in Minsk qrupunun Amerika Birləşmiş Ştatlarından, Rusiyadan və Fransadan olan həmsədrləri Stiven Mənni, Yuri Merzlyakovu və Anri Jakole ilə görüş

3 avqust - YUNİSEF-in ölkəmizdəki nümayəndəliyinin yeni başçısı təyin olunması münasibətilə xanım Hana Singer ilə görüş

5 avqust - Küveyt Dövlətinin vəqflər və islam işləri naziri doktor Abdullah Məətuq əl-Məətuqun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

6 avqust - İran İslam Respublikasının Prezidenti Məhəmməd Xatəmi ilə görüş

6 avqust - Avropa Şurası Parlament Assambleyası Monitorinq Komitəsinin ölkəmiz üzrə həmməruzəçiləri Andreas Qross və Andres Herkel ilə görüş

9 avqust - Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Məhəmməd Əziz Xanın başçılığı ilə ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüş

10 avqust - Misir Ərəb Respublikasının ölkəmizdəki səfiri xanım Cihan Əmin Məhəmməd Əli respublikamızda diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar ilə görüş

16 avqust - Cənubi Koreya Respublikasının Özbəkistanda və Azərbaycanda akkreditə olunmuş səfiri Kim Sonq Xvan ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar ilə görüş

23 avqust - Danimarkanın Xarici İşlər Naziri Per Stiq Möller ilə görüş

31 avqust - Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının sədri Akira Amarinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

31 avqust - BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının baş müfəttişi Tahir Əli ilə görüş

1 sentyabr - Almaniyanın Bakıdakı fövqəladə və səlahiyyətli səfiri Klaus Qrevlixi onun ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar ilə görüş

10 sentyabr - Rusiyanın Azərbaycandakı səfiri Nikolay Ryabov ilə diplomatik fəaliyyətin başa çatması münasibətilə görüş

11 sentyabr - İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Əhəd Qəzai ilə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüş

17 sentyabr - Misirin Azərbaycan Respublikasındakı yeni təyin olunmuş səfiri Yusif Əhməd İbrahim Əl-Şarkavi ilə görüş

17 sentyabr - Dünya Bankının ölkəmizdəki nümayəndəsi Əhməd Cahan ilə görüş

21 sentyabr Azərbaycan Respublikasında səfərdə olan Böyük Britaniyanın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Brayan Fol ilə görüş

21 sentyabr Azərbaycan Respublikasına səfərə gələn ATƏT-in fəaliyyətdə olan sədrinin Azərbaycan və Ermənistan üzrə xüsusi elçisi Filipp Dimitrov, Bolqarıstan Xarici İşlər Nazirliyinin Qafqaz məsələləri üzrə məsul nümayəndəsi Dimiter Dimitrov və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik ilə görüş

21 sentyabr - Bakıda səfərdə olan Qərbi Avropa Birliyi Assambleyasının sədr müavini, qurumun Qafqaz regionunda sabitlik və təhlükəsizlik məsələləri üzrə məruzəçisi, İtaliya parlamentinin deputatı Marko Zakkera ilə görüş

# *RƏSMİ MƏLUMAT*

## Azərbaycanın Avropa Şurasının çərçivə konvensiyasını yerinə yetirməsi haqqında qətnamə qəbul edilmişdir

Avropa Şurasının Nazirlər Komitəsi iyulun 13-də öz iclasında "Milli azlıqların qorunması haqqında" Çərçivə Konvensiyasının Azərbaycan tərəfindən yerinə yetirilməsinə dair qətnaməni müzakirə və qəbul etmişdir.

Qətnamədə deyilir: "Azərbaycan azlıqların geniş dairəsinə dair Çərçivə Konvensiyasının tətbiqi sahələrinin genişləndirilməsində, xüsusilə, diqqətəlayiq səylər göstərmişdir. Azərbaycanda milli azlıqların mədəniyyətlərini qorumağın və təmin etməyin vacibliyi təqdir olunur və ölkənin mədəni rəngarəngliyinin uzun tarixi yüksək qiymətləndirilir;

Dağlıq Qarabağ münaqişəsi və onun nəticələri Çərçivə Konvensiyasının həyata keçirilməsi sahəsində səylərə xeyli mane olmuşdur. Azərbaycanda ümumi dözümlülük ruhu olmasına baxmayaraq, Azərbaycan ərazisinin xeyli hissəsinin işğalının davam etməsi və böyük sayda insanların didərgin salınması gərginlik doğurmuşdur ki, bunun da nəticəsində pozucu dözümsüzlük təzahürləri meydana gəlmişdir. Ümid var ki, mövcud münaqişənin uzunmüddətli və sülh yolu ilə həlli tapılacaq və bu istiqamətdə səylər göstəriləcəkdir. Ölkənin ərazi bütövlüyünə və digər beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq, qəti həll bütün əlaqədar şəxslərin hüquqlarını qorumalıdır".

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin qətnamənin qəbul edilməsini dəstəkləyir və "Milli azlıqların qorunması haqqında" Çərçivə Konvensiyasının Azərbaycan Respublikası tərəfindən yerinə yetirilməsinin müzakirəsində Avropa Şurası Nazirlər Komitəsinin fəal rolunu alqışlayır.

Xarici İşlər Nazirliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində prinsipial mövqe tutduqlarına görə də Avropa Şurasının üzvü olan dövlətlərə təşəkkürünü bildirir.

**XİN, Mətbuat mərkəzinin məlumatı, 14.07.04**

## "Azərbaycan Respublikası hökuməti ilə Gürcüstan hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş" in imzalanmasına dair

Bu il mayın 4-də "Azərbaycan Respublikası hökuməti ilə Gürcüstan hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. Azərbaycan tərəfi mayın 18-də həmin sənədi təsdiq etmişdir.

Respublika Xarici İşlər Nazirliyindən AzərTAc-a bildirmişlər ki, Gürcüstan tərəfi sazişin təsdiq olunması barədə məlumat vermişdir. Beləliklə, sənədin 12-ci maddəsinə uyğun olaraq, saziş 2004-cü il iyulun 2-dən qüvvəyə minmişdir.

**«AZƏRTAC» 20.07.04**

**“Azərbaycan Respublikası hökuməti ilə İtaliya Respublikası hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya”nın imzalanmasına dair**

İyulun 21-də Vergilər Nazirliyində “Azərbaycan Respublikası hökuməti ilə İtaliya Respublikası hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya”nın və ona əlavə Protokolun imzalanması mərasimi olmuşdur. Sənədləri vergilər naziri Fazil Məmmədov və İtaliyanın Azərbaycandakı səfiri xanım Marqarita Kosta imzalamışlar.

Fazil Məmmədov imzalanma mərasimindən əvvəl çıxış edərək, ikitərəfli iqtisadi münasibətlərin inkişafında Konvensiyanın rolundan danışdı və bildirdi ki, bu sənəd ölkələrimizin iş adamları arasında əlaqələrin daha da fəallaşmasına xidmət edəcək, yeni sərmayələrə yol açacaqdır.

Nazir səmərəli işə görə xanım Marqarita Kostaya və Konvensiyanın hazırlanması üzrə işçi qrupun üzvlərinə təşəkkür etdi.

Səfir Marqarita Kosta İtaliya-Azərbaycan iqtisadi münasibətlərinin inkişafını dərinləşdirmək üçün bu sənədin əhəmiyyətini vurğuladı. O dedi ki, İtaliya biznesmenləri Azərbaycanla əməkdaşlıqda maraqlıdırlar və bu sənəd onların buradakı mənafelərini qoruyacaqdır.

**«AZƏRTAC» 21.07.04**

# *ÇIXIŞLAR*

**"Əsrin müqaviləsi"nin 10-cu ildönümünə**
**Həsr olunmuş təntənəli mərasimdə**
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin**
**nitqi**

**Bakı, 20 sentyabr, 2004 il**

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl bir gündür, bayram günüdür. "Əsrin müqaviləsi"nin 10-cu ildönümünü qeyd edirik. Mən bu bayram günündə Azərbaycana gəlmiş bizim hörmətli qonaqlarımızı xüsusi salamlamaq istəyir, onlara öz dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

10 il bundan əvvəl "Əsrin müqaviləsi"nin imzalanması ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin neft strategiyasının təməli qoyuldu. Ötən dövr ərzində Azərbaycan hərtərəfli inkişaf etdi. Ölkəmiz iqtisadi baxımdan çox böyük nailiyyətlər əldə etdi, siyasi cəhətdən dünya birliyində özünəlayiq yerini tuta bildi. Azərbaycanda çoxlu sosial məsələlər öz həllini tapdı. Bir sözlə, ölkəmiz ötən 10 il ərzində böyük və şərəfli bir yol keçdi.

Eyni zamanda, hamımız yaxşı xatırlayırıq ki, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalananda ölkəmizdə vəziyyət çox çətin idi. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra gedən proseslər, təəssüflər olsun ki, ölkəmizi uçurum kənarına gətirmişdi. Sosial-iqtisadi, siyasi, hərbi böhran hökm sürürdü. Azərbaycan torpaqları Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunurdu, ölkədə xaos, anarxiya, hərc-mərclik mövcud idi, vətəndaş müharibəsi başlanmışdı. İqtisadiyyat isə tamamilə dağılmışdı. O illərdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı.

Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu.

Əlbəttə, inkişafın çox mühüm amillərindən biri də neft amili idi. Bu amildən istifadə etmək lazım idi.

Mən o dövrü çox yaxşı xatırlayıram. Həmin illərdə Azərbaycana sərmayə qoymaq istəyən şirkətlərin sayı o qədər də çox deyildi. Çünki Azərbaycan dünyada riskli bir ölkə kimi tanınırdı və əlbəttə, buraya böyük həcmdə kapital qoyuluşunun cəlb edilməsi çoxlu səylər, siyasi məharət, uzaqgörənlik tələb edirdi. Bütün bu məsələlər öz həllini tapdı. "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyevin neft strategiyasının başlanması demək idi. Məhz onun uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, cəsarəti sayəsində bu müqavilə imzalandı. Xatırlayırsınız ki, buna həm ölkə daxilində, həm də xaricdə çox ciddi müqavimət var idi. Amma bütün bu çətinliklərə baxmayaraq Azərbaycan öz istəyinə nail oldu. Neft müqaviləsi imzalandı və Azərbaycana böyük həcmdə xarici sərmayənin gətirilməsi təmin edildi. Ötən dövr ərzində ölkəmiz adambaşına düşən xarici sərmayənin həcminə görə təkcə keçmiş sovet respublikaları arasında deyil, Şərqi Avropa ölkələri arasında da qabaqcıl mövqelərə sahib oldu. Ölkəmizə gətirilən sərmayələr Azərbaycanın neft sektorunun inkişafında böyük rol oynamaqla yanaşı, qeyri-neft sektorunun inkişafına da güclü təkan verdi. Azərbaycan tarixdə ilk dəfə Xəzər dənizini xarici şirkətlər üçün açdı və beləliklə, Xəzər dənizində beynəlxalq konsorsium yarandı. Müxtəlif ölkələri təmsil edən aparıcı şirkətlər Azərbaycanla çox uğurlu əməkdaşlığa başladılar və bunun nəticəsində ölkəmiz sürətlə, hərtərəfli inkişaf etməyə başladı.

Azərbaycanın neft sektoru, təbii ki, ölkə iqtisadiyyatı üçün həlledici amildir. Əlbəttə, bizim bütün səylərimiz neft sektorunun daha sürətlə inkişafı üçün tədbirlər görülməsinə yönəldilmişdir. Bu istiqamətdə "Əsrin müqaviləsi"nin Azərbaycanın müasir tarixindəki rolu müstəsna əhəmiyyətə malikdir. Ölkəyə milyardlarla dollar sərmayə qoyuldu, infrastruktur yaradıldı. Azərbaycanda müasir qazma qurğuları yenidən tikilib istifadəyə verildi. Bu gün Azərbaycanın bütün dünya standartlarına cavab verən dörd müasir qazma qurğusu vardır – "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" və "Heydər Əliyev" nəhəng qazma qurğusu. Ölkəmizdə on minlərlə yeni iş yerləri açıldı, büdcəyə vergilər şəklində böyük vəsait daxil oldu. Bir sözlə, bütün cəhətlərdən "Əsrin müqaviləsi"nin Azərbaycanın müasir tarixində rolu çox böyük olmuşdur.

Azərbaycan Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyasını müstəqil surətdə həyata keçirir. Ölkəmiz Xəzərin ona məxsus olan sektorunda müxtəlif şirkətlərlə çox uğurlu əməkdaşlıq edir. 25 neft şirkəti ilə 23 neft müqaviləsi imzalanmışdır. Bunların həyata keçirilməsi çərçivəsində ölkəmizə 50 milyard dollardan çox sərmayə qoyulacaqdır. İndiyədək 10 milyard dollardan çox sərmayə qoyulub və növbəti 3-4 ildə bir o qədər də qoyulacaqdır. Bu onu göstərir ki, Azərbaycan xarici sərmayəçilər üçün çox münasib bir məkandır. "Əsrin müqaviləsi"ndə Azərbaycanın iqtisadi maraqları tam şəkildə təmin edilmişdir. Bununla yanaşı, xarici sərmayəçilər üçün də çox məqbul şərait yaradılıbdır. Əgər belə olmasaydı, sərmayələrin bu həcmdə Azərbaycana gətirilməsi də mümkün olmazdı. Xarici tərəfdaşlarımız əmindirlər ki, Azərbaycana qoyulan hər bir manat, hər bir dollar lazımi səviyyədə qorunur, ölkəmizin

qanunvericiliyi bunun üçün təminat verir. Bilirsiniz ki, imzalanmış hər bir müqavilə Milli Məclis tərəfindən təsdiq olunur. Azərbaycan etibarlı tərəfdaşdır. Bu, bizim üçün çox vacibdir. Çünki qeyd etdiyim kimi, 1994-cü ildə ölkəmiz həm siyasi-iqtisadi cəhətdən çətin vəziyyətdə idi, eyni zamanda, Azərbaycan haqqında beynəlxalq aləmdə kifayət qədər məlumat yox idi. Mövcud olan məlumat da Azərbaycandakı reallığı kifayət qədər əks etdirmirdi. Belə olan halda Azərbaycanın çox etibarlı, sabit, xarici sərmayələr üçün əlverişli bir ölkə kimi tanınması bizim üçün çox vacib idi və buna nail olduq. Bu, özünü təkcə neft sektoruna deyil, eyni zamanda, qeyri-neft sektoruna qoyulmuş sərmayələrdə də əks etdirir. Bu onu göstərir ki, dünyada, beynəlxalq aləmdə bizim reytinqimiz, imicimiz çox sürətlə artır və güclənir. Beləliklə, bu, bizə ölkəmizi hərtərəfli inkişaf etdirməyə imkan verəcəkdir.

Biz iqtisadiyyatımızı şaxələndirməliyik ki, o, təkcə neft amilinə söykənməsin. Bilirsiniz ki, bunun üçün çox geniş tədbirlər görülür və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoru uğurla inkişaf edir. Gələcəkdə bu, bizə imkan verəcəkdir ki, ölkəmizin hər bir bölgəsi, rayonu inkişaf etsin. Amma bütün bunların təməlində neft amili durur. Biz bunu unutmamalıyıq, bu, belədir və uzun illər belə də olacaqdır. Şadam ki, neftdən əldə olunan gəlirlər də çox səmərəli şəkildə qorunub saxlanılır və onlardan istifadə edilir. Bilirsiniz ki, Heydər Əliyevin neft strategiyasının tərkib hissəsi olan məsələlərdən biri də neftdən əldə olunan gəlirlərin Azərbaycan vətəndaşları arasında ədalətli şəkildə bölünməsi, ölkə iqtisadiyyatının sonrakı inkişafında rol oynaması və gələcək nəsillər üçün bir əmanət kimi saxlanılmasıdır. Bütün bu vəzifələr həyata keçirilir.

Azərbaycanda Heydər Əliyev tərəfindən yaradılmış Neft Fondu çox şəffaf və açıq şəkildə fəaliyyət göstərir. Fondda beynəlxalq audit keçirilir, onun gəlirləri və xərcləri barədə ictimaiyyətə mütəmadi olaraq məlumat verilir. Bu, çox vacib amildir. Azərbaycan neft ölkəsi kimi öz milli sərvətindən səmərəli istifadə etməlidir. Təsadüfi deyildir ki, Neft Fondundan ayrılan ilk ödəmələr ölkəmizdə ən çətin və ağır vəziyyətdə yaşayan qaçqın və köçkünlərimizin sosial problemlərinin həllinə yönəldilmişdir. Bu, Azərbaycan üçün prioritet məsələdir. Ermənistanın təcavüzündən sonra öz doğma torpaqlarından didərgin düşmüş qardaş və bacılarımız daim diqqət mərkəzində olmalıdır və diqqət mərkəzindədirlər. Bilirsiniz ki, bu, keçmişdə də belə olub, bu gün də belədir. Hazırda qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbələr, yeni şəhərciklər, xəstəxanalar, məktəblər və digər obyektlər məhz Neft Fondunun vəsaiti hesabına tikilir.

Eyni zamanda, Azərbaycanda son müddət ərzində digər sosial məsələlərin həllinə böyük diqqət göstərilir. Maaşlar və pensiyalar artırılır və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Mən prezident seçkiləri ərəfəsində demişdim ki, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdır və yaşayacaqlar. Bunu etmək üçün hər cür imkanımız vardır. Ən önəmlisi isə dövlətin düzgün siyasəti vardır. Bu siyasət Heydər Əliyev siyasətidir. Mən seçkilərdən əvvəl

bəyan etmişdim və söz vermişdim ki, bu siyasətə sadiq qalacağam və onu öz fəaliyyətimdə həyata keçirəcəyəm. Bu gün sizə deyə bilərəm ki, Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır, güclənir və bundan sonra da əbədi olaraq yaşayacaqdır.

Onu da qeyd etməliyəm ki, bugünkü uğurlarımızda ötən əsrin 70-80-cı illərində yaradılmış infrastruktur da çox mühüm rol oynayır. Azərbaycanda neft infrastrukturu məhz o illərdə yaranmış və yeni müəssisələr istifadəyə verilmişdir. Bu gün Heydər Əliyevin adını daşıyan Dərin özüllər zavodu da məhz 1970-ci illərdə yaradılmışdır. Əgər bu gün o zavod olmasaydı, bizim həyata keçirdiyimiz bütün neft layihələri azı 5-7 il gecikəcəkdi. Bu, bir daha onu göstərir ki, xalqımızın ümummilli lideri 1970-ci illərdə rəhbərlikdə olan zaman bu məsələlərə böyük diqqət göstərirdi.

Hazırda Bakı-Tbilisi-Ceyhan boru xətti uğurla inşa edilir və yaxınlarda istismara veriləcəkdir. Digər neft kəmərləri – Bakı-Novorossiysk, Bakı-Supsa kəmərləri istismardadır. Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verildikdən sonra ölkə iqtisadiyyatına daxil olacaq gəlirlər artacaqdır və bu, bizə qarşımızda duran bütün sosial və iqtisadi məsələləri uğurla həll etməyə imkan verəcəkdir.

Azərbaycanın Xəzər dənizi sektorunda yerləşən "Şahdəniz" qaz yatağı da bizim gələcək inkişafımız üçün çox önəmli rol oynayacaqdır. Bu istiqamətdə də böyük işlər görülür və əminəm ki, "Şahdəniz" yatağından çıxarılacaq qazın Türkiyəyə və Avropaya nəqli də uğurla təmin ediləcəkdir.

Bir sözlə, qarşıya qoyduğumuz bütün məsələlər öz həllini tapıbdır. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanarkən bəziləri bunun uğuruna inanmırdı və hesab edirdilər ki, müqavilə elə kağız üzərində qalacaqdır. Çünki onun həyata keçirilməsi üçün təkcə iqtisadi deyil, eyni zamanda, siyasi və coğrafi-siyasi məsələlər öz həllini tapmalı idi. Heydər Əliyevin neft strategiyası və Heydər Əliyev diplomatiyası qarşımızda duran bütün məsələlərə nail olmaq üçün imkan yaratdı. Bu gün biz müqavilənin 10 illik yubileyini qeyd edərək deyə bilərik ki, artıq bütün məsələlər öz həllini tapmışdır. Əminəm ki, Azərbaycan bundan sonra da sürətlə inkişaf edəcək, yaxın zamanlarda qüdrətli dövlətə çevriləcəkdir.

Bilirsiniz ki, son müddət ərzində Azərbaycanda həyata keçirilən siyasi və iqtisadi islahatlar öz gözəl nəticələrini verməkdədir. Ölkə iqtisadiyyatı inkişaf edir. Seçkilərdən ötən dövr ərzində 70 minədək yeni iş yeri açılmışdır, regionların sosial problemləri öz həllini tapır. Bir sözlə, biz düzgün yoldayıq. Bu yolda hamımıza uğurlar, müvəffəqiyyətlər arzulayıram.

Əziz dostlar!

"Əsrin müqaviləsi"nin 10-cu ildönümü münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**«AZƏRTAC» 20.09.04**

## Speech of the President of the Republic of Azerbaijan Ilham Aliyev at The United Nations General Assembly's 59th Session New York, September 24, 2004

Mr. President,

Ladies and Gentlemen,

I would like to join the previous speakers and congratulate Mr. Jean Ping on his election to the post of the President of the Fifty-ninth session of the United Nations General Assembly. I also wish to congratulate his predecessor Mr. Julian Robert Hunte for his exemplary stewardship of the Assembly during his Presidency of the Fifty-eighth session.

At the Millennium Summit Member States have committed themselves to a shared vision of global solidarity and common security. We reaffirmed our faith in the United Nations and its Charter as indispensable for a more peaceful, secured and just world. As we entered the new century, we have done our best to maintain the vital importance of international law, so that all countries may have count on this Organization in their hour of need and the United Nations in its turn could fulfill what the world expects from it.

Some of our actions sought to protect millions of innocent people, especially women and children that still fall victims of brutal armed conflicts. Others endeavored to establish a more equitable world economy, where all countries must have equal chances for fair competition.

Azerbaijan makes its own contribution to the strengthening of global and regional security. Being one of the active members of the global coalition against international terrorism, Azerbaijan faithfully cooperates bilaterally and within multilateral frameworks to suppress this evil that continue to bring death and sufferings to innocent peoples.

Azerbaijan is amongst those countries who suffered directly from the consequences of armed conflicts existing on its territory. In reality, these conflicts are interlinked and we have no other choices than to face them in cooperation and in complex. There should be no room for any double standards.

Mr. President,

Since the very day of its membership in the UN Azerbaijan constantly draws attention of the international community to the conflict between Armenia and Azerbaijan over Nagorno-Karabakh and the occupation by Armenia of the Azerbaijani territories. Azerbaijan expected UN to compel the aggressor to move out from its lands and to let expelled Azerbaijani population to return to their homes.

Should I remind that the Security Council in 1993 unanimously adopted four resolutions 822, 853, 874 and 884 in response to the occupation by Armenia of the territories of sovereign Azerbaijan? These resolutions confirmed the Nagorno-Karabakh region as the part of Azerbaijan, resolutely called for respect for the sovereignty and territorial integrity of Azerbaijan and its internationally recognized borders, and underlined inadmissibility of the use of force for the acquisition of territory.

The UN resolutions demanded an immediate, complete and unconditional withdrawal of occupying forces from all occupied areas of Azerbaijan and establishment of conditions for safe return of displaced people to the places of their permanent residence.

None of these resolutions which were called to restore justice, peace and territorial integrity of Azerbaijan has been implemented by Armenia which never respected and recognized the fundamental principles of international law contained in the resolutions that laid down the basis for the settlement of this conflict.

Nagorno-Karabakh and 7 other regions of Azerbaijan, which makes 20% of the territory of Azerbaijan, are for more than ten years occupied by Armenia. As a result of the policy of ethnic cleansing conducted by Armenia more than 1 million of the Azerbaijani people became refugees and internally displaced people.

The silent stance of the Security Council had a devastating impact on the settlement process. Ignoring the resolutions, trying to consolidate the results of its military aggression and not being punished for that, Armenia has consequently launched an outrageous policy of the massive illegal settlement of Armenian population in the occupied Azerbaijani territories, which is another blatant violation of the international law, in particular the Fourth Geneva Convention of 1949 on the Protection of Civilians in the Times of War.

Moreover the situation deteriorates with the use of these territories for drug trafficking, arms transfers, harboring terrorists, illegal economic activities, smuggling. The occupied Azerbaijani territories become kind of grey zone, out of control of the Azerbaijan's Government, areas free from any international monitoring. Self-proclaimed, non-recognized so-called "Nagorno-Karabakh republic" is a constant threat to peace and security in the whole region. Armenian aggressors and Nagorno-Karabakh separatists are also exploiting natural resources in the occupied Azerbaijani territories, trying to engage overseas companies in the illegal business.

I call upon the Member States to take all necessary measures to make their nationals and companies to respect international law and prevent them from illegal activities on the territory of our country. Azerbaijan on its own part will undertake all necessary legal and practical measures to hold these companies accountable for participation in stealing the natural wealth belonging to a sovereign nation.

Furthermore, Armenia also falsifies the history and misappropriates the cultural and architectural heritage of the Nagorno-Karabakh region of Azerbaijan. Religious and historical monuments, ancient manuscripts and other cultural properties have been destroyed, re-fashioned, plundered and removed.

The process of political settlement of the conflict conducted within the OSCE Minsk Group for the last 12 years, thus far has yielded no results. No serious consideration has been given by OSCE Minsk Group to implementation of the Security Council resolutions, assessment of the situation on the ground, and illegal activities carried out by Armenia on the occupied territories of Azerbaijan.

It is obvious that under current passive and silent attitude of the UN, its Security Council, OSCE and its Minsk Group and without strong pressure from the international community, Armenia will not move from its aggressive and destructive stance. The illegal actions of Armenia in the occupied Azerbaijani territories and its position within the negotiation process prove that Armenia is aimed not at finding a solution to the problem but rather at prolongation further the negotiations and consolidating the results of the aggression, trying to impose in the end afait accompli-based settlement.

From this high podium I wish to stress that the settlement may be based only on international law and democracy, not on ethnic cleansing and de-facto annexation of territory of a sovereign state.

Azerbaijan will never reconcile with the occupation of its territories, violation of its territorial integrity and results of ethnic cleansing. The return of Azerbaijani displaced population to their homes remains one of our key priorities in the process of settlement of the conflict. But before our expelled people, refugees and internally displaced people are back home, there is still an urgent need for all the relevant UN agencies, donor countries and international humanitarian organizations to be actively involved in addressing the suffering of this most affected part of population.

The Government of Azerbaijan spares no time and effort and financial resources to do its part, but given the scale of displacement this is not sufficient. Burden sharing between the Government and relevant international organizations is crucial. Requested assistance, besides purely material support, is seen in renewing international attention to the problem as well as in providing for better coordination on the part of the UN and its specialized agencies of efforts by all international organizations. We expect more responsive strategy by the UN in relation to the situation of a "forgotten humanitarian crisis" in Azerbaijan.

Azerbaijan is fully committed to the objectives of poverty eradication and promotion of good governance. Based on this approach and measures undertaken, we currently observe increasing economic performance and growth. Azerbaijan is making its contribution to the development of transregional cooperation and is promoting transportation and communication networks such as TRACECA, Baku-Tbilisi-Ceyhan and Baku-Tbilisi-Erzurum oil and gas pipelines. These projects will ensure predictable access for exports of land-locked countries to world and regional markets. Benefits of that should reach the poorest in each participating country.

To successfully tackle all the challenges the United Nations has to adapt itself. The long-standing issue of the UN reform needs to be resolved finally. Inability of the UN Security Council to cope with problems, particularly related to armed conflicts is obvious.

The new Security Council should be more representative, responsible and democratic, its working methods more transparent, more rapidly responsive to new challenges, risks and threats of the twenty-first century. The pressing issue is to elaborate viable mechanisms for the implementation of the UN Security Council resolutions.

It is an obligation of all of us to collectively apply effective approaches towards current problems, enabling stable environment for sustainable growth and democratic development of nations. This can only be achieved through reinforcement of norms and principles of international law, friendly relations and mutually beneficial cooperation among states.

Thank you.

**www.president.az 25.09.04**

## BMT Baş Məclisi 59-cu sessiyasının Ümumi Müzakirələrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı

**Nyu-York, 24 sentyabr, 2004 il**

Hörmətli cənab Sədr,

Xanımlar və cənablar,

Əvvəlki natiqlərə qoşularaq, cənab Jan Penqi BMT Baş Məclisi 59-cu sessiyasının sədri vəzifəsinə seçilməsi münasibətilə təbrik edirəm. Mən həmçinin onun sələfi cənab Julian Robert Hanteyə 58-ci sessiyaya sədrliyi dövründə Məclisi nümunəvi idarə etməsi münasibətilə təbriklərimi çatdırmaq istərdim.

Cənab Sədr,

Üzv dövlətlər Minilliyin Zirvə Toplantısında özlərinin qlobal həmrəyliyə və ümumi təhlükəsizliyə şərikli baxışlarına sadiqliyini ifadə etmişlər. Biz daha sülhsevər, təhlükəsiz və ədalətli dünya üçün çox zəruri olan BMT və onun Nizamnaməsinə inamımızı bir daha təsdiqləmişdik.

Yeni əsrə qədəm qoyan zaman bütün dövlətlərin lazım olan anda bu təşkilata güvənməsi və öz növbəsində, BMT-nin dünyanın ondan gözlədiyini həyata keçirməsi məqsədi ilə beynəlxalq hüququn ümdə vacibliyini təmin etmək üçün əlimizdən gələni etmişik.

Fəaliyyətimizin bir qismi qəddar silahlı münaqişələrin qurbanlarına çevrilmiş milyonlarla günahsız insanların, xüsusilə qadın və uşaqların müdafiə edilməsi məqsədini daşıyır. Fəaliyyətimizin digər qismi isə, bütün dövlətlərin doğru rəqabəti üçün bərabər imkanları təmin edən daha ədalətli dünya iqtisadiyyatının qurulmasına yönəlmişdir.

Azərbaycan qlobal və regional təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz töhfəsini verməkdədir.

Ölkəmiz beynəlxalq terrorizmə qarşı qlobal koalisiyanın fəal üzvlərindən biri olaraq, günahsız insanlara ölüm və məşəqqət gətirməkdə davam edən bəlanın qarşısını almaq məqsədi ilə həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə etibarlı əməkdaşlıq həyata keçirir.

Azərbaycan öz ərazisində mövcud olan silahlı münaqişələrin nəticələrindən birbaşa əziyyət çəkən ölkələrdəndir.
Əslində, bu münaqişələr bir-birinə bağlıdır və bizim bu münaqişələri birgə əməkdaşlıq əsasında kompleks şəkildə aradan qaldırmaqdan başqa yolumuz yoxdur. Bu işdə heç bir “ikili standart”lara yol vermək olmaz.
Cənab Sədr,
Azərbaycan BMT-yə üzv olduğu ilk günlərdən daim beynəlxalq birliyin diqqətini Dağlıq Qarabağ ilə bağlı Ermənistan-Azərbaycan münaqişəsi və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması məsələsinə yönəltmişdir. Ölkəmiz BMT-dən təcavüzkarı işğal olunmuş torpaqlardan geri çəkilməyə məcbur edəcəyini və beləliklə, öz yurdlarından qovulmuş Azərbaycan vətəndaşlarının daimi yaşayış yerlərinə qayıtması üçün imkan yaradılacağını gözləyirdi.
Suveren Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalına cavab olaraq, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə 822, 853, 874, 884 nömrəli 4 qətnaməni yekdilliklə qəbul etdiyini bir daha yada salmaq istərdim. Bu qətnamələr Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi olmasını təsdiqləmiş və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət edilməsinə qəti şəkildə çağırmış və ərazilərin əldə edilməsi məqsədi ilə güc işlədilməsinin yolverilməz olduğunu vurğulamışdır. BMT qətnamələri Azərbaycanın zəbt olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını və köçkün düşmüş insanların daimi yaşayış yerlərinə təhlükəsiz qayıtması üçün şəraitin təmin olunmasını tələb etmişdir.
Sülhün, ədalətin, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə çağıran qətnamələrin heç biri münaqişənin həlli üçün əsas təşkil edən beynəlxalq hüququn fundamental prinsiplərini heç zaman tanımayan və onlara hörmət etməyən Ermənistan tərəfindən yerinə yetirilməmişdir.
Azərbaycan ərazisinin 20 faizini təşkil edən Dağlıq Qarabağ və Azərbaycanın 7 digər rayonu on ildən artıqdır ki, Ermənistan tərəfindən işğal olunmuşdur. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.
Cənab Sədr,
Təhlükəsizlik Şurasının biganəliyi münaqişənin həlli prosesinə dağıdıcı təsir göstərir. Qətnamələrə məhəl qoymayan, hərbi təcavüzünün nəticələrini möhkəmləndirməyə çalışan və bu hərəkətlərinə görə cəzasız qalan Ermənistan nəticə etibarilə işğal olunmuş Azərbaycan ərazilərində Ermənistan əhalisinin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması kimi qəddar siyasət həyata keçirmişdir ki, bu da beynəlxalq hüququn, xüsusilə Müharibə Zamanı Mülki

Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş 4-cü Cenevrə Konvensiyasının müddəalarının açıq şəkildə növbəti pozulmasıdır.

Bundan əlavə, həmin ərazilərdən narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, silah ötürülməsi, qeyri-qanuni iqtisadi fəaliyyət, qaçaqmalçılıq məqsədi ilə istifadə edilməsi, bu ərazilərin terrorçu yuvasına çevrilməsi vəziyyəti daha da gərginləşdirir.

İşğal olunmuş Azərbaycan torpaqları Azərbaycan hökumətinin nəzarətindən kənarda qalan "boz əraziyə" və beynəlxalq monitorinqdən azad bir əraziyə çevrilmişdir.

Özü-özünü elan etmiş və heç kim tərəfindən tanınmayan qondarma "Dağlıq Qarabağ Respublikası" bölgədə sülh və təhlükəsizlik üçün daimi təhlükə mənbəyidir.

Təcavüzkar Ermənistan və Dağlıq Qarabağ separatçıları xarici şirkətləri də qeyri-qanuni biznesə cəlb etməyə çalışaraq, işğal olunmuş Azərbaycan ərazilərində təbii sərvətləri də istismar edirlər. Mən üzv dövlətləri öz vətəndaşlarını və şirkətlərini beynəlxalq hüquq normalarına hörmət bəsləməyə məcbur etməyə və onların ölkəmizin ərazisində qeyri-qanuni fəaliyyət göstərməsinin qarşısını almağa çağırıram.

Öz növbəsində, Azərbaycan suveren dövlətimizə məxsus olan təbii sərvətlərin mənimsənilməsində iştirak etdiklərinə görə bu şirkətlərin məsuliyyət daşıması üçün bütün lazımi hüquqi və praktiki tədbirləri həyata keçirəcəkdir.

Bundan başqa, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin tarixini saxtalaşdırır, mədəni və arxitektura irsinə qeyri-qanuni şəkildə yiyələnir.

Dini və tarixi abidələrimiz, qədim əlyazmalarımız və digər mədəni sərvətlərimiz dağıdılmış, özününküləşdirilmiş və talanıb aparılmışdır.

Münaqişənin siyasi yolla həlli prosesi son 12 il ərzində ATƏT-in Minsk qrupu çərçivəsində həyata keçirilmiş, lakin bu günədək heç bir nəticə verməmişdir. Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi, vəziyyətin yerində qiymətləndirilməsi və Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət məsələlərinə ATƏT-in Minsk qrupu ciddi diqqət yetirməmişdir.

Aydın məsələdir ki, BMT Təhlükəsizlik Şurasının, ATƏT və onun Minsk qrupunun problemə hazırkı passiv və biganə yanaşması və beynəlxalq birlik tərəfindən ciddi təzyiqin göstərilmədiyi indiki şəraitdə Ermənistan özünün təcavüzkar və destruktiv mövqeyindən geri çəkilməyəcəkdir.

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qeyri-qanuni fəaliyyəti və onun danışıqlar prosesində tutduğu mövqe bir daha sübut edir ki, Ermənistan münaqişəni baş vermiş fakt əsasında zorla qəbul etdirməyə çalışaraq, nəinki problemin nizamlanması yollarını axtarmır, hətta danışıqların daha da uzadılması və təcavüzün nəticələrini möhkəmləndirmək məqsədi güdür.

Mən bu yüksək tribunadan vurğulamaq istəyirəm ki, münaqişə etnik təmizləmə və de-fakto suveren dövlətin ərazilərinin ilhaq olunması əsasında deyil, beynəlxalq hüquq və demokratiya normaları əsasında həll edilə bilər.

Azərbaycan torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç zaman barışmayacaqdır.

Cənab Sədr,

Azərbaycanın məcburi köçkün düşmüş vətəndaşlarının öz doğma yurdlarına qayıtması münaqişənin həlli prosesində bizim üçün ən əsas prioritetlərdən birini təşkil edir. Lakin öz yurdlarından qovulmuş, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş insanlarımız öz yurdlarına qayıdana qədər bütün müvafiq BMT təsisatlarının, donor ölkələrin və beynəlxalq humanitar təşkilatların ən çox zərər çəkmiş əhalinin iztirablarının aradan qaldırılması işinə daha fəal cəlb olunmasına təcili zərurət vardır.

Azərbaycan hökuməti bu işdə bütün vaxtını, səylərini və maliyyə imkanlarını əsirgəmir, lakin məcburi köçkünlərin sayı nəzərə alınarsa, bu, kifayət etmir. Bu işdə müvafiq beynəlxalq təşkilatların hökumətimizə yardımı vacib bir məsələdir.

Bu sahədə sırf maddi yardımdan başqa, problemə beynəlxalq diqqətin yenidən artırılmasına, həmçinin BMT və onun müvafiq təsisatları tərəfindən bütün beynəlxalq təşkilatların fəaliyyətini əlaqələndirmək üçün daha yaxşı şəraitin təmin edilməsinə ehtiyac duyulur. Biz Azərbaycandakı "unudulmuş humanitar böhran"la bağlı BMT-dən daha məsuliyyətli strategiya gözləyirik.

Cənab Sədr,

Azərbaycan yoxsulluğun aradan qaldırılması və yaxşı idarəçilik məqsədlərinə sadiqdir. Bu mövqeyə və həyata keçirilən tədbirlərə əsaslanaraq, biz Azərbaycanda iqtisadi fəaliyyətin və artımın genişlənməsini müşahidə edirik. Azərbaycan transregional əməkdaşlığın inkişafı işinə öz töhfəsini verir və TRASECA, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz boru xətləri kimi nəqliyyat və kommunikasiya şəbəkələrinin inkişafında böyük rol oynayır.

Bu layihələr açıq dənizə çıxışı olmayan ölkələrin ixrac üçün dünya bazarlarına və regional bazarlara sabit çıxışını təmin edəcəkdir. İştirakçı dövlətlərin ən kasıb təbəqələri bundan bəhrələnəcəkdir.

Cənab Sədr,

Bütün təhdidlərin öhdəsindən uğurla gəlmək üçün BMT özünü yeni şəraitə uyğunlaşdırmalıdır. BMT-də uzun müddət söhbəti gedən islahatlar məsələsi, nəhayət, öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının problemləri, xüsusilə də silahlı münaqişələrə aid olan problemləri həll etməyə qadir olmaması etiraf edilməlidir.

Təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ şəkildə cavab verməlidir.

Ümdə məsələ BMT Təhlükəsizlik Şurası qətnamələrinin həyata keçirilməsinin işlək mexanizminin yaradılmasından ibarətdir.

Cənab Sədr,

Hazırkı problemlərin həllinə səmərəli yanaşmanı kollektiv şəkildə tətbiq etmək hər birimizin borcudur. Belə ki, bu, millətlərin davamlı və demokratik inkişafı üçün sabit mühitin yaradılmasına xidmət edə bilər. Buna yalnız beynəlxalq hüququn normaları və prinsiplərinin həyata keçirilməsi, dövlətlər arasında dostluq münasibətləri və qarşılıqlı surətdə faydalı əməkdaşlıq vasitəsilə nail olmaq mümkündür.

Diqqətinizə görə çox sağ olun.

**«AZƏRTAC» 24.09.04**

# *BƏYANATLAR*

## Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatı

Azərbaycanın işğal olunmuş ərazilərində mövcud erməni separatçı rejiminin nümayəndələri bu il avqustun 8-də «yerli özünü idarəetmə orqanlarına» «seçkilər» keçirmək niyyətində olduqlarını bəyan etmişlər.

Bu cür «seçkilər» beynəlxalq hüquq normaları, həmçinin Azərbaycan Respublikasının milli qanunvericiliyinə qəti ziddiyyət təşkil etdiyindən, habelə təcavüzün, işğalın və Dağlıq Qarabağ əhalisinin üçdə bir hissəsini təşkil edən yerli azərbaycanlıların məcburi öz torpaqlarından qovulması şəraitinin davam etdiyi bir halda həyata keçirildiyindən heç bir vəchlə qanuni hesab edilə bilməz.

Birinci dəfə deyildir ki, Ermənistan tərəfi Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində müxtəlif qondarma «seçkilər» keçirir və bu cür qeyri-qanuni hərəkətlər həmişə beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən pislənmişdir. Demokratiya etnik təmizləmə və işğal üzərində qurula bilməz. Beləliklə, separatçıların beynəlxalq ictimaiyyətin aldadılmasına yönəldilmiş bütün cəhdləri iflasa məhkumdur.

Ermənistan tərəfinin bu cür hərəkətləri münaqişənin həlli istiqamətində aparılan mövcud prosesə mənfi təsir göstərəcəkdir. «Baş vermiş fakt» münaqişənin həllinin əsasını təşkil edə bilməz. Nə Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindəki hazırkı vəziyyət, nə də seçkilərin keçirilməsi daxil olmaqla oradakı mövcud vəziyyətin möhkəmləndirilməsinə yönəldilmiş hər hansı bir hərəkət heç bir halda qanuni hesab edilə bilməz.

Azərbaycan Respublikası yenidən təsdiqləyir ki, Azərbaycanın Dağlıq Qarabağ ərazisində hər hansı bir legitim hakimiyyətin formalaşdırılması yalnız Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının qətnamələri və ATƏT-in müvafiq qərarları əsasında ədalətli həllini tapandan sonra mümkündür.

**XİN, Mətbuat Mərkəzinin məlumatı, 24. 06. 04**

## Azərbaycan Respublikasının Xarici işlər Nazirliyinin bəyanatı

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində 2004-cü il sentyabr ayının 14 - 26-da Azərbaycanda keçirilməsi nəzərdə tutulan "Kooperativ Best Effort - 2004" təlimlərinin ləğv edilməsi barədə NATO-nun qərarı ilə bağlı dərin təəssüfünü bildirir. Azərbaycan Respublikası öz ərazisində bu təlimləri Avroatlantika

məkanına inteqrasiya yolunda əlamətdar və mühüm bir hadisə hesab edirdi və onların keçirilməsi üçün bütün lazımi şəraiti yaratmışdı.

Azərbaycan-NATO əməkdaşlıq münasibətləri son illərdə olduqca uğurlu inkişaf yolu keçmiş və nəticədə NATO-nun ən fəal tərəfdaşlarından biri olan Azərbaycan Respublikası bu ilin mayında təşkilatın rəhbərliyinə Fərdi Tərəfdaşıq üzrə Əməliyyat Planını da təqdim etmişdir.

Ermənistanın təlimlərin keçirilməsi nəzərdə tutulan ölkəyə - Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi hələ də işğal altındadır, bir milyondan çox Azərbaycanlı qaçqın və köçkündür. Aparılan sülh danışıqlarında isə bu ölkənin rəhbərliyi getdikcə daha kəskin və qeyri-konstruktiv mövqe tutur. Belə şəraitdə Azərbaycan üçün erməni hərbçilərinin ölkə ərazisində keçirilən hərbi təlimlərdə iştirakı qeyri-mümkün idi.

Azərbaycan tərəfi Avroatlantik dəyərlərə və prinsiplərə bağlılığını və Şimali Atlantika Alyansı ilə tərəfdaşlığını daha da dərinləşdirmək əzmini bir daha bildirir və ümid edir ki, NATO ilə Azərbaycan Respublikası arasında illərdən bəri uğurla həyata keçirilən səmərəli tərəfdaşlıq münasibətləri və əməkdaşlıq bundan sonra da dinamik surətdə inkişaf edəcəkdir.

**XİN, Mətbuat Mərkəzinin məlumatı, 14.09.04**

# *QANUNLAR*

**Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında Azərbaycan Respublikasının Qanunu**

**Maddə 1. Qanunun məqsədi**

1.1. Bu qanun Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində (bundan sonra - Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri) qulluq edən şəxslərin icbari sığortası qaydaları müəyyən edir.

1.2. Bu qanunun məqsədləri üçün Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslər dedikdə «Diplomatik xidmət haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq diplomatik xidmət orqanlarında diplomatik vəzifə tutan şəxslər (diplomatik xidmət əməkdaşları) və həmin orqanların inzibati-texniki xidmətini **həyata keçirən şəxslər nəzərdə tutulur.**

**Maddə 2. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında qanunvericilik**

Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası Azərbaycan Respublikasının Mülki Məcəlləsi, «Diplomatik xidmət haqqında», «Sığorta haqqında» Azərbaycan Respublikasının qanunları ilə, bu qanunla və digər normativ hüquqi aktlarla tənzimlənir.

**Maddə 3. Sığorta olunan**

«Diplomatik xidmət haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən Azərbaycan Respublikasının vətəndaşı olan şəxslər bu qanuna uyğun olaraq sığorta olunanlardır.

**Maddə 4. Sığorta etdirən**

Sığorta etdirən Azərbaycan Respublikasının xarici siyasətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanıdır.

**Maddə 5. Sığortaçı**

Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin sığortaçısı dövlət sığorta orqanıdır.

**Maddə 6. Sığorta hadisəsi**

6.1. Sığorta olunan fərdi qəza (bədbəxt hadisə) nəticəsində həlak olması (vəfat etməsi) və ya sağlamlığına zərər vurulması (əlillik və (və ya) xəsarət alması) sığorta hadisəsi hesab edilir.

6.2. Fərdi qəzanın (bədbəxt hadisənin) sığorta olunanın sərxoş halda olması, narkotik və toksiki maddələrdən istifadəsi, özünə qəsd etməsi nəticəsində baş verməsi sığorta hadisəsi sayılmır.
6.3. Sığorta hadisəsi baş verdikdə sığorta olunan və ya sığorta etdirən bu barədə sığortaçını xəbərdar etməlidir.

**Maddə 7. Sığorta məbləği və sığorta haqqı**

7.1. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinin başçısı şərti maliyyə vahidinin 10 (on) min misli, digər diplomatik vəzifə tutan şəxslər şərti maliyyə vahidinin 6 (altı) min misli, inzibati-texniki xidməti həyata keçirən şəxslər isə şərti maliyyə vahidinin 4 (dörd) min misli həcmində sığorta edilirlər.
7.2. Sığorta haqqı sığorta məbləğinin 0,3 faizi miqdarında müəyyən edilir.

**Maddə 8. Sığorta ödənişləri**

8.1. Sığorta olunan sığorta hadisəsi nəticəsində həlak olduqda (vəfat etdikdə) və ya sağlamlığına zərər vurulduqda, ona bu qanunun 7.1-ci maddəsində müəyyən edilmiş sığorta məbləğindən aşağıdakı miqdarda faizlə sığorta ödənişi verilir:
8.1.1. həlak olması (vəfat etməsi) - 100 faiz;
8.1.2. l qrup əlillik - 80 faiz;
8.1.3. II qrup əlillik - 60 faiz;
8.1.4. III qrup əlillik - 40 faiz;
8.1.5. əlillik qrupu təyin olunmadan ağır xəsarət alması - 20 faiz;
8.1.6. yüngül xəsarət alması -10 faiz.
8.2. Sığorta olunan sığorta hadisəsi nəticəsində sağlamlığına vurulmuş zərərdən bu hadisənin baş verdiyi gündən üç il müddətində vəfat edərsə və ya sağlamlığına zərər vurularsa, sığorta olunanın bu qanunun 8.1.2-8.1.6-cı maddələrinə uyğun olaraq aldığı müvafiq sığorta ödənişi ilə sığortanın tam məbləği arasındakı fərq onun varisinə və ya sığorta olunanın özünə bu qanunun 8. 1.2-8. 1.6-cı maddələrinə uyğun olaraq sığorta ödənişi ödənilir.

**Maddə 9. Sığortanın aparılması qaydaları**

9.1. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası sığorta etdirənlə sığortaçı arasında bağlanmış müqavilə əsasında aparılır.
9.2. Sığorta etdirən növbəti il üzrə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin siyahısını tərtib edir və cari ilin sonunadək sığortaçıya təqdim edir.
9.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində dövlət qulluğuna qəbul edilən şəxslər işə qəbul olunduqları tarixdən müvafiq qaydada sığorta olunmuş hesab edilirlər.
9.4. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası dövlət büdcəsinin vəsaiti hesabına aparılır.

9.5. Sığorta haqlarının məbləği hər ilin əvvəlində Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin sayına uyğun olaraq hesablanır.

9.6. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitdən tələb olunan sığorta haqlarının məbləği sığorta etdirən tərəfindən rübdə bir dəfə sığortaçının hesabına köçürülür.

**Maddə 10. Sığorta ödənişinin verilməsi müddəti**

10.1. Sığortaçı bu qanunla nəzərdə tutulmuş şərtlərlə və məbləğdə sığorta olunana və ya onun varisinə sığorta ödənişini bu qanunun 11-ci maddəsində göstərilmiş sənədləri aldığı gündən 7 (yeddi) təqvim günü ərzində ödəyir.

10.2. Sığorta olunan, yaxud onun varisi sığorta ödənişini bu qanunla müəyyən edilmiş hallarda və qaydada almadıqda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq olaraq sığorta hadisəsinin baş verdiyi gündən 3 (üç) il müddətində sığortaçıdan tələb etmək hüququna malikdir.

**Maddə 11. Sığorta ödənişinin alınması üçün tələb olunan sənədlər**

11.1. Sığorta ödənişinin alınması üçün sığorta olunan, yaxud onun varisi tərəfindən müəyyən olunmuş formada ərizə, şəxsiyyətini təsdiq edən sənəd və sığorta olunanın qulluq etdiyi Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində tutduğu vəzifə barədə arayışla birlikdə sığortaçıya aşağıdakı sənədlər təqdim edilir:

11.1.1. həlak olması (vəfat etməsi) halında:

11.1.1.1. sığorta olunanın ölümü haqqında şəhadətnamənin surəti;

11.1.1.2. vərəsəlik hüququ haqqında şəhadətnamənin notariat qaydasında təsdiq olunmuş surəti;

11.1.2. sığorta olunanın sağlamlığına zərər vurulduğu halda:

11.1.2.1. əlillik haqqında (əlilliyin qrupu, səbəbi və təyin edilməsi tarixi göstərilməklə) müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş arayışın notariat qaydasında təsdiq edilmiş surəti;

11.1.2.2. ağır və ya yüngül xəsarətin alınmasını təsdiq edən tibbi arayış.

11.2. Ağır və yüngül xəsarət növlərinin siyahısını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 12. Bu qanunun icrasına nəzarət və onun pozulmasına görə məsuliyyət**

12.1. Bu qanunun icrasına nəzarəti öz səlahiyyətləri daxilində sığorta etdirən və sığortaçı həyata keçirir.

12.2. Bu qanunun müddəalarının pozulmasına görə sığorta etdirənin və sığortaçının vəzifəli şəxsləri Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 13. Mübahisələrə baxılması qaydası**

Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası ilə bağlı mübahisələr məhkəmə qaydasında həll edilir.

İlham Əliyev,

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 may 2004-cü il**

**Azərbaycan qəzeti, 29.07.04**

# *AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ*

**Azərbaycan Prezidenti İlham Əliyevin Respublikamızın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin başçıları ilə görüşü**

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 27-də Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə görüşmüşdür.
Dövlətimizin başçısı İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin nazirliyin binasının foyesində hündür postament üzərində qoyulmuş mərmər büstünə tamaşa etdi.
Görüşü xarici işlər naziri Elmar Məmmədyarov açdı.

***Xarici İşlər Naziri Elmar Məmmədyarovun çıxışı***

- Hörmətli cənab Prezident!
Hörmətli görüş iştirakçıları!
Müstəqil Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri və prinsipləri ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən olunmuşdur. İndiki mərhələdə qarşımızda duran yeni vəzifələr bu prinsiplərin əsasında ardıcıl işin aparılmasını və konkret addımların atılmasını tələb edir.
Hələ keçən il Prezident Heydər Əliyevin iştirakı ilə belə görüşün keçirilməsi nəzərdə tutulmuşdu. Amma əfsuslar olsun ki, onun səhhəti buna imkan vermədi.
2001-ci il iyunun 8-də qəbul olunmuş "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu Xarici İşlər Nazirliyinin fəaliyyətinin tənzimlənməsinə və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilən xarici siyasətin həyata keçirilməsinə geniş imkanlar yaradır. Azərbaycanın diplomatik xidmətinin indiki vəziyyətini aşağıdakı rəqəmlərlə təsvir etmək olar.
Azərbaycan 156 ölkə ilə diplomatik əlaqələr qurmuşdur. Azərbaycanda 63 səfirlik akkreditə olunmuşdur. Bakıda iqamətgahı olan 26 səfirlik və 16 beynəlxalq təşkilatın nümayəndəliyi fəaliyyət göstərir. Azərbaycanın xaricdə 21 səfirliyi, 5 daimi nümayəndəliyi, iki baş konsulluğu və iki fəxri konsulluğu fəaliyyət göstərir. Yaxın zamanda Bolqarıstan, Belarus, İndoneziya, Küveyt, Kanada, Latviya, Hindistan, Macarıstan, Yaponiya və Yunanıstanda səfirliklərin açılması planlaşdırılır. Azərbaycan 44 beynəlxalq və regional təşkilatın üzvüdür. Bu təşkilatlarda 22 azərbaycanlı çalışır. Azərbaycan 250 çoxtərəfli beynəlxalq müqavilələrə qoşulmuşdur.

Azərbaycanın diplomatik nümayəndəlikləri ölkənin xarici siyasətini həyata keçirən qurumlardır və onların işində səmərəliliyin artırılması bu gün ən mühüm məsələlərdən biridir. Buna nail olmaq üçün onların işində təşəbbüskarlıq gücləndirilməli, fəallıq və məsuliyyət artırılmalıdır. Müasir dövrdə Azərbaycanın diplomatik xidmətinin əsas vəzifələri sırasında aşağıdakı məsələlər durur.

İlk növbədə, Ermənistanla Azərbaycan arasındakı münaqişənin ədalətli həll olunması istiqamətində diplomatik nümayəndəliklərin müvafiq işi gücləndirilməlidir. Ermənistanın Azərbaycan xalqı haqqında mənfi təəssürat yaratmaq istiqamətində apardığı təbliğatla davamlı mübarizə diplomatik nümayəndəliklərimizin əsas vəzifələrindən biri olmalıdır. Müasir informasiya texnologiyasından istifadə edərək, Azərbaycanda və xaricdə informasiya və təbliğat işi gücləndirilməlidir. Qaçqın və məcburi köçkünlərimizə humanitar yardımların davam etdirilməsi istiqamətində fəaliyyət göstərilməlidir. Xaricdəki nümayəndəliklərimiz yerləşdikləri ölkələrin kütləvi informasiya vasitələrində Azərbaycan haqqında yayılan məlumatları diqqətlə izləyib təhlil etməli və Xarici İşlər Nazirliyinə vaxtında məlumat verməli, eyni zamanda, o məlumatlara yerlərdə rəy bildirməlidirlər.

Diplomatik nümayəndəliklərin işində iqtisadi məsələlər də mühüm yer tutmalıdır. Azərbaycanın iqtisadi inkişafı, sərmayə qoyuluşu haqqında məlumat hazırlanmalı və müvafiq təşkilati işlər aparılmalıdır. Xaricdə yaşayan Azərbaycan diasporu ilə iş gücləndirilməlidir. Onlarla əlaqələrin genişlənməsi sahəsində iş davam etdirilməlidir. Azərbaycanın xaricdəki hüquqi və fiziki şəxslərinin hüquqları və maraqlarının qorunması vacib məsələdir. Bununla bağlı xaricdə yaşayan Azərbaycan vətəndaşlarının pasport, viza və digər konsul məsələlərinə daim diqqət göstərilməlidir. Azərbaycanın digər dövlət qurumları ilə, eləcə də müstəqil tədqiqat təşkilatları ilə əməkdaşlıqda Xarici İşlər Nazirliyində analitik işin gücləndirilməsi təmin edilməlidir.

Xarici İşlər Nazirliyi ölkəmizin xarici siyasətinə birbaşa təsir edən xarici siyasət, milli təhlükəsizlik və hərbi konsepsiyalar kimi mühüm konseptual sənədlərin işlənib hazırlanmasında aparıcı rol oynamağa hazırdır. Xarici İşlər Nazirliyi Milli Məclislə gündəlik əməkdaşlığın, eləcə də beynəlxalq parlamentlərarası əməkdaşlığın inkişafında iştirak etməlidir. Qloballaşma şəraitində xaricdə Azərbaycanın maraqlarını təmin etmək üçün Xarici İşlər Nazirliyinin əlaqələndirici rolu faktiki işlə təmin olunmalıdır.

Bir sıra məsələlərlə yanaşı, bu məqsədlə Xarici İşlər Nazirliyi ölkəmizin xarici siyasətinin prioritet məsələlərinə dair rəsmi mövqeləri əks etdirən sənədləri hazırlayıb Azərbaycanın digər dövlət qurumlarına təhvil verir.

Nazirliyin daxili strukturu təkmilləşdirilməli və ölkəmizin xarici siyasət prioritetlərinə uyğunlaşdırılmalıdır. Bununla bağlı nazirliyin bəzi idarələri və şöbələri ləğv olunacaq, bəziləri isə yenidən qurulacaqdır. Avropa qurumlarına inteqrasiya məsələləri, arxiv məsələləri üzrə

bölmələr, təlim mərkəzi və digər struktur bölmələri təsis olunacaqdır. Nazirliyin kollegiyası yaradılmalıdır. Bununla bağlı təkliflər artıq Nazirlər Kabinetinə göndərilmişdir.

Yerli və xarici kütləvi informasiya vasitələri ilə iş gücləndirilməlidir. Keçirilmiş tədbirlər, baş vermiş hadisələr və xarici siyasətin ayrı-ayrı məsələlərinə dair dövlətimizin mövqeyi haqqında müəyyən olunmuş qaydada mətbuat nümayəndələri üçün brifinq keçirilməlidir. İnternet vasitəsilə təbliğat və məlumat işi genişləndirilməlidir.

Diplomatik xidmət ən layiqli və müasir tələblərə cavab verən kadrlarla təmin olunmalıdır. Xarici İşlər Nazirliyi bu istiqamətdə müəyyən iş aparır. Kadr siyasətində şəffaflıq, aşkarlıq, obyektivlik, peşəkarlıq, operativlik, kadrların seçilməsində aydın prinsiplərin müəyyən olunması, Xarici İşlər Nazirliyinə işə qəbul edilmədə və diplomatik nümayəndəliklərə ezam olunmada test sistemlərinin işlənib hazırlanması və tətbiqi, rotasiya prinsipi və sair təmin edilməlidir.

Çıxışıma yekun vuraraq demək istəyirəm ki, Azərbaycanın diplomatik xidməti müstəqilliyimizin bərpasından sonrakı dövrdə yeni şəraitdə formalaşmışdır. Diplomatik xidmət orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsi sahəsində hələ çox iş görülməlidir. Yuxarıda göstərdiyim məsələlər onların yalnız bir hissəsini təşkil edir.

Cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, Azərbaycanın diplomatik xidmət orqanlarının bütün əməkdaşları Sizin tərəfinizdən onlara tapşırılan məsələlərin yerinə yetirilməsində öz səylərini əsirgəməyəcəklər.

### *Azərbaycan Prezidenti İlham Əliyevin nitqi*

- Hörmətli xanımlar və cənablar!

Hörmətli diplomatlar, Xarici İşlər Nazirliyinin əməkdaşları!

Mən bu gün Xarici İşlər Nazirliyinə sizinlə görüşə gəlmişəm. Bilirsiniz ki, belə müşavirənin çağırılmasının təşkili xalqımızın ümummilli lideri Heydər Əliyevin gündəliyində duran məsələ idi. Amma nazirin qeyd etdiyi kimi, onun səhhəti bu müşavirənin keçirilməsinə imkan yaratmadı.

Azərbaycan öz xarici siyasətini çox uğurla həyata keçirir. Əlbəttə, bu gün Azərbaycan diplomatiyası yeni bir mərhələdədir. Azərbaycanın Xarici İşlər Nazirliyində dəyişikliklər baş vermişdir, yeni nazir təyin edilmişdir. Güman edirəm ki, bundan sonra Xarici İşlər Nazirliyi, bütün səfirliklər daha da fəal işləyəcək, müasir zəmanənin tələblərinə uyğun şəkildə çalışacaqlar. Azərbaycanın milli maraqlarını beynəlxalq aləmdə daha da yüksək səviyyədə qoruyacaqlar.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra ölkəmiz çox çətin vəziyyətdə fəaliyyət göstərirdi. Ölkə daxilində gedən proseslər, Azərbaycanın rəhbərliyində təmsil olunan insanların təcrübəsinin azlığı, səriştəsizliyi bir çox hallarda Azərbaycanı çox çətin vəziyyətə salmışdı.

Ölkədə böhran yaşanırdı, iqtisadiyyat demək olar ki, dağılırdı. Azərbaycan ümumiyyətlə, parçalanma ərəfəsində idi.

Bildiyiniz kimi, xalqın tələbi ilə 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana hakimiyyətə qayıdandan sonra ölkədə vəziyyət dəyişdi. Ölkəmiz inkişaf etməyə başladı və son on ilin ərzində Azərbaycan bütün sahələrdə böyük uğurlar əldə edibdir.

Amma müstəqilliyimizin ilk illərində Azərbaycan xarici siyasət istiqamətində də böyük çətinliklərlə üzləşmişdi. Ölkə demək olar ki, təcrid edilmiş vəziyyətə salınmışdı. Azərbaycanın əleyhinə erməni təbliğatının aparılması Azərbaycan tərəfindən adekvat addımlarla müşayiət olunmurdu. Azərbaycan bu təbliğatın qarşısında çox aciz siyasət aparırdı. Ölkəmizdə, ümumiyyətlə, xarici siyasətlə məşğul olanların sayı çox az idi və əsas vəzifələrə təcrübəsi o qədər də böyük olmayan insanlar gətirilirdi.

Əlbəttə, təsadüfi deyil ki, məhz o illərdə Azərbaycan beynəlxalq aləmdə öz sözünü deyə bilmirdi, müxtəlif ölkələrdə Azərbaycana qarşı ədalətsiz, Azərbaycanın əleyhinə qərarlar qəbul olunurdu. Siz bunların hamısını yaxşı bilirsiniz. Beləliklə, ölkə xaricdə, beynəlxalq müstəvidə mənfi imicə malik idi. Bu vəziyyət 1993-cü ildən sonra dəyişməyə başladı. Heydər Əliyev diplomatiyası, onun siyasəti Azərbaycanı bu beynəlxalq təcriddən xilas etdi. Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini möhkəmlətməyə başladı. Ölkəmiz ikitərəfli və çoxtərəfli formatlarda çox uğurlu xarici siyasət aparmağa başladı. Bu siyasətin nəticəsində bu gün Azərbaycan beynəlxalq aləmin çox dəyərli üzvünə çevrilibdir.

İkitərəfli münasibətlərimizdə mən heç bir problem görmürəm. Qonşu dövlətlərlə münasibətlərimiz inkişaf edir. Bu münasibətlər çox işgüzar zəmində, qarşılıqlı hörmət zəminində qurulubdur. Bilirsiniz ki, prezident seçkilərindən sonra mən müxtəlif ölkələrə rəsmi səfərlər etmişəm. Bu səfərlər bir daha onu göstərir ki, beynəlxalq strukturlarda, beynəlxalq aləmdə Azərbaycana olan münasibət çox müsbətdir. Azərbaycana hörmət edirlər, Azərbaycanla hesablaşırlar. Azərbaycan regional məsələlərdə lider dövlətə çevrilir. Təkcə qonşu dövlətlərlə deyil, digər dövlətlərlə də ikitərəfli münasibətlərimiz çox uğurludur və Azərbaycanın milli maraqlarına cavab verir. Əlbəttə, biz bundan sonra da çalışacağıq ki, bütün ölkələrlə ikitərəfli münasibətlərimizi daha da gücləndirək.

Bilirsiniz ki, bu yaxınlarda yeni səfirliklərin açılması haqqında qərar qəbul edilmişdir. Bu, bizə imkan verəcək ki, öz siyasətimizi, öz sözümüzü daha geniş ictimaiyyətə çatdıra bilək. Bildiyiniz kimi, Azərbaycan beynəlxalq təşkilatlarda çox uğurla fəaliyyət göstərir. Birləşmiş Millətlər Təşkilatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dörd qətnamə qəbul etmişdir. Azərbaycan Avropa Birliyi ilə çox səmərəli əməkdaşlıq edir. Bu yaxınlarda Avropa Birliyi Azərbaycanı yeni qonşuluq proqramına daxil edibdir və bu əməkdaşlıq bütün istiqamətlərdə - həm siyasi istiqamətdə, həm də enerji sahəsində aparılır. Mənim bu yaxınlarda

Avropa Birliyinə etdiyim səfər bir də onu göstərir ki, bizim aramızda çox gözəl münasibətlər mövcuddur.
Avropa Şurası ilə Azərbaycanın əlaqələri güclənir. Bu təşkilat Azərbaycana böyük diqqətlə yanaşır. Azərbaycan da üç ildən artıqdır ki, bu təşkilatın üzvüdür və çox fəal üzvüdür. Avropa Şurasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul edilmiş sənədlər həqiqəti əks etdirir. Bu sənədlər beynəlxalq hüquq normaları əsasında qəbul edilmişdir və təbii ki, Azərbaycanın milli maraqlarına cavab verir.
Mən bu yaxınlarda Avropa Şurasına da səfər etmişdim və bu səfər çox uğurlu keçmişdir. Avropa Şurasının Azərbaycana münasibəti çox müsbətdir və təbii ki, əgər belə olmasaydı, Azərbaycan Prezidentinə Avropa Şurasında yüksək mükafatlar verilməzdi. Mən ümid edirəm ki, Azərbaycan nümayəndə heyətinin fəaliyyəti nəticəsində Avropa Şurasında müzakirəyə çıxarılacaq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair məruzə ədalətli məruzə olacaq, beynəlxalq hüquq normalarına əsaslanacaq və beləliklə, geniş Avropa auditoriyasına Ermənistan-Azərbaycan münaqişəsi haqqında bir daha doğru məlumat çatdıracaqdır. Ümid edirəm ki, Avropa Şurası bu məsələ ilə əlaqədar siyasi qərar verəcəkdir.
Bizim digər beynəlxalq təşkilatlarla əlaqələrimiz də inkişafdadır. Azərbaycan NATO ilə uğurlu əməkdaşlıq edir və biz artıq "Sülh naminə tərəfdaşlıq" proqramından hərbi əməkdaşlıq proqramına keçmişik. Bu yaxınlarda NATO-ya etdiyim səfər onu bir daha göstərir ki, bizim aramızda çox gözəl münasibətlər var.
Azərbaycan MDB çərçivəsində də uğurla fəaliyyət göstərir. İslam Konfransı Təşkilatında, GUÖAM təşkilatında və digər beynəlxalq təşkilatlarda bizim mövqelərimiz güclənir. Biz öz gələcək siyasətimizi bundan sonra da beynəlxalq strukturlara inteqrasiyada görürük. Bu siyasətin əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun təməli 1993-cü ildə qoyulmuşdur və bu günə qədər Azərbaycana böyük uğurlar gətirir.
Bu gün Azərbaycan haqqında dünyada kifayət qədər ədalətli məlumatlar var. Biz hamımız çalışmalıyıq, əlbəttə, ilk növbədə, Azərbaycanı xaricdə təmsil edən səfirlər, səfirliklərin digər işçiləri çalışmalıdırlar ki, Azərbaycan haqqında reallıqlar o ölkələrdə yaşayan ictimaiyyətə çatdırılsın.
Bir sözlə, Azərbaycanın bütün istiqamətlərdə, qeyd etdiyim kimi, ikitərəfli müstəvidə və beynəlxalq təşkilatlarla əməkdaşlığımızda apardığı xarici siyasət uğurludur. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik. Mən əminəm ki, Azərbaycan regionda öz mövqelərini gələcəkdə daha da gücləndirəcəkdir. Artıq hamı bilir ki, regionda Azərbaycanın iştirakı olmadan nə siyasi, nə də iqtisadi sahələrdə əməkdaşlıq mümkün deyildir. Azərbaycan bölgənin çox vacib ölkəsinə çevrilibdir. Burada təkcə bizim coğrafi-siyasi vəziyyətimiz, yaxud enerji resurslarımız rol oynamır. Halbuki, bu amillər də çox vacibdir. Azərbaycanın siyasəti, beynəlxalq aləmə

inteqrasiyası, beynəlxalq aləm üçün çox vacib ölkəyə çevrilməsi, Azərbaycanın daxilində gedən proseslər, ictimai-siyasi sabitlik, sabit inkişaf və digər amillər burada böyük rol oynayır.

Biz çalışmalıyıq ki, bundan sonra da həm Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdıraq, eyni zamanda, apardığımız xarici siyasət vasitəsilə Azərbaycanın dünyadakı mövqelərini möhkəmləndirək və milli maraqlarımızın daha yüksək səviyyədə qorunmasına nail olaq. Əlbəttə, səfirlərin və səfirliklərin bu istiqamətdə rolu çox mühümdür. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında xaricdə fəaliyyət göstərən diplomatlar daha da fəal olmalıdırlar.

Bilirsiniz ki, Azərbaycan bu məsələnin həllində sülh yolunun tərəfdarıdır. Biz bu məsələni danışıqlar yolu ilə həll etmək istəyirik. Ümid edirəm ki, bu danışıqlar yolu bizə uğur gətirəcəkdir. Amma eyni zamanda, mən dəfələrlə bildirmişəm ki, Azərbaycan heç vaxt öz torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Əgər danışıqlar yolu bir səmərə verməsə, Azərbaycan bütün başqa, o cümlədən hərbi yoldan istifadə edib öz torpaqlarını azad edəcəkdir.

Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bizim torpaqlarımız işğal olunubdur. Haqq-ədalət bizim tərəfimizdədir. İqtisadi potensial və digər məsələlər də Azərbaycanın xeyrinədir. Mən şübhə etmirəm ki, bu məsələ öz ədalətli həllini tapacaqdır. Bəzən güzəştlər haqqında təkliflər səslənir. Amma mən artıq bunu bir neçə dəfə demişəm ki, ərazi bütövlüyü məsələlərində güzəştdən söhbət gedə bilməz. Bu, o vaxt olur ki, hər bir tərəf nəyisə, hansısa məsələdəsə güzəştə gedir. Azərbaycanın əlində bir şey yoxdur ki, güzəştə getsin. Azərbaycanın torpaqları işğal altındadır. Bu işğaldan bir milyon adam əziyyət çəkir. Ona görə bu məsələdə bizim qətiyyətli mövqeyimiz dəyişməz olaraq qalacaqdır.

Sizin də vəzifəniz ondan ibarətdir ki, bu məsələnin mahiyyətini çalışdığınız ölkələrin rəsmi dairələrinə, ictimaiyyətinə daha dolğun şəkildə çatdırasınız. Təəssüflər olsun ki, bəzi hallarda bu məsələ ilə əlaqədar beynəlxalq aləmdə dəqiq təsəvvür yoxdur. Bunun müəyyən səbəbləri var. Əlbəttə, erməni təbliğatı burada böyük rol oynayır. Amma onu da etiraf etməliyik ki, biz də bəzi hallarda bu məsələni, onun mahiyyətini beynəlxalq aləmə lazımi səviyyədə çatdırmırıq. Burada ilk növbədə, səfirlər və səfirliklərin işçiləri daha fəal olmalıdırlar. Bu məsələni daim gündəliyə salmalıdırlar.

Mən bilirəm ki, diplomatiyada təkrara o qədər də çox yol verilmir. Ümumiyyətlə, mən də bir şeyin təkrar olunmasına o qədər də meylli deyiləm. Amma bu məsələ istisna təşkil edir. Bu məsələ daim təkrar olunmalıdır. Bütün tədbirlərdə yeri gəldi, gəlmədi, bu məsələ daim diqqət mərkəzində olmalıdır və rəsmi dairələrə, müxtəlif ölkələrin parlamentlərinə, ictimaiyyətə çatdırılmalıdır. Mən bununla əlaqədar ümid edirəm ki, Prezident Aparatı ilə birlikdə Xarici İşlər Nazirliyi tərəfindən xüsusi bir plan, proqramlar hazırlanmalı, tövsiyələr verilməlidir. Bu proqram çərçivəsində səfirlər öz fəaliyyətini qurmalıdır. Bütün beynəlxalq tədbirlərdə, konfranslarda,

ictimai tədbirlərdə bu məsələ ilk növbədə yada salınmalıdır. Beləliklə, ümid edirəm, biz informasiya sahəsində daha böyük uğurlar əldə edəcəyik.
Biz informasiya hücumuna keçməliyik. Bəzən bizi günahlandırırlar ki, Azərbaycan bu baxımdan özünü çox davakar aparır. Ola bilər, amma bizim davakarlığımız hələ ki, yalnız informasiya sahəsində özünü büruzə verir. Bizim başqa yolumuz yoxdur. Əlbəttə, Ermənistan maraqlıdır ki, bu məsələyə ümumiyyətlə toxunulmasın. Ona görə mən xatırlayıram, Avropa Şurasında biz məsələ qaldıranda ki, bu barədə məruzə dinlənilsin, Ermənistan tərəfi bunun əleyhinə çıxırdı. Nə üçün? Bu məsələnin müzakirə olunmasını istəmirdi. Çünki bilirlər ki, əgər müzakirəyə çıxarılarsa, onda hər şey açıq-aydın görünəcəkdir. Hamı da görəcəkdir ki, işğalçı kimdir, işğalın qurbanı kimdir. Ona görə bütün tədbirlərdə, bütün sahələrdə bu məsələnin mahiyyəti açıqlanmalıdır və informasiya sahəsində də güclü olmalıyıq. Bütün imkanlardan istifadə etməliyik ki, Ermənistanın işğalçı siyasətini ifşa edək, onların bu təcavüzü haqqında bütün dairələrə məlumatı çatdıraq.
Əlbəttə, Azərbaycan üçün ən ağrılı problemlərdən olan qaçqınların və məcburi köçkünlərin vəziyyəti haqqında məlumatlar daha dolğun şəkildə yayılmalıdır. Məsəl üçün, mən fikir verirəm, xaricdən gələn bəzi rəsmi qonaqlar qaçqınlarla görüşəndə dəhşətə gəlirlər. Deyirlər, biz bilmirdik ki, Azərbaycanda bu qədər qaçqın var və onlar belə ağır vəziyyətdə yaşayırlar. Təbii ki, xaricdə bu məsələ ilə əlaqədar kifayət qədər informasiya yoxdur, məlumat yoxdur. Bunu biz bilirik və bizimlə sıx əlaqədə olan dairələr, qurumlar bilir. Amma geniş beynəlxalq ictimaiyyət bu haqda bilmir. Bu, bizim səhvimiz, nöqsanımızdır.
Mən bilirəm ki, bu haqda Dövlətqaçqınkomun sədri çıxış edəcək, məlumat verəcəkdir. Siz də bunu bilməlisiniz. Nəinki bilməlisiniz, çalışdığınız ölkələrdə gərək bu məsələni gündəlik fəaliyyətinizdə diqqət mərkəzinə çevirəsiniz. Orada fotosərgilər təşkil oluna bilər, seminarlar, müxtəlif konfranslar təşkil oluna bilər. Bu, humanitar fəlakətdir və bilirsiniz ki, dünyada qaçqınların probleminə çox böyük diqqət göstərilir. Müxtəlif xeyriyyə fondları mövcuddur. Onu da deməliyəm ki, əfsuslar olsun, beynəlxalq humanitar təşkilatlar Azərbaycana ayrılan vəsaitin həcmini azaldırlar. Mən bu məsələ ilə bağlı dəfələrlə görüşlər keçirmişəm. Bakıda keçirilmiş konfransda iştirak edib öz sözümü demişəm və onları da çağırmışam ki, bu yardımların həcmini azaltmayın. Belə olan halda, yeni mənbələr axtarılmalıdır. Xüsusilə, inkişaf etmiş ölkələrdə xeyriyyə fondları var. Amma bu fondların bəziləri, bəlkə də, böyük əksəriyyəti Azərbaycandakı problemin mövcudluğundan xəbərsizdir. Nə üçün?! Çünki onlara məlumat verilmir. Əgər onlara məlumat verilərsə, əlbəttə, onlar bu məsələni nəzərə alarlar. Yəni səfirliklər bu məsələyə çox böyük diqqət göstərməlidirlər. Xeyriyyə fondları ilə, digər humanitar təşkilatlarla işlər daha fəal şəkildə qurulmalıdır. Mən demək istəmirəm ki, bu işlər aparılmır. Amma lazımi səviyyədə deyil

və bütün ölkələrdə bu işlər lazımi səviyyədə aparılmır. Siz gərək bu məsələyə daha da böyük diqqət yetirəsiniz.
Xaricdə yaşayan azərbaycanlılar bu və digər məsələlərdə səfirliklərə öz köməyini göstərə bilərlər. Bilirsiniz ki, Heydər Əliyev tərəfindən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıbdır. 2001-ci ildə Bakıda dünya azərbaycanlılarının birinci qurultayı keçirilibdir. Bu gün bizim müxtəlif diasporlarımız güclənir, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında daha fəal rol oynayır. Biz də bunu dəstəkləyirik. Mən, demək olar, səfər etdiyim əksər ölkələrdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmişəm. Biz, bir tərəfdən, onları qorumalıyıq, müdafiə etməliyik. Çalışmalıyıq ki, onlar yaşadıqları ölkələrin bütün təbəqələrində təmsil olunsunlar. Həm icra orqanlarında, həm qanunvericilik orqanlarında, həm də biznes sahəsində onların mövqeləri daha da güclənsin. Yəni bu, bizim vəzifəmizdir. Eyni zamanda, onlar da öz doğma vətənlərinə xidmət etməli, kömək göstərməlidirlər.
Ona görə də səfirliklər Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi ilə sıx əlaqədə olmalıdırlar və xaricdə yaşayan soydaşlarımızla işlər daha yüksək səviyyədə qurulmalıdır. Mən bilirəm ki, bu iş bir çox ölkədə gedir. Səfirliklər bu baxımdan işləyirlər. Mən bunu bilirəm. Amma əlbəttə, istərdik ki, bunun böyük nəticəsi, səmərəsi olsun.
Azərbaycan haqqında reallıqlar, həqiqətlər dünya ictimaiyyətinə çatdırılmalıdır. Ümumiyyətlə, mən xarici mətbuatı mütəmadi qaydada izləyirəm. Görürəm ki, Azərbaycan haqqında məlumatlar çox birtərəflidir. Azərbaycan yalnız neft ölkəsi kimi təqdim edilir, yaxud da ölkəmiz haqqında Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar məlumatlar verilir. Amma Azərbaycanın qədim tarixi var, Azərbaycanın çox zəngin mədəniyyəti, mədəni irsi var. Bu haqda dünyada mövcud olan məlumatlar, informasiyalar çox azdır, çox aşağı səviyyədədir. Bu sahədə də böyük işlər görmək lazımdır. Müxtəlif ictimai-siyasi tədbirlər keçirilməlidir, Azərbaycandan nümayəndə heyətlərinin səfərləri təşkil olunmalıdır. Mədəniyyət xadimlərimizin səfərləri təşkil olunmalı, sərgilər keçirilməlidir. Mən demək istəmirəm ki, bu, yoxdur. Var, amma lazımi səviyyədə deyildir. Əgər bu tədbirlər varsa, yalnız hansısa bir məhdud çərçivə bundan xəbər tutur. Yəni bu məsələlər müxtəlif ölkələrin mətbuatında öz əksini tapmır. Amma siz bilirsiniz ki, bu gün mətbuat dünyada çox böyük rol oynayır. Əlbəttə, biz istərdik ki, Azərbaycan haqqında gedən məlumatlar reallığa əsaslansın.
Azərbaycan çox sürətlə inkişaf edən ölkədir. Azərbaycan beynəlxalq aləmdə çox güclü mövqelərə malik olan ölkədir. Azərbaycanda böyük, dünya əhəmiyyətli layihələr həyata keçirilir. Azərbaycanda sosial məsələlər öz həllini tapır. Əlbəttə, yaxşı olardı ki, bütün bu reallıqlar haqqında xarici mətbuata daha böyük həcmdə məlumatlar çatdırılsın.
Ümumiyyətlə, çalışdığınız ölkələrdə mətbuatla işlər çox güclü qurulmalıdır. Bu sahəyə çox böyük diqqət göstərilməlidir. Baxın, bəlkə, hansısa xüsusi bir diplomat yalnız bu məsələlərlə

məşğul olmalıdır. Yaxud əgər buna imkan yoxdursa, biz baxaq, bəlkə, əlavə bir ştat açmaq haqqında fikirləşək. Mütləq sırf mətbuatla əlaqə saxlayan bir nəfər olmalıdır ki, bu məsələ ilə mütəmadi qaydada məşğul olsun. Əksər hallarda əgər Azərbaycan haqqında hansısa yalan, yaxud da həqiqəti əks etdirməyən məqalə çıxırsa, bundan sonra bizim səfirliklər buna reaksiya verirlər. Bəzi hallarda isə heç reaksiya da vermirlər. Mən bu yaxınlarda nazirə dedim ki, belə hallar olanda səfirliklər mütləq öz sözünü deməlidir. Ən yaxşı halda, buna reaksiya verilir, təkzib ötürülür.

Amma bilirsiniz ki, bir var məlumat getsin, bir də var təkzib getsin. Təkziblər də bəzi hallarda dərc olunmur. Dərc olunanda da, təkziblərə bir şərh də əlavə olunur və demək olar ki, o, təkzibin əhəmiyyətini tamamilə sıfıra endirir. Yəni biz fəal olmalıyıq. Məlumatı biz verməliyik. Həm ölkəmiz haqqında, həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında, həm də digər məsələlər haqqında, Azərbaycanın gələcəyi, potensialı haqqında, dünyada, bölgədə rolu haqqında həqiqi məlumatı biz verməliyik, bunu biz etməliyik. Əlbəttə, səfirliklər bu məsələ ilə əlaqədar daha fəal olmalıdırlar.

Bildiyiniz kimi, Azərbaycan iqtisadi cəhətdən inkişaf edir. Bizim bütün iqtisadi göstəricilərimiz yüksəkdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən Azərbaycanda 1993-cü ildən 2003-cü ilə qədər aparılmış iqtisadi islahatlar siyasəti gözəl nəticələr vermişdir. Son 7 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 90 faiz artmışdır. Azərbaycana böyük həcmdə xarici sərmayə qoyulur. Adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə birinci yerdədir. Bilirsiniz ki, Azərbaycanda çox gözəl sərmayə mühiti var və bu bizə imkan verir ki, xarici sərmayəçilər qorxmadan, çəkinmədən Azərbaycana vəsait qoysunlar.

Ölkə iqtisadiyyatı inkişafdadır. 2004-cü ilin birinci yarısında iqtisadiyyatımız 10 faiz artıbdır. Bilirsiniz ki, qəbul edilmiş sosial-iqtisadi və regional inkişaf proqramları uğurla icra olunur. Seçkilərdən keçən dövr ərzində Azərbaycanda 40 minə qədər yeni iş yerləri açılıbdır. Bilirsiniz ki, bu, bizim iqtisadi siyasətimizin əsas məsələlərindən biridir. Mən çox şadam ki, nəzərdə tutduğumuz bütün planlar yerinə yetirilir.

Mən şübhə etmirəm ki, Azərbaycan beş ildən sonra iqtisadi cəhətdən daha da güclü, qüdrətli dövlətə çevriləcəkdir. Həm neft sənayesi istiqamətində Heydər Əliyevin neft strategiyasının uğurlu icrası, həm də qeyri-neft sektorunun inkişafı bizə yeni imkanlar yaradacaqdır. Qeyri-neft sektorunun inkişafı bizim üçün, yəni hökumət üçün daha da önəmli olmalıdır.

Bizim neft sektorunda bütün işlər vaxtlı-vaxtında görülübdür. Bilirsiniz ki, bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla inşa edilir. Azərbaycanın qaz yataqları istismar olunur və bu yaxınlarda qaz kəmərinin tikintisinə başlayacağıq. Ümumiyyətlə, Azərbaycan Avropanın qaz istehlakçıları üçün çox önəmli ölkəyə çevriləcəkdir. Bütün bunların təməli xalqımızın ümummilli

lideri Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuşdur və uğurla icra edilir, qarşımızda heç bir problem yoxdur.

Qeyri-neft sektorunun inkişafına daha böyük diqqət göstərilməlidir. Çünki Azərbaycanın hərtərəfli inkişafı bu amildən asılıdır. Heç kəs üçün sirr deyil ki, hələ uzun illər Azərbaycanın iqtisadiyyatı neft amilinə söykənəcəkdir. Amma bu o demək deyil ki, buna arxayın olaq və gözləyək ki, nə qədər neft çıxarılacaq, nə qədər neft satılacaqdır. Qeyri-neft sektorunun inkişafı, bölgələrin inkişafı, ümumiyyətlə, Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi bizim prioritet məsələmizdir.

Yəqin ki, siz bunları bilirsiniz. Mən bunları nə üçün deyirəm. Yəni bizim xaricdəki nümayəndəliklər bu istiqamətdə də fəaliyyət göstərməlidirlər. Azərbaycanın iqtisadi maraqları həm ölkə daxilində, həm də ölkənin xaricində qorunmalıdır.

Bilirsiniz ki, Azərbaycana müxtəlif işgüzar dairələrdə böyük maraq var. Azərbaycanda bir çox sahələrdə iş görmək, sərmayə qoymaq istəyən çoxlu şirkətlər var. Onlar Azərbaycana gəlirlər, işləyirlər. Yaxşı olardı ki, bizim səfirlərimiz bu məsələ ilə əlaqədar daha da fəal olsunlar. Azərbaycanın iqtisadi maraqlarına uyğun şəkildə fəaliyyət göstərsinlər. Bu məsələ ilə əlaqədar müşavirədə söhbət aparılacaqdır. İqtisadi inkişaf naziri burada çıxış edəcək, öz tövsiyələrini əməli şəkildə verəcəkdir.

Mən sizə demək istəyirəm ki, ümumiyyətlə, bu məsələyə böyük diqqət göstərilməlidir. Azərbaycan iqtisadi potensialını gücləndirir. Əlbəttə, daxildə imkanlar bizə kifayətdir ki, ölkəmizi sürətlə inkişaf etdirək. Amma bu o demək deyil ki, biz bununla kifayətlənək və xaricdə olan imkanlardan istifadə etməyək. Böyük şirkətlərin Azərbaycana gəlməsi bizim üçün lazımdır və zəruridir. İri sərmayəçilərin, firmaların Azərbaycanda fəaliyyət göstərməsi ölkəmiz üçün çox vacibdir. Baxın, neft sektorunda dünyada elə bir tanınmış şirkət yoxdur ki, Azərbaycanda sərmayə qoymasın. Bu, ölkəmiz üçün çox faydalıdır. Çünki bu, etibarlı tərəfdaşlıqdır. Bu, bir gündə yaranmış firma deyil, böyük iqtisadi potensiala malik olan şirkətlər Azərbaycanın neft sənayesində işləyir. Yaxşı olardı ki, digər sahələrdə də dünyanın bir nömrəli şirkətləri, tanınmış, etibarlı firmalar Azərbaycanın qeyri-neft sektorunda da fəaliyyət göstərsinlər. Bunu etmək üçün, əlbəttə, onları cəlb etmək lazımdır.

1994-cü ildə buraya xarici şirkətləri cəlb etmək üçün nə qədər səylər göstərildi. Azərbaycan çox riskli bir zona idi, müharibə gedirdi, daxildə xoşagəlməz proseslər hələ mövcud idi. Sabitlik tam bərqərar olmamışdı. Ona görə xarici sərmayəçiləri cəlb etmək asan məsələ deyildi. Sonrakı dövrlərdə bu məsələ artıq başqa istiqamətdə inkişaf etdi. Əksinə, daha çox tələbat var idi, nəinki imkan. Amma ilk illərdə xarici sərmayəçiləri Azərbaycanın neft sektoruna cəlb etmək bizdən böyük səylər tələb edirdi. Qeyri-neft sektoru da belədir. Gərək böyük şirkətləri biz buraya cəlb edək. Bu sahədə səfirliklərin fəaliyyəti çox önəmli ola bilər.

Bir sözlə, mən bir daha demək istəyirəm ki, Azərbaycanın xarici siyasəti çox uğurludur. Bu siyasətin təməli 1993-cü ildə qoyulmuşdur və xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın xarici siyasətinə, Azərbaycanın xaricdə olan imicinə çox böyük diqqət yetirirdi.

Azərbaycan beynəlxalq aləmin üzvüdür, müxtəlif təşkilatlarda fəal iştirak edir. Mən qeyd etdim ki, bizim dünya birliyinə inteqrasiya siyasətimiz dəyişməz olaraq qalır və son müddət ərzində bu istiqamətdə Azərbaycan çox önəmli addımlar atmışdır. Biz dünyaya açıq bir ölkəyik. Belə olan halda, əlbəttə, bizim xarici siyasətimiz, xaricdə Azərbaycanın imici daha da güclənməlidir. Əlbəttə, bunu etmək üçün ölkə daxilində proseslər getməlidir, ölkə inkişaf etməlidir, demokratikləşmə prosesi daha da sürətlə getməlidir, iqtisadiyyat inkişaf etməlidir. Əlbəttə, əgər bunlar olmasa, nə istəyirsən et, Azərbaycan haqqında müsbət imic yaratmaq mümkün olmayacaqdır. Amma bütün bunlar olan halda, Azərbaycan dünya birliyi üçün çox önəmli bölgəyə çevrilir.

Bilirsiniz ki, Azərbaycanda demokratiyanın inkişafında böyük addımlar atılıbdır. Avropa Şurası ilə əlaqədar məsələlər öz həllini tapır. Baxmayaraq ki, hələ bizim maliyyə imkanlarımız məhduddur, amma sosial məsələlər öz həllini tapır. Azərbaycanın Neft Fondundan qaçqınların, məcburi köçkünlərin yerləşdirilməsinə, onların həyat səviyyəsinin yaxşılaşdırılmasına böyük vəsaitlər ayrılır. Digər sosial məsələlər öz həllini tapır, minimum əmək haqqı qaldırılıbdır. Büdcədən maliyyələşən təşkilatlarda işləyən insanların əmək haqları qaldırılır. Bu proseslər bundan sonra da gedəcəkdir. Mən demişəm ki, Azərbaycan bazar iqtisadiyyatına sadiqdir və bilirsiniz ki, ümumi daxili məhsulun 74 faizi özəl sektorun fəaliyyəti nəticəsində formalaşır. Eyni zamanda, biz sosial məsələlərə biganə qala bilmərik. Ən çətin vəziyyətdə yaşayanlar, təqaüdçülər, büdcədən maliyyələşən təşkilatlar haqqında fikirləşirik və imkan daxilində onların həyat səviyyəsi ildən-ilə yaxşılaşacaqdır. Mən bunu bəyan etmişəm, bu, mənim proqramımdır və mən bunu icra edəcəyəm. Yəni demək istəyirəm ki, Azərbaycanda bütün sahələrdə gedən proseslər - həm xarici, həm də daxili siyasətdə gedən proseslər imkan verir ki, Azərbaycan özünü daha da yaxşı tanıtsın, dünya ictimaiyyəti qarşısında özünü daha da gözəl təqdim etsin. Bunu hər birimiz etməliyik. Buradakı vəzifəli şəxslər, ictimaiyyət, digər qurumlar və əlbəttə, Azərbaycanı xaricdə təmsil edən səfirlər, səfirliklərin işçiləri.

Mən ümid edirəm ki, biz qarşımızda duran bütün məqsədlərə çatacağıq. Azərbaycanın xarici siyasəti bundan sonra da ölkəmizin milli maraqlarına xidmət edəcəkdir. Siz səfirlər ölkəmizi xaricdə təmsil edirsiniz və Azərbaycan haqqında rəylər, fikirlər xeyli dərəcədə sizin fəaliyyətinizin nəticəsində yaranır, formalaşır. Əlbəttə, bu, böyük şərəfdir. Amma eyni zamanda, böyük məsuliyyətdir. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və bundan sonra da doğma Vətənimizi xaricdə ləyaqətlə təmsil edəcəksiniz. Bu işlərdə sizə uğurlar arzulayıram. Sağ olun.

### *Azərbaycanın Xarici ölkələrdəki səfirləri ümummilli liderimiz Heydər Əliyevin məzarını və şəhidlər xiyabanını ziyarət etmişlər*

Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları iyulun 27-də Fəxri xiyabanda Azərbaycanın ümummilli lideri Prezident Heydər Əliyevin məzarını və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanını ziyarət etmişlər.

Səfirlər müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin məzarının və Şəhidlər xiyabanındakı "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşlar.

Dahi rəhbər tərəfindən müstəqil Azərbaycanın müdrik uzaqgörən xarici siyasət xəttinin müəyyənləşdirildiyini vurğulayan diplomatlar ulu öndərimizə və şəhidlərimizə Allahdan rəhmət diləmişlər.

### *Müşavirənin davamına dair*

Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri rəhbərlərinin Xarici İşlər Nazirliyində keçirilən müşavirəsi iyulun 28-də öz işini davam etdirmişdir.

Səhər iclasında müdafiə naziri Səfər Əbiyev, daxili işlər naziri Ramil Usubov, milli təhlükəsizlik naziri Eldar Mahmudov, ədliyyə naziri Fikrət Məmmədov, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev çıxış etmişlər.

Müdafiə naziri Səfər Əbiyev ordu quruculuğunda ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətlərindən, ölkəmizin Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nazirliyin qarşısında qoyduğu vəzifələrdən və onların yerinə yetirilməsi istiqamətində görülən işlərdən söhbət açmışdır. Daxili işlər naziri Ramil Usubov çıxışında müşavirənin əhəmiyyətini vurğulayaraq demişdir ki, bu tədbir səfirliklərimizin və digər diplomatik nümayəndəliklərimizin fəaliyyətinin gücləndirilməsinə, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və təhlükəsizliyin təmin edilməsi sahəsində beynəlxalq əməkdaşlıq imkanlarının daha da genişlənməsinə şərait yaradacaqdır. Xarici siyasətin milli təhlükəsizlik anlamı ilə sıx bağlı olduğunu xatırladan milli təhlükəsizlik naziri Eldar Mahmudov ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında iştirak edən dövlət strukturlarının sıx və işgüzar qarşılıqlı əlaqələrinin formalaşdırılmasının və bunun vahid mexanizm forması almasının vacibliyini vurğulamışdır. Dövlət sərhəd xidmətinin rəisi Elçin Quliyev rəhbəri olduğu qurumun xarici əlaqələrinin inkişafında beynəlxalq təşkilatlarla münasibətlərin xüsusi yer tutduğunu bildirmişdir.

Çıxışlardan sonra müzakirələr olmuş, səfirlər onları maraqlandıran suallara cavab almışlar. Əsasən xaricdə konsulluqda qeydiyyatda duran Azərbaycan vətəndaşlarının ümumvətəndaş

pasportunun müddəti bitdiyi təqdirdə onun vaxtının uzadılması və ya yenisi ilə əvəz edilməsi məsələsinin asanlaşdırılması mexanizminə dair təkliflər irəli sürülmüşdür. Daxili işlər naziri Ramil Usubov bu məsələnin Xarici İşlər Nazirliyi ilə birlikdə nəzərdən keçiriləcəyini bildirmişdir.

Fasilədən sonra müşavirə iqtisadi inkişaf naziri Fərhad Əliyev, vergilər naziri Fazil Məmmədov, gənclər, idman və turizm naziri Əbülfəz Qarayev, maliyyə nazirinin birinci müavini İlqar Fətizadənin iştirakı ilə öz işini davam etdirmişdir. Ölkəmizdə səmərəli iqtisadi islahatların aparıldığını vurğulayan iqtisadi inkişaf naziri Fərhad Əliyev səfirlərin biznes mühitinin yaxşılaşdırılması, xaricdə təcrübə keçən iş adamlarına lazımi şərait yaradılması sahəsində, habelə TRASEKA proqramına üzv olan ölkələrin səfirlikləri ilə intensiv iş aparmasının vacib olduğunu söyləmişdir.

Vergilər naziri Fazil Məmmədov əlavə dəyər vergisi tutulmasının qarşılıqlı aparılmasının, işlədikləri ölkələrdə iqtisadi proseslərlə bağlı arayışların hazırlanmasında səfirlərin fəallığının yüksəldilməsinin zəruriliyini qeyd etmişdir. Gənclər, idman və turizm naziri Əbülfəz Qarayev beynəlxalq yarışların təşkilində səfirliklərimizin nümayəndələrinin yaxından iştirak etməsinin, Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirliklərinin, konsulluqlarının respublikamızın turizm şirkətlərinə şərait yaratması üçün nazirliyə kömək göstərmələrinin vacibliyini diqqətə çatdırmışdır. Maliyyə nazirinin birinci müavini İlqar Fətizadə öz çıxışında büdcəyə nəzarətin gücləndirilməsinin vacibliyindən, səfirliklərdə xidməti avtomobildən istifadə qaydalarından, milli bayramların qeyd edilməsi ilə bağlı normativ sənədlərin hazırlanmasından söhbət açmışdır.

Qaldırılan məsələlər ətrafında müzakirələrdə səfirlər, əsasən, bank əməliyyatları zamanı rüsumların tutulması ilə əlaqədar qarşıya çıxan problemlərlə bağlı vergilər və maliyyə nazirliklərinin nümayəndələrinə müraciət etmişlər. Səfirləri maraqlandıran digər vacib məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

Fasilədən sonra Milli Məclis sədrinin birinci müavini Arif Rəhimzadə, Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov, mədəniyyət naziri Polad Bülbüloğlu, təhsil naziri Misir Mərdanov, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov müşavirədə çıxış etmişlər. Parlamentlərarası tədbirlərdə iştirak etmək üçün xarici ölkələrə səfər edən deputatların səfirliklərlə birgə fəaliyyətinin əlaqələndirilməsinin vacibliyindən danışan Milli Məclis sədrinin birinci müavini Arif Rəhimzadə bununla bağlı xarici işlər naziri Elmar Məmmədyarovun parlamentə yazılı müraciətinin yüksək qiymətləndirdiyini bildirmişdir. Qaçqınlara və məcburi köçkünlərə humanitar yardım göstərilməsinin diqqət mərkəzində olduğunu söyləyən Baş nazirin müavini Əli Həsənov səfirliklərin beynəlxalq maliyyə qurumları ilə əlaqələrin gücləndirilməsinin vacibliyini vurğulamışdır. Azərbaycan mədəniyyəti və incəsənətinin xaricdə təbliği sahəsində səfirliklərin yaratdıqları şəraitdən danışan

mədəniyyət naziri Polad Bülbüloğlu diplomatik missiyalarda bu məsələ ilə məşğul olan attaşelərin təyin edilməsi və onların əvvəlcə Mədəniyyət Nazirliyində təcrübə keçməsi barədə təklif irəli sürmüşdür. Təhsil naziri Misir Mərdanov xarici ölkələrlə təhsil sahəsində ikitərəfli sazişlərin imzalanmasında, şagird, tələbə və magistr mübadiləsində, birgə elmi tədqiqatların aparılmasında, ölkəmizin beynəlxalq və regionlararası təhsil proqramlarına qoşulmasında Xarici İşlər Nazirliyi ilə gələcəkdə də birgə fəaliyyətin davam etdirilməsinin əhəmiyyətindən danışmış və xaricdə təhsil alan tələbələrə səfirliklərimiz tərəfindən kömək göstərilməsinin vacib iş olduğunu bildirmişdir.

Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycan diasporu ilə intensiv iş aparılmasının ölkəmizin milli maraqları üçün vacibliyini vurğulayaraq, bu sahədə XİN vasitəsilə səfirliklərlə birgə əməkdaşlığın zəruri olduğunu qeyd etmişdir.

Çıxışlardan sonra müzakirələr davam etdirilmişdir. Səfirlər diplomatik korpusun ölkəmizə aid audio, videokasetlər, kitablar, bukletlər və suvenirlərdən ibarət təbliğat materialları ilə təmin olunmasına dair təkliflə Baş nazirin müavini Əli Həsənova, azərbaycanlı tələbələrin xaricdə təhsil alması üçün vəsait ayrılmasından ötrü Dövlət Neft Fonduna müraciət olunması barədə təhsil naziri Misir Mərdanova və digər vacib məsələlərlə bağlı əlaqədar nazirlərə təkliflərini vermişlər.

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev müşavirəyə yekun vurmuşdur.

**«AZƏRTAC» 28.0704**

## Azərbaycan Xarici İşlər Nazirliyi Mətbuat Mərkəzinin məlumatı

Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində komanda-qərargah təlimləri keçirməsinə dərin narahatlıq hissi ilə diqqəti cəlb edir.

Ermənistan tərəfinin bu hərəkətləri Dağlıq Qarabağın üzdəniraq «silahlı qüvvələri»nin, əslində isə, Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində yaratdığı separatçı rejimin qeyri-leqal silahlı birləşmələrinin təlimləri kimi qələmə vermək cəhdləri dünya birliyini aldada bilməz.

Azərbaycanın işğal olunmuş ərazilərində 2004-cü il avqustun 8-də qanunsuz seçkilər keçirmək niyyəti ilə yanaşı, bu təlimlərin də keçirilməsi Ermənistan tərəfinin növbəti fitnəkarlığıdır.

Bu təlimlər NATO-nun Azərbaycanda sentyabrda keçiriləcək «Cooperative best effort-04» təlimlərində Ermənistanın nümayəndələrinin nəzərdə tutulan iştirakı ətrafında ab-havanı da gərginləşdirir.

Ermənistan tərəfinin hərəkətləri münaqişə regionunda onsuz da sadə olmayan vəziyyəti ümumən gərginləşdirməklə yanaşı, Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında danışıqların növbəti dövrəsinə hazırlığı əhəmiyyətli dərəcədə mürəkkəbləşdirir.
XİN beynəlxalq birliyin diqqətini ona cəlb edir ki, bu təlimlərin keçirilməsi Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə və onun ərazilərinin işğalına növbəti əyani sübutdur.
Bu hərəkətlər Ermənistan Respublikasının Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri arasında əsasında tezliklə sülh yolu ilə həllinə doğru getmək istəmədiyini bir daha sübut edir və bu ölkənin hərbi təcavüzün nəticələrini hər vasitə ilə möhkəmləndirməyə cəhd etdiyini göstərir.

**XİN, Mətbuat Mərkəzinin məlumatı, 04.08.04**

## Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini Mahmud Məmməd-Quliyevin Gürcüstana rəsmi səfəri

İyulun 20-də Tbilisidə Avropa Komissiyası və Avropa Şurası arasında Cənubi Qafqaz bölgəsində demokratik sabitliyin təşviq edilməsi, gücləndirilməsi və münaqişələrin qarşısının alınması üzrə Birgə proqramın Rəhbər komitəsinin üçüncü yekun iclası keçirilmişdir. Respublikamızı xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyevin rəhbərliyi ilə Prezident Administrasiyasının, xarici işlər, ədliyyə, təhsil, əmək və əhalinin sosial müdafiəsi nazirliklərinin əməkdaşlarından ibarət nümayəndə heyəti təmsil etmişdir.
Azərbaycan nümayəndə heyəti gündəliyin bütün bəndləri üzrə çıxış etmiş, proqramın ölkəmizdə demokratik islahatların gedişinə töhfə verdiyini bildirmiş, Avropa Şurası və Avropa Komissiyası nümayəndələrinə Azərbaycan üzrə milli səviyyədə yeni Birgə proqram həyata keçirmək imkanlarının araşdırılması barədə müraciət etmişdir.
Beynəlxalq təşkilatların nümayəndələri bildirmişlər ki, Cənubi Qafqaz üzrə Birgə Proqramın nəticələrinin dəyərləndirilməsi işi yekunlaşdırıldıqdan sonra mümkün davam tədbirlərini ehtiva edən proqramın hazırlanıb reallaşdırılması imkanlarının nəzərdən keçiriləcəyini bildirmişlər.
Səfər çərçivəsində Gürcüstan tərəfinin təşəbbüsü ilə xarici işlər naziri Salome Zurabişvili və Azərbaycan nümayəndə heyətinin başçısı Mahmud Məmməd-Quliyev arasında görüş keçirilmişdir. Görüşdə Azərbaycan və Gürcüstan arasında iqtisadi münasibətlərin bugünkü səviyyəsi və inkişaf perspektivləri, iki ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərindən səmərəli istifadə kimi məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.
Gürcüstanda işgüzar səfərdə olan ölkəmizin xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev iyulun 20-də Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyində azərbaycanlılarla görüşmüşdür. Nazir müavini gürcüstanlı soydaşlara Azərbaycan Prezidenti İlham Əliyevin xoş arzularını yetirmiş, onların problemləri ilə maraqlanmışdır.
Azərbaycan Respublikasının Gürcüstandakı səfiri Ramiz Həsənov burada azərbaycanlıların problemləri ilə əlaqədar görülən tədbirlərdən söhbət açmışdır.

Görüşdə Gürcüstan parlamentinin deputatı Allahverdi Hümmətov, Kvemo Kartli-Borçalı bölgəsi qubernatorunun müavini Azər Süleymanov, alimlərdən Valeh Hacıyev, Şurəddin Məmmədov, Novruz Bayramov, "Gürcüstan" qəzetinin baş redaktoru Süleyman Süleymanov, Tbilisidəki M.F.Axundov adına 73 nömrəli Azərbaycan orta məktəbinin direktoru Salman Pirməmmədov, Tbilisi şəhər məclisinin üzvü Nadir Əhmədov çıxış edərək Gürcüstan azərbaycanlılarının cəmiyyətdəki rolundan danışmışlar.

**«AZƏRTAC» 21.07.04**

## Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin press-relizi

2004-cü il sentyabrın 20-də Azərbaycan, «Azəri-Çıraq-Günəşli» (AÇG) neft yataqlarının işlənməsinə dair Azərbaycan Respublikası ilə dünyanın aparıcı beynəlxalq enerji şirkətləri arasında imzalanmış «Əsrin Müqaviləsi»nin 10 illiyini qeyd etdi. Qərbin Avrasiyada ən böyük investisiya layihəsi olan bu müqavilə, regiona böyük dəyişikliklər və qlobal enerji marketinə yeni aspekt gətirdi. Azərbaycan regionun iqtisadi və Xəzərin neft və qaz ehtiyatlarının işlənməsi üzrə əsas mərkəzlərdən biri kimi yenidən canlandı. İndiyə qədər Azərbaycanın neft sektoruna qoyulmuş sərmayələrin məbləği təxminən 15 milyard ABŞ dolları təşkil edir.

Gürcüstan Respublikasının baş naziri Zurab Jvaniya, Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər naziri Mehmet Hilmi Gülər, ABŞ-ın Enerji katibi müavininin köməkçisi Castin Svift, Böyük Britaniyanın Cənubi Qafqazdakı xüsusi nümayəndəsi Brayan Fol və başqa yüksək səviyyəli qonaqlarında iştirak etdiyi və "Əsrin Müqaviləsi"nin 10 illiyinə həsr olunmuş mərasimdə, Prezident İlham Əliyev, Azərbaycanın güclü dövlətə çevriləcəyinə inandığını ifadə etdi. Prezident dedi: " 1994-cü ildə Əsrin Müqaviləsi imzalanarkən çoxları onun kağız üzərində qalacağını düşünür, müqavilənin uğur qazanacağına inanmırdı, çünki o zaman ancaq iqtisadi deyil, siyasi və geosiyasi problemlərin aradan qaldırılması lazım idi. Prezident Heydər Əliyevin neft strategiyası və diplomatiyası bütün tapşırıqların öhdəsindən gəlmək üçün imkan yaratdı. Bu gün müqavilənin 10 illik yubileyini qeyd edərək biz bütün məsələlərin həll edildiyini deyə bilərik".

Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdet Sezər, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov,

Ukrayna Prezidenti Leonid Kuçma, Fransa Prezidenti Jak Şirak, Böyük Britaniyanın Baş Naziri Toni Bleyer, Avropa Komisiyasının Prezidenti Romano Prodi, İtaliya Respublikasının Baş Naziri Silvio Berluskoni, Yaponiyanın Baş Naziri Dzüntiro Koidzumi, Bolqarıstan Respublikasının Prezidenti Georgi Pıryanov, Norveçin Baş Naziri Kiel Maqne Bondevik, "Əsrin Müqaviləsi"nin 10 illiyi münasibətilə Prezidenti İlham Əliyevə təbriklərini göndərən yüksək-səviyyəli şəxslər arasında idilər.
Aparıcı beynəlxalq enerji şirkətlərindən (BP (İngiltərə), Amoko (ABŞ), Lukoil (Rusiya), Pennzoil (ABŞ), Unocal (ABŞ), Statoil (Norveç), McDermott International (ABŞ), Ramco (Şotlandiya), Turkish State Oil Company (Türkiyə), Delta-Nimir (Səudiyyə Ərəbistanı), Itochu (Yaponiya), Amerada Hess (ABŞ), Eni (İtaliya), TotalFinaElf (Fransa), INPEX (Yaponiya), ConocoPhillips (ABŞ)) ibarət olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ), ölkəyə sərmayə qoyuluşunun uğurlu nəticələrini nümayiş etdirir. Azərbaycan hökuməti sərmayələrin uğurlu nəticələr gətirməsi üçün lazım olan hər bir şəraiti yaradıb. Bu məqsəd üçün, Azərbaycan qanunvericiliyi ilk dəfə olaraq, müqavilə öhdəliklərinin yerinə yetirilməsinə dair zəmanət verilməsi təcrübəsini həyata keçirib.

2004-cü ilin sentyabrın 20-də Azərbaycan, müqavilənin son faza 3 hissəsini imzaladı. Adıçəkilən layihə həyata keçirildikdən sonra Azərbaycan gələcəkdə gündə bir milyon barrel, və ya ildə 50 milyon ton neft istehsal edə biləcək.

Strateji mövqeyinə və enerji ehtiyatlarına görə Xəzər regionu inkişaf etmiş dövlətlər üçün maraq kəsb edir. Regionda inkişafın və təhlükəsizliyin təmin edilməsi üçün böyük strateji əhəmiyyətə malik olan Şərq-Qərb Enerji Dəhlizi və həmçinin Azərbaycan, Gürcüstan və Türkiyə arasında tərəfdaşlığın gücləndirilməsi üçün əlverişli imkanlar yaranıb. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələri bu tərəfdaşlığın müvəffəqiyyətli inkişafında mühüm rol oynayırlar.

**XİN, Mətbuat Mərkəzinin məlumatı, 22.09.04**

# *AZƏRBAYCAN RESPUBLİKASININ XARİCDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNDƏ*

**Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi səfir Aqşin Mehdiyevin AzərTAc-ın Fransadakı xüsusi müxbiri ilə müsahibəsi**

*Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi səfir Aqşin Mehdiyevin AzərTAc-ın Fransadakı xüsusi müxbiri ilə müsahibəsi*

**- Aqşin müəllim, iyulun 13-də Avropa Şurası Nazirlər Komitəsinin iclasında Milli Azlıqların Qorunması haqqında Çərçivə Konvensiyanın Azərbaycan tərəfindən həyata keçirilməsinə dair qətnaməyə baxılmışdır. Bu qətnamənin mahiyyəti haqqında məlumat verə bilərsinizmi?**

- Qətnamədən danışmazdan əvvəl demək lazımdır ki, zəngin tarixə malik olan Azərbaycan milli azlıqların qorunması məsələsinə həmişə xüsusi diqqət yetirmişdir. Azərbaycan Respublikası hələ Avropa Şurasına üzv qəbul olunandan əvvəl, 2000-ci ildə Milli Azlıqların Qorunması üzrə Çərçivə Konvensiyasına qoşulmuşdur. Konvensiyada nəzərdə tutulan monitorinq mexanizminə əsasən, Avropa Şurasının Nazirlər Komitəsi konvensiyaya qoşulan dövlətlər tərəfindən onun həyata keçirilməsinə nəzarət edir. Nazirlər Komitəsinə bu prosesdə Konvensiyanın Məşvərətçi Komitəsi yardım göstərir.

Monitorinq prosesi çərçivəsində Azərbaycan hökuməti 2002-ci ildə Avropa Şurasına müvafiq dövlət məruzəsi təqdim etmiş və Məşvərətçi komitə 2003-cü ildə ölkəmizə səfərin yekununa əsasən, Azərbaycan üzrə müvafiq rəy hazırlamışdır. Həmin rəy Azərbaycan hökumətinin razılığı əsasında 2004-cü ilin yanvarında ictimaiyyətə açıqlanmış və Avropa Şurasının İnternet səhifəsində yerləşdirilmişdir.

Rəydə Azərbaycanın mədəni rəngarəngliyinin uzun keçmişə malik olduğu, Azərbaycan hökuməti tərəfindən Çərçivə Konvensiyanın tətbiqi sahəsində təqdirəlayiq səylər göstərildiyi, ölkəmizdə milli və dini dözümlülüyün hökm sürdüyü və milli azlıqların mədəniyyətlərinin qorunması və təşviqinə böyük əhəmiyyət verildiyi göstərilməklə yanaşı, ifadə azadlığı, təhsil, milli azlıqların dillərindən istifadə kimi sahələrdə bəzi nöqsanların olduğu da göstərilmişdir.

İyulun 13-də Avropa Şurası Nazirlər Komitəsinin Milli Azlıqların Qorunması haqqında Çərçivə Konvensiyanın Azərbaycan tərəfindən həyata keçirilməsinə dair qəbul etdiyi qətnamə məhz Məşvərətçi komitənin həmin rəyi əsasında tərtib olunmuşdur.

Qətnamənin mahiyyətinə gəldikdə isə, burada yuxarıda sadaladığım, rəydə ifadə olunmuş əsas müsbət hallar və nöqsanlar göstərilmişdir. Bununla bərabər, mən Nazirlər Komitəsi tərəfindən qətnamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticələrinə verilən yerə diqqəti xüsusi cəlb etmək istərdim. İlk növbədə, Azərbaycan torpaqlarının böyük bir hissəsinin uzun müddətdən bəri işğal altında olması və böyük sayda Azərbaycan sakinlərinin köçkün halına düşməsi qətnamədə öz əksini tapmışdır. Bundan əlavə, qətnamədə münaqişənin sülh yolu ilə və qəti şəkildə həll ediləcəyinə ümidlər ifadə olunur və bu istiqamətdə səylərin artırılması arzu

edilir. Ən əsası isə odur ki, Avropa Şurasının Nazirlər Komitəsi bu münaqişənin həllini beynəlxalq hüququn ərazi bütövlüyü və digər prinsipləri çərçivəsində görür. Nazirlər Komitəsinin rəsmi sənədi olan həmin qətnamədə qurumun Dağlıq Qarabağ münaqişəsi üzrə mövqeyi əks olunur. Avropa qitəsində böyük nüfuza malik olan bu təşkilatın mövqeyi beynəlxalq ictimaiyyət, eləcə də əlaqədar dövlətlərin və qurumların diqqətindən yayına bilməz və ümid edirəm ki, Nazirlər Komitəsinin bu qətnaməsi Azərbaycanın ədalətli mövqeyinin bərqərar olmasına öz töhfəsini verəcəkdir.

Nəhayət, demək istərdim ki, Azərbaycan hökuməti Nazirlər Komitəsinin qəbul etdiyi bu qətnamə əsasında milli azlıqların qorunması sahəsində Avropa Şurası ilə əməkdaşlığı davam etdirəcəkdir.

**«AZƏRTAC» 14.07.04**

## Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənovun İranın energetika nazirinin su ehtiyatları məsələləri üzrə müavini Rza Ərdəkanian ilə görüşünə dair

İranın energetika nazirinin su ehtiyatları məsələləri üzrə müavini Rza Ərdəkanian Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənovla görüşmüşdür.

R.Ərdəkanian İranın Azərbaycanla ikitərəfli əlaqələrin möhkəmlənməsində maraqlı olduğunu vurğulamışdır. O, sərhədyanı bölgələrdəki ümumi su ehtiyatları məsələsindən danışaraq, bu ehtiyatlardan hər iki ölkə əhalisinin mənafeləri naminə istifadə olunması sahəsində regional əməkdaşlığın əhəmiyyətini qeyd etmişdir. Nazir müavini demişdir ki, müxtəlif layihələrin, o cümlədən bəndlər tikilməsi layihəsinin həyata keçirilməsi üçün Azərbaycan hökuməti ilə birlikdə göstərilən səylər su ehtiyatlarından istifadə sahəsində səmərəli əməkdaşlığa əlverişli şərait yaradır.

Görüşdə Araz çayı üzərində bəndlər və su elektrik stansiyaları tikintisi üzrə potensialın qiymətləndirilməsi üçün tədqiqatlar aparmaq məsələsi də müzakirə edilmişdir.

**«AZƏRTAC» 21.07.04**

## M.N. ƏFƏNDİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ BELÇİKA KRALLIĞINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ, AZƏRBAYCAN RESPUBLİKASININ NATO YANINDA NÜMAYƏNDƏLİYİNİN BAŞÇISI, KİMYƏVİ SİLAHLARIN QADAĞAN OLUNMASI ÜZRƏ TƏŞKİLATDA AZƏRBAYCAN RESPUBLİKASININ DAİMİ NÜMAYƏNDƏSİ VƏZİFƏSİNDƏN GERİ ÇAĞIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN S Ə R Ə N C A M I

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Mir-Həmzə Nazim oğlu Əfəndiyev Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri, Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı, Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda Azərbaycan Respublikasının daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 15 iyul 2004-cü il**

## M.N. ƏFƏNDİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ YUNANISTAN RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA
## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
## S Ə R Ə N C A M I

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Mir-Həmzə Nazim oğlu Əfəndiyev AZərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 15 iyul 2004-cü il**



*Mir-Həmzə Əfəndiyev*

*Tərcümeyi-hal*

| | |
|---|---|
| 1950 | Doğulduğu il, Bakı şəhəri |
| 1974 | Azərbaycan Tibb Universiteti, Bakı şəhəri |
| 1974-1992 | Cərrah, Baş həkim |
| 1985-1990 | Sabunçu rayonu İcra Hakimiyyəti |
| 1990-1995 | Azərbaycan Respublikasının Milli Məclisi |
| 1992-1995 | Qara Dəniz İqtisadi Tərəfdaşlıq Təşkilatının Parlament Siyasət və Qanunvericilik Komitəsi |
| | Üzv, xarici məsələlər üzrə Parlament Komissiyası |
| 1995-2004 | Azərbaycan Respublikasının NATO Yanında Nümayəndəliyinin Başçısı |
| | Azərbaycan Respublikasının Belçika Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri |
| 1996-2000 | Azərbaycan Respublikasının Avropa İttifaqı Yanında Nümayəndəliyinin Başçısı |
| 2000-2004 | Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatında Azərbaycan Respublikasının Nümayəndəsi |
| 2004-cü ildən etibarən | Azərbaycan Respublikasının Yunanıstandakı Fövqəladə və Səlahiyyətli Səfir |
| Xarici dillər | Rus, ingilis, fransız |
| Ailə vəziyyəti | Evlidir. İki övladı var |

**H.S.ZEYNALOVUN TÜRKİYƏ RESPUBLİKASININ QARS ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ KONSULU TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

**S Ə R Ə N C A M I**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Həsən Sultan oğlu Zeynalov Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 15 iyul 2004-cü il**

## H.S.ZEYNALOVA BİRİNCİ DƏRƏCƏLİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ ELÇİ DİPLOMATİK RÜTBƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

«Diplomatik xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 8.1.2-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Həsən Sultan oğlu Zeynalova birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 15 iyul 2004-cü il**



***Həsən Zeynalov***

***Tərcümeyi-hal***

| | |
|---|---|
| 1951 | Doğulduğu il, Yəngicə kəndi, Şərur rayonu, Naxçıvan, Azərbaycan |
| 1967-1970 | Azərbaycan Neft və Kimya İnstitutu |

| | |
|---|---|
| 1970-1983 | Bakı şəhər icraiyyə Komitəsi, Texniki İnventarlaşdırma İdarəsi, texnik, mühəndis, baş mühəndis |
| 1977 | Azərbaycan Xalq Təsərrüfatı İnstitutu |
| 1983-1986 | 26 Bakı Komissarı adına rayon İcraiyyə Komitəsi, Təsərrüfat İdarəsi, rəis |
| 1986-1992 | Bakı Şəhəri İcraiyyə Komitəsi, Texniki İnventarlaşdırma İdarəsi, böyük mühəndis |
| 1992-2004 | Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəsi |
| 2004-cü ildən etibarən | Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulu |
| Ailə vəziyyəti | Evlidir, üç ovladı var. |

**Azərbaycan Respublikasının Yunanıstanda yeni təyin olunmuş səfiri Mirhəmzə Əfəndiyev etimadnaməsini Yunanıstanın Prezidenti Konstantinos Stefanopulosa təqdim etməsinə dair**

İyulun 21-də Azərbaycan Respublikasının Yunanıstanda yeni təyin olunmuş səfiri Mirhəmzə Əfəndiyev etimadnaməsini Prezident Konstantinos Stefanopulosa təqdim etmişdir.

Etimadnamə təqdim olunduqdan sonra Yunanıstan Prezidenti Konstantinos Stefanopulos səfir Mirhəmzə Əfəndiyevi qəbul etmişdir. Prezident Konstantinos Stefanopulos diplomat Mirhəmzə Əfəndiyevin Azərbaycan Respublikasının Yunanıstan Respublikasındakı ilk fövqəladə və səlahiyyətli səfiri olduğunu qeyd etmiş və ona bu ölkədə fəaliyyət göstərəcəyi müddətdə müvəffəqiyyətlər arzulamışdır. Yunanıstanın Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığının vacibliyini qeyd edən Prezident Konstantinos Stefanopulos cari ilin iyun ayında Bakıya rəsmi səfərini və Prezident İlham Əliyevlə keçirdiyi görüşləri xoş təəssüratla xatırlayaraq, bu səfərin ölkələrimiz arasında münasibətlərin inkişafında xüsusi rol oynayacağına əmin olduğunu vurğulamışdır.

Rəsmi qəbula görə təşəkkür edən səfir Mirhəmzə Əfəndiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını Konstantinos Stefanopulosa çatdırmışdır. Azərbaycanın Yunanıstan ilə əməkdaşlığa böyük önəm verdiyini qeyd edən səfir, fəaliyyəti müddətində bu münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsi üçün səy göstərəcəyini bildirmişdir.

Söhbət zamanı bir sıra qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

Görüşün sonunda Yunanıstan Prezidenti Konstantinos Stefanopulos Azərbaycan Prezidenti İlham Əliyevə səmimi salamlarının çatdırılmasını səfir Mirhəmzə Əfəndiyevdən xahiş etmişdir.

Yunanıstan Respublikası Prezidenti Aparatının baş katibi səfir Konstantinos Ailianos və xarici işlər nazirinin müavini Panayiotis Skandalakis görüşdə iştirak etmişlər.

**«AZƏRTAC» 23.07.04**

## Azərbaycan Nümayəndə Heyəti BMT-nin İqtisadi və Sosial Şurasının əsas sessiyasında iştirakına dair

Xəbər verdiyimiz kimi, iyunun 28-i - iyulun 23-də Nyu-Yorkda BMT-nin İqtisadi və Sosial Şurasının əsas sessiyası keçirilmişdir. Azərbaycan 2003-2005-ci illər dövrü üçün bu qurumun üzvüdür. Ölkəmizin BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev bu il Şuranın büro üzvü və sədr müavini seçilmişdir.

Sessiyanın işi beş bölüm (seqment) üzrə aparılır.

Xarici İşlər Nazirliyinin mətbuat mərkəzindən AzərTAc-a daxil olmuş məlumatda bildirilir ki, sessiyanın siyasi dialoq təşkil edən və "2001-2010-cu illər üzrə ən azı inkişaf etmiş ölkələr üçün Fəaliyyət proqramının həyata keçirilməsi kontekstində yoxsulluğun azaldılması naminə vəsaitlərin səfərbər olunması və əlverişli şəraitin yaradılması" mövzusuna həsr edilmiş yüksək səviyyəli bölümündə Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev başçılıq etmişdir. O, çıxışında bildirmişdir ki, hər bir ölkənin uğurlu inkişafı üçün davamlı iqtisadi artım və qlobal iqtisadiyyata inteqrasiya zəruri amillərdən biridir. İqtisadiyyatda istehsalın gücləndirilməsi və rəqabətin artırılması, eləcə də sərmayələrin cəlb olunması inkişaf etmiş ölkələrə hazırkı qloballaşma prosesində yaxından və əlverişli şəraitdə iştirak etməyə imkan yarada bilər. M.Məmməd-Quliyev bununla bağlı Azərbaycanın təcrübəsi və nailiyyətləri barədə sessiya iştirakçılarına məlumat vermiş və dövlətimizin bu təcrübəni ən zəif inkişaf etmiş ölkələrlə bölüşməyə hazır olduğunu bildirmişdir.

Azərbaycanın BMT yanında daimi nümayəndəsi Y.Əliyev Şuranın sədr müavini kimi sessiyanın əlaqələndirici bölümünə hazırlıq prosesini həyata keçirmiş və həmin bölümə sədrlik etmişdir. Bu bölüm iqtisadi və sosial sahədə BMT-nin qəbul etdiyi qərarların yerinə yetirilməsində BMT-nin bütün qurumlarının işini əlaqələndirir və ən mühüm bölümlərdən biri sayılır. Əvvəlki illərdən fərqli olaraq, bölümün yekun sənədi kimi 3 qətnamə konsensus əsasında qəbul edilmişdir.

Xatırladaq ki, ilk dəfə olaraq əlaqələndirici bölümün Çoxillik iş proqramının təsis edilməsi üzrə danışıqlar Azərbaycan nümayəndəsi tərəfindən başlanılmışdır. Bunun nəticəsi olaraq, 2005-ci il üzrə bölümün mövzusu müəyyən edilmiş və 2000-ci ildə keçirilmiş Minilliyin zirvə toplantısının davamı kimi 2005-ci ildə təşkil ediləcək yüksək səviyyəli geniş iclasa hazırlıq prosesində Şuranın və onun köməkçi orqanlarının rolu təsdiq olunmuşdur. Növbəti dörd ili əhatə edən və onların mövzusunu müəyyənləşdirən Proqramın razılaşdırılmasına dair işlər 2004-cü ilin oktyabr ayında Şuranın bərpa olunacaq əsas sessiyası çərçivəsində Azərbaycanın daimi nümayəndəliyi tərəfindən davam etdiriləcəkdir.

İnkişaf üçün BMT-nin operativ fəaliyyəti üzrə bölümdə nümayəndə heyətimiz Azərbaycan hökuməti ilə BMT-nin ölkəmizdəki ofisi arasındakı əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri barədə fikirlərini bölüşmüş və BMT-nin regional ofislərinin rolunun gücləndirilməsi, BMT sistemində agentliklər arasında əlaqələndirmənin yaxşılaşdırılması, inkişaf etməkdə olan ölkələr üçün nəzərdə tutulmuş BMT proqramlarının səmərəliliyinin artırılması və digər aidiyyəti məqamları xüsusilə vurğulanmışdır.

Humanitar bölümün yekun sənədi olaraq qəbul edilmiş qətnamədə uzun müddət davam edən münaqişə zonalarına beynəlxalq humanitar yardımın göstərilməsi kimi mübahisəli müddəalar Azərbaycan nümayəndə heyətinin səyləri nəticəsində əks olunmuşdur.

Sessiyanın işini yekunlaşdıran ümumi bölümdə nümayəndə heyətimiz informasiya və kommunikasiya texnologiyalarının inkişafında regional perspektivlər, vergi məsələlərində beynəlxalq əməkdaşlıq, iqtisadi və sosial sahədə BMT-nin əsas konfrans və sammitlərinin nəticələrinin kompleks və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi və onların davamı olan tədbirlər barədə çıxış etmişdir.

Azərbaycan nümayəndə heyəti sessiya zamanı Polşa xarici işlər nazirinin müavini C.Volski, BMT baş katibinin ali nümayəndəsi A.Çoudhuri, Avropa Komissiyasının inkişaf və humanitar yardımı üzrə nümayəndəsi Pol Nilsen, BMT-nin Qadınlar üçün İnkişaf Fondunun (UNİFEM) icraçı direktoru xanım Noelin Heyzer, BMT-nin Humanitar məsələlər idarəsi (OCHA) başçısının vəzifəsini yerinə yetirən Ed Tsui ilə və digər rəsmi şəxslərlə görüşlər keçirmişdir.

**«AZƏRTAC» 03.08.04**

**Ramiz Rizayevin Azərbaycan-Rusiya münasibətlərinin bugünkü vəziyyəti haqqında verdiyi müsahibəyə dair**

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun avqustun 17-19-da Moskvaya səfəri ərəfəsində AzərTAc-ın xüsusi müxbiri ölkəmizin Rusiyadakı səfiri Ramiz Rizayevdən Azərbaycan-Rusiya münasibətlərinin bugünkü vəziyyətini səciyyələndirməyi xahiş etmişdir.
Diplomat demişdir: "Azərbaycanla Rusiya arasında siyasi münasibətlər sabit olaraq yüksək səviyyədədir. Deyə bilərəm ki, hazırda ölkələrimiz arasında həll edilməmiş heç bir prinsipial əhəmiyyətli məsələ yoxdur". R.Rizayevin sözlərinə görə, Azərbaycanla Rusiya arasında qarşılıqlı münasibətlərin inkişafından danışarkən iki mərhələni – Vladimir Putinin dövlət başçısı olmasından əvvəlki və sonrakı mərhələləri ayırmaq lazımdır. O, dövlət başçısı olduğu vaxtdan ölkələrimizin liderləri arasında tam qarşılıqlı anlaşma yarandı, iki ölkə qarşısında duran ümumi vəzifələr başa düşüldü. Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevi və Vladimir Vladimiroviç Putini qarşılıqlı yüksək hörmət və rəğbət telləri bağlayırdı. Bu, bir çox mühüm siyasi, iqtisadi problemlərin və digər məsələlərin həllinə çox kömək edirdi. Beləliklə, Azərbaycan-Rusiya münasibətləri yeni dinamika aldı, yüksələn xətlə inkişaf etməyə başladı.
İndi də Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasındakı şəxsi səmimi münasibətlər ölkələrimizin münasibətlərinin uğurlu inkişafına təkan verir. Diplomat demişdir: "Çox mühüm haldır ki, Azərbaycanda hakimiyyətin rəvan şəkildə dəyişməsi Heydər Əliyevin xarici siyasət xəttinin dəqiq varisliyini də öncədən müəyyənləşdirmişdir. Bu, Rusiya barəsində etibarlı strateji tərəfdaşlıq xəttidir".

**«AZƏRTAC» 14.08.04**

**H.Ə.HƏSƏNOVUN AZƏRBAYCAN RESPUBLİKASININ MACARISTAN RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**
**S Ə R Ə N C A M I**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Həsən Əziz oğlu Həsənov Azərbaycan Respublikasının Macarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 sentyabr 2004-cü il**



***Həsən Həsənov***

***Tərcümeyi-hal***

| | |
|---|---|
| 1940 | Doğulduğu il, Tbilisi, Gürcüstan |
| 1958-1963 | Bakı Politexnik İnstitutu, Mühəndislik və tikinti fakültəsi |
| 1979-1981 | Ali Partiya Məktəbi, siyasətşünaslıq |
| May 1966-May 1967 | Material və binaların tikilməsi üzrə Bakı Tədqiqat İnstitutu, Doktorluq |
| 1960-1962 | Bakı Tələbələr Şurası, Sədr |
| İyun-Avqust 1962 | Bakı şəhər Gənclər Təşkilat Komitəsi (Komsomol), təlimatçı |
| Avqust 1962-Sentyabr 1965 | Azərbaycan Bakı şəhəri Yasamal rayon Komsomol Komitəsi, Katib |
| Sentyabr 1965-May 1966 | Azərbaycan Mərkəzi Komsomol Komitəsi, şöbə müdiri |
| May 1967-Yanvar 1969 | Azərbaycan Kommunist Partiya Mərkəzi Komitəsi, tikinti şöbəsi, təlimatçı |
| Yanvar 1969-Fevral 1971 | Mərkəzi Komsomol Komitəsi, Təşkilat şöbəsi, məsul təşkilatçı, Moskva |
| Fevral 1971-Dekabr 1971 | Mərkəzi Komsomol Komitəsi, Təşkilat şöbəsi, Təlimatçı, Moskva |
| Dekabr 1971-Oktyabr 1975 | Mərkəzi Komsomol Komitəsi, Təşkilat şöbəsi, hissə başçısı, Moskva |
| Oktyabr-Dekabr 1975 | Azərbaycan Kommunist Partiya Mərkəzi Komitəsi, tikinti şöbəsi, rəis müavini |

| | |
|---|---|
| Dekabr 1975-Oktyabr 1978 | Bakı şəhəri Səbail rayon Kommunist Partiyası, Birinci Katib |
| Oktyabr 1978-Yanvar 1979 | Sumqayıt şəhər Kommunist Partiya Komitəsi, Birinci Katib |
| Yanvar 1979-Yanvar 1981 | Gəncə şəhər Kommunist Partiya Komitəsi, Birinci Katib |
| Yanvar 1981-Dekabr 1983 | Azərbaycan Kommunist Partiya Mərkəzi Komitəsi, ideologiya üzrə Katib |
| Dekabr 1983-Dekabr 1988 | Azərbaycan Kommunist Partiya Mərkəzi Komitəsi, Tikinti və nəqliyyat üzrə Katib |
| Dekabr 1988-Yanvar 1990 | Azərbaycan Kommunist Partiya Mərkəzi Komitəsi, iqtisadiyyat üzrə Katib |
| Yanvar 1981-Sentyabr 1991 | Kommunist Partiya Mərkəzi Komitəsi, Büro Üzvü |
| 27 Yanvar 1990-Aprel 1992 | Azərbaycan Respublikası Nazirlər Şurası, Sədr (Baş Nazir) |
| Aprel 1992-Sentyabr 1993 | Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında Azərbaycan Respublikasının Daimi Nümayəndəsi |
| 1993-1998 | Azərbaycan Respublikasının Xarici İşlər Naziri |
| Sentyabr 1993-Fevral 1998 | Milli Məclisin (Parlament) millət vəkili |
| 2000-2004 | Elm və ədəbiyyat fəaliyyəti |
| 2004-cü ilin sentyabrın 1-dən etibarən | Azərbaycan Respublikasının Macarıstandakı Fövqəladə və səlahiyyətli Səfiri |
| Xarici dillər | Rus, İngilis, Gürcü |
| Ailə vəziyyəti | Evlidir, iki övladı var |

## T.Y.QARAYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ HİNDİSTAN RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

**S Ə R Ə N C A M I**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Tamerlan Yelmar oğlu Qarayev Azərbaycan Respublikasının Hindistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 sentyabr 2004-cü il**



***Tamerlan Qarayev***

***Tərcümeyi-hal***

| | |
|---|---|
| 1952 | Doğulduğu il, Ağdam, Azərbaycan |
| 1968-1973 | Bakı Dövlət Universiteti, Hüquq fakültəsi |
| 1973-1978 | Bakı Prokurorluğu, İstintaq şöbəsi, prokuror |
| 1978-1991 | Bakı Dövlət Universiteti, Hüquq fakültəsi, Dekan Müavini, hüquq elmlər doktoru |
| 1990-1993 | Ali Sovetin/Azərbaycan Respublikası Milli Məclisinin (parlament) deputatı |
| 1991-1992 | Azərbaycan Respublikası Ali Soveti (Parlament), Sədr Müavini |
| 1992-1993 | Azərbaycan Respublikası Milli Məclisi (Parlament), Sədrin 1-ci müavini |
| 1992-2001 | Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri |
| 2001-2004 | “İnternational Consulting” Şirkəti, direktor, Bakı, Azərbaycan |

| | |
|---|---|
| 2004-cü ildən etibarən | Azərbaycan Respublikasının Hindistan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri |
| Xarici dillər | Rus, türk, ingilis |
| Ailə vəziyyəti | Evlidir, iki övladı var |

## Ş.Ş. ABDULLAYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ KÜVEYT DÖVLƏTİNDƏ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN S Ə R Ə N C A M I

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının Küveyt Dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 sentyabr 2004-cü il**

## Ş.Ş. ABDULLAYEVƏ AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DƏRƏCƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN S Ə R Ə N C A M I

«Diplomatik xidmət haqqında» Azərbaycan Respublikasının Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Şahin Şakir oğlu Abdullayevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 sentyabr 2004-cü il**



***Şahin Abdullayev***

***Tərcümeyi-hal***

| | |
|---|---|
| 1959 | Doğulduğu il, Bakı, Azərbaycan |
| 1982 | Azərbaycan Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi |
| 1981-1984 | Yəmən, SSRİ-nın Səfirliyi, tərcüməçi (Ərəb dili) |
| 1984-1989 | Azərbaycan Elmlər Akademiyası, Şərqşünaslıq İnstitutu, elmi işçi |
| 1989 | Xarici İşlər Nazirliyi İnformasiya Şöbəsi, II Katib |
| 1990-1991 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Elm mədəniyyət və humanitar problemləri idarəsi, II, I katib |
| 1991-1995 | Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Katibliyin rəisi və Nazirin Köməkçisi |
| 1995-1999 | Azərbaycan Respublikasının Ərəb Misir Respublikasındakı Səfirliyi, Müşavir |
| 1999-2001 | İKT İdarəsinin rəisi |
| 2001-2004 | İkinci (Şərq) ərazi idarəsi, rəis |
| 2004-cü ilin sentyabrın 1-dən etibarən | Azərbaycan Respublikasının Küveytdəki Fövqəladə və səlahiyyətli Səfiri |
| Xarici dillər | Ərəb, ingilis, rus |
| Ailə vəziyyəti | Evlidir, iki övladı var |

**F.İ. QURBANOVUN AZƏRBAYCAN RESPUBLİKASININ KANADADA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

**S Ə R Ə N C A M I**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Fəxrəddin İsa oğlu Qurbanov Azərbaycan Respublikasının Kanadada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 sentyabr 2004-cü il**

## F.İ. QURBANOVA AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DƏRƏCƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN S Ə R Ə N C A M I

«Diplomatik xidmət haqqında» Azərbaycan Respublikasının Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Fəxrəddin İsa oğlu Qurbanova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 sentyabr 2004-cü il**



***Fəxrəddin İ. Qurbanov***

***Tərcümeyi-hal***

| | |
|---|---|
| 1954 | Doğulduğu il, Bakı, Azərbaycan |
| 1975 | Azərbaycan Dövlət Xarici Dillər İnstitutu |
| 1990 | Bakıda Siyasətşünaslıq İnstitutunu |

| | |
|---|---|
| 2002 | Ali Hökumət Rəhbərləri üçün kurslar. C.Kennedi adına İdarəetmə Məktəbi, Harvard Universiteti, Vaşinqton, ABŞ |
| 1976-1990 | Bakı Gənclər Təşkilatları Komitəsi, İcraçı katib, Sədr |
| 1990-1992 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, İnformasiya İdarəsi, rəis |
| 1992-1993 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Protokol İdarəsi, rəis |
| 1993-2001 | Azərbaycan Respublikasının ABŞ-dakı Səfirliyi, I Katib, Konsul |
| 2001-2003 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Xüsusi tapşırıqlar üzrə səfir |
| 2002 | Azərbaycan Respublikasının ABŞ-dakı Səfirliyi, Müşavir |
| 2003-2004 | Azərbaycan Respublikasının Kanadada Müvəqqəti İşlər Vəkili |
| 2004-cü ilin sentyabrın 1-dən etibarən | Azərbaycan Respublikasının Kanadadakı Fövqəladə və səlahiyyətli Səfiri |
| Xarici dillər | İngilis, rus, türk |
| Ailə vəziyyəti | Evlidir, bir övladı var. |

**Azərbaycan Respublikasının Səudiyyə Ərəbistandakı səfiri Elman Araslının Səudiyyə Qırmızı Aypara Cəmiyyətinin sədri Abdulrahman bin Əbdüləziz Assuveylimlə görüşünə dair**

Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyindən AzərTAc-a bildirmişlər ki, səfir Elman Araslı sentyabrın 22-də Səudiyyə Qırmızı Aypara Cəmiyyətinin sədri Abdulrahman bin Əbdüləziz Assuveylimlə görüşmüşdür.

Görüşdə səfir Ermənistanın Azərbaycana təcavüzünün mahiyyəti, nəticələri barədə məlumat vermişdir. Qeyd edilmişdir ki, işğal nəticəsində Azərbaycanın 20 faiz torpaqları zəbt olunmuş, 1 milyondan çox adam öz vətənində qaçqın və məcburi köçkünə çevrilmişdir. Bu insanlar 12 ildən çoxdur ki, ağır problemlər içərisində yaşayırlar.

Səfir Elman Araslı Azərbaycanın qaçqın və məcburi köçkünlərinə Səudiyyə Ərəbistanı Krallığının göstərdiyi humanitar yardımlara görə təşəkkürünü bildirmiş və bunun ölkəmizin rəhbərliyi və xalqı tərəfindən yüksək qiymətləndirildiyini həmsöhbətinin diqqətinə çatdırmışdır.

Diplomat qarşıdan gələn müqəddəs Ramazan bayramı ilə bağlı qaçqın və məcburi köçkünlərimizə humanitar yardımın həcminin artırılmasını xahiş etmiş və bununla əlaqədar səfirliyin məktubunu təqdim etmişdir.
Görüşdə Səudiyyə Qırmızı Aypara Cəmiyyətinin sədri Abdulrahman bin Əbdüləziz Assuveylim Azərbaycan və Səudiyyə xalqları arasında qardaşlıq münasibətlərinin olduğunu bildirərək, qaçqın və məcburi köçkünlərimizə əlavə humanitar yardım göstəriləcəyinə söz vermişdir.

**«AZƏRTAC» 23.09.04**

## E.M. HÜSEYNOVANIN AZƏRBAYCAN RESPUBLİKASININ FRANSA RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ VƏZİFƏSİNDƏN GERİ ÇAĞIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:
Eleonora Məcid qızı Hüseynova Azərbaycan Respublikasının Fransa Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı, 29 sentyabr 2004-cü il**

## E.M. HÜSEYNOVANIN AZƏRBAYCAN RESPUBLİKASININ YUNESKO YANINDA DAİMİ NÜMAYƏNDƏSİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Eleonora Məcid qızı Hüseynova Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi təyin edilsin.

**İlham Əliyev,**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı, 29 sentyabr 2004-cü il**



*Eleonora Hüseynova*
*Tərcümeyi-hal*

| | |
|---|---|
| 1947 | Doğulduğu il, Bakı, Azərbaycan |
| 1954-1965 | 150 №-li orta məktəb, Bakı, Azərbaycan |
| 1965-1970 | M.F.Axundov adına Azərbaycan Dillər Pedaqoji İnstitutu, Qərbi Avropa dilləri fakültəsi, fransız dili bölməsi |
| 1973-1976 | V. İ. Lenin adına Moskva Dövlət Pedaqoji İnstitutu, aspirantura |
| 1967-1968 | M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu, Fransız dili kafedrası, laborant |
| 1970 | M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu, Fransız dili kafedrası, laborant |
| 1970-1971 | M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu, Fransız dili kafedrası, böyük laborant |
| 1971-1972 | M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu, Fransız dili kafedrası, müəllim |
| 1972-1973 | M. Torez adına Moskva Pedaqoji Xarici Dillər İnstitutu, iki illik yüksək səviyyəli hazırlıq pedaqoji kursları, dinləyici |
| 1973-1976 | V. İ. Leninin adına Moskva Dövlət Pedaqoji İnstitutu, əyani aspirantura, dinləyici |
| 1994-2004 | Azərbaycan Respublikasının Fransa Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri |
| 2004-cü ildən etibarən | YUNESKO yanında daimi nümayəndəsi |
| Ailə vəziyyəti | Evlidir, bir övladı var |

## E.Z. KƏRİMOVA AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DƏRƏCƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

«Diplomatik xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Emil Zülfüqar oğlu Kərimova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı, 29 sentyabr 2004-cü il**

## E.Z. KƏRİMOVA AZƏRBAYCAN RESPUBLİKASININ İTALİYA RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Emil Zülfüqar oğlu Kərimov Azərbaycan Respublikasının İtaliya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı, 29 sentyabr 2004-cü il**



***Emil Kərimov***
***Tərcümeyi-hal***

| | |
|---|---|
| 1966 | Doğulduğu il, Bakı, Azərbaycan |
| 1983-1988 | Bakı Dövlət Universiteti, Tarix fakültəsi |
| 1988-1995 | Azərbaycan Respublikası Elmlər Akademiyası, Tarix İnstitutu, tədqiqatçı |
| 1995-1998 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Avropa, ABŞ və Kanada İdarəsi, III katib |
| 1998-2002 | Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyi, III, II və I katib |
| 2002-2004 | Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyi, müşavir |
| 2004 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, İkinci Ərazi İdarəsi, rəis müavini |
| 2004-cü ildən etibarən | Azərbaycan Respublikasının İtaliya Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri |
| Xarici dillər | İngilis, türk, rus |
| Ailə vəziyyəti | Evlidir, iki övladı var |

## T.İ. ƏLİYEVƏ AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DƏRƏCƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

«Diplomatik xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:
Tarik İsmayıl oğlu Əliyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilsin.

**İlham Əliyev,**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı, 29 sentyabr 2004-cü il**

## T.İ. ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ FRANSA RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Tarik İsmayıl oğlu Əliyev Azərbaycan Respublikasının İtaliya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı, 29 sentyabr 2004-cü il**



***Tarik Əliyev***
***Tərcümeyi-hal***

| | |
|---|---|
| 1944 | Doğulduğu il, Bakı, Azərbaycan |
| 1962-1970 | Azərbaycan Dövlət Pedaqoji İnstitutu, Filologiya fakültəsi |

| | |
|---|---|
| 1965-1966 | AZNEFT dəniz geofizika kəşfiyyat kontoru, fəhlə |
| 1966-1970 | "Qızıl şərq" mətbəəsi, Korrektor |
| 1970-1981 | Azərbaycan Kommunist Gənclər İttifaqı (komsomol) mərkəzi komitəsi, təlimatçı<br>Azərbaycan Respublikası gənclər təşkilatları Komitəsinin beynəlxalq münasibətlərini həyata keçirən Komitə, məsul katib, sədr müavini, sədr |
| 1981-1984 | Mərkəzi Ali Komsomol məktəbi, Aspirant, fəlsəfə elmləri namizədi |
| 1984-1986 | Ali komsomol məktəbinin gənclər təşkilatlarının tarixi təcrübəsi Kafedrası, baş müəllim |
| 1986-1989 | Bakı Ali partiya məktəbinin dünya siyasəti və beynəlxalq münasibətlər kafedrası, baş müəllim, dosent |
| 1989-1991 | Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi, dövlət-hüquq şöbəsi |
| 1991-1993 | Politologiya İnstitutu, Beynəlxalq münasibətlər kafedrası, dosent |
| 1993-1995 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Avropa Amerika ölkələri idarəsi, şöbə müdiri |
| 1994 | Fransa Beynəlxalq İdarəetmə İnstitutu, Beynəlxalq münasibətlər |
| 1995-2004 | Azərbaycan Respublikasının Fransa Respublikasındakı Səfirliyi, müşavir |
| 2004-cü ildən etibarən | Azərbaycan Respublikasının Fransa Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri |
| Xarici dillər | Rus, fransız |
| Ailə vəziyyəti | Evlidir, üç övladı var |

## Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfiri Ramiz Rizayev Rusiyadakı diplomatik korpusun duayeni seçilmişdir

Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyindən AzərTAc-ın xüsusi müxbirinə bildirmişlər ki, İsveç Krallığının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli

səfiri, diplomatik korpusun duayeni Sven Hirdmanın Moskvada iş müddətinin başa çatması ilə əlaqədar Azərbaycanın Rusiyadakı səfiri Ramiz Rizayev yeni duayen olacaqdır.

Xatırladaq ki, Moskvada 150-dən çox diplomatik nümayəndəlik var. Duayenin vəzifəsi bütün diplomatik korpusu müxtəlif protokol tədbirlərində və rəsmi tədbirlərdə təmsil etmək, yeni səfirləri etimadnamələrinin təqdimindən əvvəl və sonra qəbul etmək, habelə xarici ölkələrin Rusiyada akkreditə olunmuş diplomatlarının və vətəndaşlarının hüquq və mənafelərinin qorunması ilə bağlı funksiyaları Rusiya rəsmi orqanları və rəsmi şəxsləri ilə qarşılıqlı münasibətlərdə diplomatik korpusun adından yerinə yetirməkdir.

**«AZƏRTAC», 29.09.04**

# ***MƏQALƏLƏR***



***İLQAR MUXTAROV***

***Azərbaycan Respublikasının ABŞ-dakı Səfirliyinin***

***II katibi***

***Amerika Dövlətləri Təşkilatı yanında***

***Azərbaycanın Daimi Müşahidəçisinin müavini***

***Magistr***

## *ABŞ-IN LATIN AMERİKASINA NƏZƏRƏN SİYASƏTİ*

Birləşmiş Ştatların Latın Amerikasına nəzərən mövqeyi ABŞ-ın regionda geostrateji maraqları, habelə Şimali Amerika azad ticarət zonasının (NAFTA) uğuru və son illər ərzində ölkədə ən çoxsaylı milli azlığı olan "ispan dillilərin (Latinos)" təsirinin güclənməsi ilə şərtlənir.

Məlum olduğu kimi, tarixən Latın Amerikasında nüfuz dairəsi uğrunda ABŞ-la Böyük Britaniya, İspaniya və Fransa arasında daima mübarizə getmişdir. ABŞ tərəfindən regiona diqqətin daima artırılması yuxarıda qeyd edilən ölkələrin cəhdlərinə baxmayaraq, qitədə Amerikanın mövqeyinin güclənməsinə gətirib çıxardı. Buna baxmayaraq, ABŞ-ın bölgədə iqtisadı üstünlüyü fonunda Mərkəzi və Cənubi Amerika dövlətlərinin adı çəkilən Avropa ölkələrindən mədəni asılılığı davam edir.

### ***Bölgədə daxili təhlükəsizlik durumu***

Prezident Klintonun dövründən etibarən ABŞ-ın region ölkələri ilə münasibətlərində vəziyyət az olsa da, dəyişmişdir.

Ümumiyyətlə, regiondakı ölkələri onların ABŞ-la münasibətlərindən asılı olaraq iki kateqoriya üzrə ayırmaq olar: ABŞ-la "tarixi" ikitərəfli problemlərə malik ölkələr (Kuba, Panama) və ABŞ-ın bölgədə "aqressiv" xarici siyasəti nəticəsində son zamanlar gərginlik hiss edən ölkələr (Venesuela, Kolumbiya).

Bununla bağlı regional liderliyə iddia edən Meksikanın mövqeyi xüsusi əhəmiyyət kəsb edir.

Meksikanın NAFTA-ya daxil olması ölkə iqtisadiyyatının yaxşılaşmasına və miqrasiya proseslərinin tənzimlənməsinə, habelə Meksikanın qonşu dövlətlər, o cümlədən ABŞ-la yeni

münasibətlərinin qurulmasına təkan vermişdir. Amerika Birləşmiş Ştatları, öz növbəsində, ölkəyə xarici dövlətlərdən, ilk növbədə Meksikadan müəyyən dövr ərzində əməkçi miqrantların cəlb olunmasını nəzərdə tutan yeni proqramın hazırlanmasına başlamışlar. Eyni zamanda, miqrasiya və Meksikadan olan işçi qüvvənin statusu probleminin xüsusi əhəmiyyət kəsb etdiyi ştatlarda (Kaliforniya, Texas) bu yönümdə həyata keçirilən tədbirləri nəzərə almaq lazımdır.

Regionda baş verən siyasi proseslər ABŞ və Meksika arasında «xüsusi münasibətlərin» yaranmasına şərait yaratmışdır. Bəzi müşahidəçilər bunu prezident Foksun ABŞ-Meksika ikitərəfli münasibətlərini Vaşinqtonun Londonla tərəfdaşlıq səviyyəsinə çıxarmaq cəhdi kimi dəyərləndirmişlər.

ABŞ-ın Latın Amerikası ilə bilavasitə qonşuluğu Vaşinqtonun milli və regional təhlükəsizlik siyasətinin müəyyən edilməsində vacib rol oynayır. Kuba, Haiti, Venesuela və Kolumbiyada vəziyyət və bu ölkələrin xarici siyasi narahatçılığı Buş hökuməti üçün ikitərəfli münasibətlərdə problem olaraq qalır və həmin problemin həlli üçün bəzi müşahidəçilərin fikrincə, Administrasiyanın çoxtərəfli deyil, fərdi imkanlardan istifadə etməsi daha məqsədəuyğun olardı.

Bölgədaxili problemlər sırasında dövlətlərarası, o cümlədən tarixi münaqişələr vacib rol oynayır. Boliviya tez-tez qonşu Çiliyə dənizə çıxışı ilə əlaqədar iradlar irəli sürür. 1879-cu ildə Çili ilə müharibə dövründə dənizə çıxışını itirmiş Boliviya hesab edir ki, Sakit okeanın sahilindəki bu ərazi ona qaytarılmalıdır, ona görə də region ölkələrini, o cümlədən ABŞ-ı Çiliyə təsir göstərməyə çağırır. «Soyuq müharibənin» başa çatmasından sonra ABŞ-ın "milli maraqları" sistemində bölgə ölkələrinin əhəmiyyəti bir qədər azaldı, lakin 2001-ci il 11 sentyabrdan sonra, regionda terrorizmə və narkotrafikə qarşı mübarizə fonunda yenidən artmağa başladı[1].

***Kuba***

Prezident C.Buşun seçkiqabağı kampaniyasının maliyyələşdirilməsində önəmli rol oynamış nüfuzlu Kuba mühacirlərinin gözlədiyinə rəğmən, prezident Buş 1996-cı ildə qəbul olunmuş Helms-Barton qanununa riayət olunmasının vacibliyini bir daha təsdiq etdi və bu zaman Kubanın demokratik idarəetmə sisteminə keçməsinə yardım planı hazırlamalı olan komissiya yaratdı. Komissiyaya Dövlət katibi Kolin Pauel rəhbərlik edir. Yeni təşkilatın məqsədi «Kubada kommunist rejiminin süqut edəcəyi günə hazırlıq»dır. S.Buşun sözlərinə görə, komissiya «Stalinçi rejimdən azad və açıq cəmiyyətə keçidi planlaşdıracaq».

Eyni zamanda, Prezident Buş ABŞ vətəndaşları üçün Kubaya məhdud turist səfərləri rejiminin, valyutanın köçürülməsi qaydasının, Kubaya aparılan yüklərə nəzarətin sərtləşdirilməsi, eləcə də Kubadakı hakim rejimə qarşı təbliğat kampaniyasının gücləndirilməsi niyyətini təsdiq etdi.

Ötən ilin axırlarında Kuba prezidenti F.Kastro, öz növbəsində İraqda ispan legionunun rəhbərliyi altında yerləşdirilmiş Latın Amerikasından olan sülhməramlıların həmin ölkədən çıxarılmasına

---

[1] "U.S. Policy towards Latin America", W. Perry, 2002.

çağırmışdır. Qeyd etmək lazımdır ki, artıq bəzi region ölkələrinin rəhbərliyi İraqdan öz hərbi kontingentinin çıxarılması barədə qərar qəbul etmişdir.
Eyni zamanda, Kubaya nəzərən ABŞ-n siyasətində, cüzi də olsa, müəyyən dəyişikliklər meydana çıxmışdır. Kubaya müdaxilə cəhdinin uğursuzluqla nəticələnməsindən qırx ildən artıq bir müddət keçdikdən sonra Amerika ictimaiyyəti, müəyyən iqtisadi dairələr, eləcə də bəzi konqresmenlər artıq sanksiyaların və Helms-Barton qanununun müvəffəqiyyətinə əmin deyillər. ABŞ Senatının beynəlxalq işlər üzrə Komitəsinin üzvləri isə ötən ilin noyabr ayında Amerika vətəndaşlarının Kubaya getməsinə qoyulan qadağanın ləğvinə səs verdilər.
ABŞ-da seçkiqabağı prezident kampaniyası sürətlənir. Analitiklərin fikrincə, Kuba mövzusu, xüsusi halda Floridada və Nyu-Jersidə Kuba mühacirlərinin dəstəyinin əldə olunması məsələsi aktual olaraq qalır. Analoji amil həmçinin ABŞ-dakı digər çoxsaylı və sıx yaşayan Latın Amerikası icmalarına aiddir.

***<u>Haiti</u>***

Haitidə legitimliyi şübhə altına alınmış prezident seçkiləri, eləcə də hökumətlə müxalifət arasında münaqişə indiyə qədər ölkənin təkcə demokratikləşməsinə yox, həmçinin iqtisadi cəhətdən dirçəlişinə mane oldu. Prezident Jan Bertran Aristid onun ikinci müddətə seçilməsinə qarşı ABŞ-ın və müxalifətin müqavimətinə üstün gəlməyə çalışırdı. Haitidə demokratik proseslərin inkişafı məqsədilə adada Amerika Dövlətləri Təşkilatının (OAS) Xüsusi Missiyası yaradılmışdır. Bu Missiyanın məqsədi təhlükəsizliyin, insan hüquqlarının, konstitusiyanın qorunub saxlanmasına və Haitidə ciddi daxili böhrandan çıxış yolunun tapılmasına şərait yaratmaqdır.
Cari ilin fevralın sonunda silahlı üsyan nəticəsində prezident Aristid hakimiyyətdən uzaqlaşdırılmışdır. Adaya ABŞ, Fransa və Çili silahlı qüvvələrindən ibarət sülh yaratma kontingenti yeridilmişdir.

ABŞ-ın fəal iştirakı ilə Bonefis Aleksandr müvəqqəti prezident və Jerar Latortü müvəqqəti baş nazir seçilmişlər. Region ölkələrindən Venesuela və Yamayka Haitinin yeni hökumətini tanımaqdan imtina etmişlər. CARICOM Karib Birliyinə daxil olan 15 ölkə ABŞ-ı prezident Aristidin devirməsində başlıca amil hesab edərək Haitiyə öz sülhməramlı qüvvələrini göndərməkdən imtina etmişlər. Eyni zamanda Çili hərbi qulluqçularının Haitiyə göndərilməsini ölkə daxilində birmənalı qarşılanmamışdır.
Qeyd etmək lazımdır ki, Birləşmiş Millətlər Təşkilatı artıq 23 ölkədən 6700 nəfərdən ibarət sülhməramlı qüvvələrin Haitiyə göndərilməsini qərara alıb. Həmin qüvvələr Braziliyalı general A. Pereyranın  komandanlığı altında olacaqlar.

Bu, bir daha bölgə dövlətləri arasında ABŞ-ın fəal iştirakçısı olduğu qarşılıqlı münasibətlərin mürəkkəbliyinə və bir sıra vacib məsələlər üzrə yekdilliyin olmamasına dəlalət edir.

***Venesuela***

Venesuelada yaranan problemlərə Buş hökumətinin siyasi mövqeyi ötən il baş vermiş hadisələrdə əks olundu – həmin vaxt Venesuela müxalifəti hərbi çevrilişə cəhd etdi. Onda Vaşinqton təcili surətdə bəyan etdi ki, «Venesuelada baş verənlər hakimiyyətin dəyişilməsidir və buna bir fakt kimi yanaşmaq lazımdır». Həmin dövrdə Amerika konqresmenləri Buş Administrasiyasını onun Venesueladakı hökumət böhranı zamanı tutduğu mövqeyə görə tənqidə məruz qoydu. Senatda demokratların lideri T.Deşl bildirdi ki, hətta xalqlar amerikanlıların xoşuna gəlməyən şəxsləri seçsə belə, ABŞ bütün dünyada demokratiyanı dəstəkləməlidir. Senator K.Dodd rəsmi Vaşinqtonun qanuni seçilmiş hökumətin hakimiyyətdən uzaqlaşdırılmasına adekvat münasibət bildirməməsi ilə əlaqədar narahatlığını ifadə etdi.

Çavesin kənarlaşdırılmasını yalnız Latın Amerikasının 19 dövlətini birləşdirən Rio Qrupunun iştirakçıları dərhal və birmənalı şəkildə pislədilər. Sonradan Amerika Dövlətləri Təşkilatının Baş katibi S.Qaviriya ölkədəki siyasi böhranı müzakirə etmək üçün xüsusi missiya ilə Venesuelaya gəldi[2].

Analitik dairələrin fikrincə, müxalifətin məğlubiyyətini vaxtından əvvəl üç amil həll etdi. Bunlardan birincisi müxalif qüvvələrin ölkənin regionlarında dəstəyə malik olmamasıdır. İkinci amil generalların fəaliyyətinin ali və xüsusilə də orta zümrəyə mənsub komandirlərin heç də hamısı tərəfindən qəbul edilməməsidir. Rio Qrupuna daxil olan 19 ölkə tərəfindən «konstitusiya asayişinin və demokratiya normalarının pozulmasının» mühakimə olunması və onların Amerika Dövlətləri Təşkilatına müdaxilə etmək çağırışı üçüncü amilə səbəb oldu. Venesuelada rejim dəyişikliyindəki bu cür ziddiyyətlə üzləşdikdə hətta ABŞ da öz mövqeyini dəyişməyə və yeni «keçid hökumətini» tanımağa hazırlığından imtina etməyə məcbur oldu.

Bəzi ekspertlər hesab edirlər ki, Venesueladakı «uğursuz» çevrilişin arxasında Birləşmiş Ştatlar dayana bilər. Ağ Evin keçmiş mətbuat katibi A.Fleyşer ABŞ-ın vəzifəli şəxslərinin Çavesin rəqibləri ilə görüşməsi haqqında məlumatı təsdiqləyərək əlavə etdi: «Biz müxalifət liderlərinə aydın şəkildə bəyan etdik ki, Birləşmiş Ştatlar çevrilişi dəstəkləməyəcək».

Prezident Ugo Çaves cari ilin fevral ayında geniş mitinqdə çıxış edərək müxalifətin hərəkətlərini «ABŞ hökuməti tərəfindən maliyyələşdirilən pozucu və terrorçu fəaliyyət» kimi xarakterizə etmişdir. Çaves həmçinin Vaşinqton Venesuelada Haiti ssenarisini təkrar etməyə cəhd göstərdiyi təqdirdə ABŞ-a neft ixracını dayandırmağa və «yüzillik müharibə» elan etməyi vəd etmişdir.

---

[2] www.oas.org

Qeyd etmək lazımdır ki, Argentina, Kolumbiya, Peru, Çili, Salvador, Honduras, Paraqvay və Ekvadorda Venesuela liderinin müdafiəsinə nümayişlər keçirilmişdir.

Rəsmi Vaşinqton Çavesin müstəqil daxili və xarici siyasət aparmaq cəhdinə neqativ münasibətini heç vaxt gizlətməyib. Prezident Çavesin neopopulist rejimi Kuba ilə xüsusən sıx münasibətlər yaratmışdır və həmçinin müxtəlif «məhrum dövlətlər»lə sıx əlaqələrə malikdir. Bunun nəticəsində ABŞ siyasi strategiya ilə uzlaşmayan bir sıra problemlərlə üzləşir. Venesuelanın, bir tərəfdən, And regionundakı xarici siyasi liderliyə iradlarını və Kolumbiyada FARC sol üsyançı hərəkatı ilə sıx əlaqələrini, digər tərəfdən isə ABŞ-ya qarşı daha çox tənqidi münasibət bəsləyən Braziliya ilə sıx əlaqələrini də Venesuelanın ABŞ neftinin əsas tədarükçülərindən biri kimi rolu ilə əlaqələndirmək çətindir.

Bununla belə, artıq kifayət qədər aşkar nəzərə çarpır ki, Çaves Latın Amerikasının bəzi ölkələrinin siyasi liderlərinin yeni nəsli üçün müəyyən dərəcədə nümunədir, çünki o, ölkə daxilində hakimiyyətin yenidən bölünməsi və xarici siyasətdə daha çox özünümüəyyənetmə mövqeyindən çıxış edir. Latın Amerikasının bəzi ölkələrində və Birləşmiş Ştatlarda bu, yeni siyasi üslubda regional gələcək üçün xüsusi təhlükə olduğu hesab edilir.

## ***Kolumbiya***

Kolumbiya Latın Amerikasının digər ölkələri ilə müqayisədə ABŞ üçün Buşun prezidentliyinin bütün dövrü ərzində vacib ölkələrdən biri olaraq qalacaqdır. Kolumbiya, əhəmiyyətinə görə ABŞ-nın hərbi yardımından istifadə edən üçüncü ölkədir (İsrail və Misirdən sonra). 1999-cu ildə ABŞ-ın dəstəyi ilə təklif olunmuş 7,5 milyard dollar dəyərində «Kolumbiya planı» ölkənin düşdüyü böhranlı vəziyyətdən – elan olunmamış vətəndaş müharibəsindən, eləcə də partizan dəstələrinin, zorakılıq dalğası vasitəsilə ölkədə xaos yaradan qeyri-nizamlı yarımhərbi qüvvələr və narkokartel dəstələrinin timsalında üçqat həmlələrdən xilas edilməsinə yönəlmişdir. Narkotərkibli bitkilərin əkilməsi və narkotik maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə üçün ABŞ tərəfindən ayrılmış və dörddə-üç hissəsi yalnız orduya və polisə yardım göstərilməsi üçün nəzərdə tutulmuş maliyyə yardımı Kolumbiyanın özündə, eləcə də qonşu dövlətlərdə və Avropa İttifaqı ölkələrində kəskin tənqidə səbəb olmuşdur.

ABŞ-ın Kolumbiya silahlı qüvvələrini möhkəmləndirərək həm narkotik bitkilərin əkilməsi hallarının azaldılmasına və narkotik maddələrin qanunsuz dövriyyəsinə, həm də partizan dəstələrinin sülh danışıqlarına sövq edilməsinə yönəli konsepsiyası, görünür, qismən özünü doğrultmuşdur, çünki üsyançılara qarşı mübarizədə hərbi uğurların sayı qat-qat artmışdır. Digər tərəfdən, Buş hökuməti açıq-aydın bildirmişdir ki, o, özünü Kolumbiyadakı vətəndaş

müharibəsinə cəlb edilməsinə imkan verməyəcək, təhlükəsizlik siyasəti planında isə daha çox regional əməkdaşlığa ümid bəsləyir.

***<u>Amerikaarası azad ticarət zonası</u>***

Vaşinqtonun uzunmüddətli planlarında əks olunmuş Şimali Amerika azad ticarət zonasının uğuru və Amerikaarası azad ticarət zonasının (FTAA) yaradılması layihəsi bütünlükdə Amerika qitəsinə münasibətdə ABŞ-n ticarət siyasətində əsas prioritetlərini aşkar əks etdirdi[3]. Bu zaman söhbət təkcə ticarət strukturlarının və sərmayə imkanlarının yaxşılaşdırılması üçün vahid qaydaların müəyyənləşdirilməsindən deyil, həmçinin Amerika qitəsində özünütəchiz enerji siyasətinin öyrənilməsindən gedir. Venesuela artıq ABŞ-ın əsas neft tədarükçüsünə çevrilmiş, Meksika ikinci ticarət tərəfdaşı kimi Yaponiyanın yerini tutmuş, Braziliya isə ABŞ üçün iqtisadi planda Çinlə bərabər səviyyədə əhəmiyyətli olmuşdur[4]. ABŞ-ın FTAA yaratmaq ideyası 1967-ci ildə yaranmışdır. Onun banisi ABŞ prezidenti Lindon B.Conson olmuşdur, lakin həmin dövrdə bu ideya geniş dəstəklənməmişdir. Bu, o dövrdə Latın Amerikası ölkələrindəki daxili siyasi qeyri-sabitlik, eləcə də dünya siyasətində mürəkkəb vəziyyətlə əlaqədar olmuşdur. 1994-cü ildə Mayamidə keçirilən birinci "Amerika Sammitində" prezident B.Klinton bu ideyanı yenidən irəli sürmüşdür. Sammitin digər iştirakçıları bu təşəbbüsü, əsasən, dəstəkləmiş və onun tezliklə həyata keçirilməsi lehinə rəy vermişlər. Danışıqların başa çatması 2005-ci ilə planlaşdırılır, lakin artıq bu gün mövcud ziddiyyətlər nəzərə alınmaqla həmin müddət qeyri-real görünür. Braziliya həmin üsulla regiondakı iqtisadi problemlərin həll edilə bilməyəcəyi səbəbindən bu layihənin sərfəli olmadığını əsaslandıran və həmin ideyaya qarşı çıxan əsas ölkədir. Braziliya üçün FTAA layihələri sərfəli deyildir, çünki bu zaman o, regionda liderliyini itirə bilər. Artıq Argentina və Venesuela da Braziliyanın səsinə qoşulmuşlar. Analitiklərin fikrincə, FTAA layihəsi nəticəsində meydana çıxan problem aşağıdakından ibarətdir: iqtisadi nöqteyi-nəzərdən bu, gömrük tənzimləmələrindən başqa, Şimali Amerikanın nümunəsi üzrə bütün texniki, sanitar və diqər normaların uzlaşmasıdır ki, bu da Latın Amerikasında Avropa müəssisələrinin fəaliyyətini son dərəcə mürəkkəbləşdirəcəkdir. Digər bir rəy da vardır: bir çox tədqiqatçılar İspaniya və Avropa İttifaqının digər ölkələri ilə müvəffəqiyyətlə əməkdaşlıq edən Meksikanın nümunəsinə istinadən hesab edirlər ki, Latın Amerikası ölkələrinin FTAA-ya daxil olması Avropa ölkələri ilə Latın Amerikası regionu arasındakı münasibətləri gərginləşdirməyəcəkdir. Eyni zamanda, digər müşahidəçilərin fikrincə, bu cür müqayisə əsassızdır[5]. Çünki NAFTA üzvü olan dövlətlərin əlaqələri məhduddur, Meksika ilə Kanada arasında ticarət dövriyyəsi geniş deyildir və FTAA-nın

---

[3] A view from Brazil, in "The Washington Quarterly", spring '02
[4] The Century of the Americas: Dawn of a New Century Dynamic, in "Cono Sur", 2001
[5] "Europa America Latina", #2, 2001

inteqrasiya birliyi bütün regiondaxili əlaqələri əhəmiyyətli surətdə genişləndirəcəkdir ki, bu da iki Amerika qitəsi ölkələrinin bir-birlərindən böyük qarşılıqlı asılılığına səbəb olacaqdır. Siyasi məqsədlərə gəldikdə isə, bu cür birləşmə dünya ictimaiyyətində və demək olar ki, bütün beynəlxalq təşkilatlarda ABŞ-n nüfuzunu artıracaq və regionun digər ölkələrinin xarici siyasi çevikliyini məhdudlaşdırmaqla Mərkəzi Amerika Ümumi bazarı (FTA) və Merkosur (iqtisadi-ticarət Birliyi - Argentina, Braziliya, Uruqvay və Paraqvay, assosiativ üzv qismində isə Çili və Boliviya daxildir) kimi Latın Amerikasının bütün subregional inteqrasiya proseslərini inkişafını məhdudlaşdıra bilər.  Güman ki, FTAA-nın yaradılmasının ləngiməsi amillərindən biri də Latın Amerikasında mütəmadi baş verən maliyyə böhranlarıdır. Amerika Birləşmiş Ştatlarının çoxtərəfli maliyyə institutlarının köməyi olmadan Meksikada, Braziliyada və Argentinada baş verən maliyyə böhranlarının öhdəsindən gəlmək qeyri-mümkün olardı. Kolumbiya prezidenti Andres Pastrananın rəyincə, Birləşmiş Ştatların dəstəyinə onun ölkəsində baş verən daxili dövlət münaqişələrinin nizama salınmasında da kəskin ehtiyac duyulur.

90-cı illərdə «soyuq müharibənin» başa çatmasından və Latın Amerikasında qüvvəyə minən qloballaşma və modernləşmə konsepsiyalarının müddəaları üzrə razılığın əldə olunmasından sonra Buş hökuməti yeni təhdidlərlə qarşılaşır. Regionun bir çox dövlətlərində aparılan islahatların ABŞ-ın narazılığına səbəb olan nəticələri ona gətirib çıxardı ki, bu gün Birləşmiş Ştatlar özünün ümdə məqsədi kimi demokratiyanın qorunub saxlanmasını və ticarət münasibətlərinin sabitləşməsini nəzərdə tutur. Bunun Latın Amerikasında həm siyasi, həm də iqtisadi islahatların ikinci dalğasına səbəb olacağı gözlənilir.

Bu günə qədər liberallaşdırma və özəlləşdirmə üzrə görülən tədbirlərin nəticələri bütünlükdə Latın Amerikasında təkcə varlılarla kasıblar arasındakı fərqin son dərəcədə kəskinləşməsinə yox, eləcə də ziddiyyətlərin güclənməsinə, zorakılığa hazırlığın artmasına gətirib çıxardı. Xalq kütlələrinin «demokratik hökumətlərin» qabiliyyətinə, islahatçıların isə onların iqtisadi və sosial vəziyyətinin yaxşılaşacağına inamı səngimiş, demokratik sistemin aliliyinə etimadı itmişdir.

Meksikanın birpartiyalı sistemdən demokratiyaya uğurlu keçidi ABŞ-da region üçün gözəl nümunə sayılır, halbuki Buş hökuməti yaxşı dərk edir ki, Haiti, Kuba və ya Venesuela kimi dövlətlərdə demokratik transformasiyanın həyata keçirilməsi üçün Meksika modeli meyar olmayacaq.

Məqsəd, əvvəlki kimi, Qərb yarımkürəsində demokratik birliyin yaradılmasından ibarətdir. Bununla bərabər, 2001-ci ildə Amerika Dövlətləri Təşkilatı Baş Assambleyasının Lima (Peru) şəhərində keçirilmiş növbədənkənar Sessiyasında “Amerika Dövlətlərarası Demokratik Xartiyası” (Inter-American Democratic Charter) qəbul olunmuşdur. Xartiyanın əsas istiqamətindən biri insan hüquqları pozulan ölkələrə qarşı birgə sanksiyaların tətbiq edilməsidir. Bu sanksiyalar iqtisadi və siyasi xarakter daşıya bilər. Xartiyanın qəbul edilməsi Latın

Amerikasında demokratik davranışın stimullaşdırılmasında Amerika Dövlətləri Təşkilatının rolunun artmasına şərait yaratdı. Bu çoxtərəfli «müdaxilə» Qərb yarımkürəsi birliyinin konsepsiyası, yəni ticarətin genişləndirilməsi üçün zəmin yaratdığından, Buş Administrasiyası tərəfindən dəstəklənir.

***Qərb yarımkürəsi***

Əgər yalnız ispandilli vətəndaşların sayı ilə götürsək, ABŞ-ı artıq Latın Amerikası ölkəsi adlandırmaq olar. ABŞ Siyahıyaalma Bürosunun məlumatına əsasən Birləşmiş Ştatların hər beşinci sakini (56 milyon) qərib ölkələrində doğulmuşlar. Onlardan dörddə biri – Meksikada anadan olanlardır. Son illər ən çoxsaylı hesab olunan bu etnik qruplaşma öz mədəni müvəffəqiyyətləri ilə yanaşı, həmçinin ən azı bir neçə ştata ikidilliyi sirayət etdirmək üçün yaxşı perspektivlərə malikdir. Vasitəli şəkildə bu, Latın Amerikasında baş verən hadisələrlə bağlı həmin mühacirlərin gəldiyi ölkələrə münasibətdə ABŞ-ın xarici siyasətinə deyil, daha artıq ölkədaxili siyasətə təsir edəcək. ABŞ daxilində baş verən bu dəyişikliklər, çox güman ki, Qərb yarımkürəsinə münasibətdə Buş konsepsiyasının ən zəruri aparıcısıdır.

Müstəqil analitiklər seçkiqabağı kampaniyalar dövründə elektorat qazanmaq istiqamətində aparıcı siyasi partiyalar tərəfindən ABŞ-dakı Latın Amerikası mənşəli azlığın dəstəyinin əldə edilməsinə xüsusi diqqət ayırırlar.

Bir çox ekspertlər belə bir sual qarşısında qalırlar: Qərb yarımkürəsinin bu cür birliyini ABŞ tərəfindən yalnız bacarıqlı idarəetmənin köməyilə və ciddi iqtisadi və siyasi problemlər yaratmadan qurmaq mümkün olacaqmı? Bu, ilk növbədə, Latın Amerikasının özündə baş verən hadisələrin inkişafından asılı olacaq. Eyni zamanda, ABŞ-da prezident seçkilərindən sonra Ağ Evdə kimin hakimiyyətə gəlməsi, və bu nöqteyi-nəzərdən Amerikanın yarımkürə siyasətində varislik prinsipinin saxlanılması mühüm əhəmiyyət kəsb edəcəkdir.

**Ilqar Mukhtarov**

**Second Secretary. Embassy of the Republic of Azerbaijan in USA. Deputy-Permanent Observer of the Republic of Azerbaijan to Organization of American States.**

## Summary

## US policy with regard to Latin America

The analytical review is dedicated to the evolution of US policy with regard to Latin America and the continent's individual countries.

It centers on Washington's relations with key nations of the region, including Mexico, Argentina, Brazil, Venezuela, and Columbia, as well as with countries of "traditional interest" for American foreign policy (Cuba and Haiti). The paper also takes into account more recent continental trends, connected to the establishment and development of FTAA. US Government, a well-known proponent of the free-trade areas, has played the lead on the issue, while some of the regional states have had second thoughts.

Special attention is paid to the current prominence of Latino factor in US politics with the country getting ready for the presidential election in November 2004.

While analyzing factors that determine the US foreign policy and its priorities, the paper also doesn't shrink away from the regional security issues. More specifically, it focuses on two groups of countries: those that have experienced "traditional" problems in their relations with the United States, and those which started having misgivings about US role in the region during current stage of more "aggressive" foreign policy pursued by the Republican White House.

It is the first attempt in Azerbaijan to update and summarize perceptions on US - Latin America political, security, and economic relationship in a single document.



***HƏSƏN MƏMMƏDZADƏ***
***Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı Səfirliyinin II katibi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının dissertantı***

## *PAKİSTANIN SİYASİ DİNİ PARTİYALARININ VƏ İCTİMAİYYƏTİNİN KƏŞMİR MƏSƏLƏSİNƏ MÜNASİBƏTİ*

Kəşmir məsələsində kənar qüvvə kimi Hindistanla yanaşı Pakistan da böyük rol oynayır. Hindistandan fərqli olaraq Pakistan Kəşmiri öz ərazisi hesab etmir və Kəşmirin taleyini xalqın öz müqəddəratına buraxmağa çağırır. Pakistan 1947-ci ildən bəri davam edən bu münaqişənin BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr və beynəlxalq hüquq norma və prinsiplərinə uyğun şəkildə həllinə çağırır. Hindistan tərəfi isə Kəşmir məsələsinin beynəlxalq müstəviyə qaldırılmasının əleyhinə çıxaraq, Pakistanın onun daxili işinə qarışdığını bəyan edir.

Pakistan ordusunun Kəşmirdə yerləşdiyi, eləcə də, Hindistanın nəzarətində olan Kəşmirdə terror hadisələrinin törədilməsinin arxasında Pakistanın durduğuna dair Dehlinin iddialarını İslamabad təkzib edir və onun yalnız Azad Kəşmirə maddi və mənəvi dəstək verdiyini bəyan edir.

Pakistan əhalisinin Kəşmir münaqişəsinin həllinə baxışı Kəşmir xalqının acınacaqlı vəziyyətinə canıyananlıqla yanaşan bir çox pakistanlı orada insan haqlarının pozulmasına öz narahatçılığını bildirir və oradakı insanların öz müqəddəratını təyin etməsi məsələsinə dəstək verir. İnsan haqları müdafiəçilərinin bildirdiyinə görə, Kəşmir xalqı öz müqəddəratını təyin etmə yolundakı mübarizədə çox sayda itki verdiyi üçün onlar münaqişənin həlli zamanı tərəf kimi rəsmən qəbul edilməlidir. Kəşmir xalqının iştirakı olmadan Hindistan və Pakistanın münaqişənin tənzimlənməsinə dair danışıqlar aparmağa haqqı olmadığını bildirən İnsan haqları müdafiəçiləri beynəlxalq ictimaiyyəti Kəşmir xalqına öz müqəddəratını təyin etmək haqqının verilməsinə yardım etməyə səsləyirlər.

Pakistanın daxili siyasətində Kəşmir münaqişəsi də daxil olmaqla bir çox məsələlərdə əhalinin rəyi ciddi nəzərə alınır. Hökumətin Kəşmirə dair siyasəti xalq tərəfindən rəğbətlə və etirazla qarşılandığı vaxtlara tez-tez rast gəlmək olar. Ümumiyyətlə, çox millətli Pakistanda əhalinin hər hansı bir məsələyə münasibəti əyalətdən-əyalətə, hətta rayondan-rayona dəyişir. Misal üçün Pakistanın Kəşmirə dair siyasəti əsasən mərkəzi Pəncab əyalətində möhkəm dəstəklənir. Bu da Pəncabın yerləşdiyi coğrafi mövqeyi, Kəşmir xalqı ilə olan tarixi, mədəni və sosial bağları ilə

izah olunur. Pakistan əhalisinin təxminən 57 faizini təşkil edən, ölkənin ən iri əyaləti olan, siyasi xadimləri və hərbiçiləri yetişdirən Pəncab əyaləti Pakistanın və Hindistanın nəzarətində olan Kəşmirlə sərhəddə yerləşir. Pəncablılarla kəşmirliləri ailəvi bağlar bir-birinə daha çox yaxınlaşdırır. 1947-ci ildə Cammu və Kəşmirdən qovulmuş əhali Pancabda yerləşmiş və bəziləri hərbi, hökumət, biznes və digər sahələrdə mühüm vəzifələrə qədər yüksəlmişlər. Lakin pəncablıların arasında da Kəşmir məsələsində müxtəlif düşünənlər vardır. Coğrafi cəhətdən Kəşmirdən aralıda yerləşən və hərbiçilərin az təmsil olunduğu Pəncabın Cənub rayonlarında münaqişə tərəfdarları azdır. Kəşmirlilərə dəstək əsasən Pakistan ordusunun çox təmsil olunduğu Pəncabın Şimal rayonlarından gəlir. Pəncab əyalətinin elit təbəqəsi digər əyalətlərdəki eyni təbəqə ilə müqayisədə də Kəşmir məsələsində daha kəskin mövqe nümayiş etdirir. Pəncablıların qənaətinə görə Kəşmir münaqişəsi Pakistanın milli maraqlarından olduğu üçün heç bir halda bu məsələdə güzəştə getmək olmaz. Lakin, qeyd olunmalıdır ki, elit təbəqədə də hərbiçilərlə mülki şəxslər arasında fikir ayrılığı mövcuddur. Pəncablı və etnik cəhətdən kəşmirli olan Baş nazir N.Şərifin 1999-cu ildə Lahor şəhərində Hindistanın Baş naziri ilə danışıqlar aparmasını əhali müsbət qarşılamışdı. Bunun əksinə olaraq Pakistan hərbiçiləri bu danışıqlara kəskin etirazlarını bildirmiş və mülki hökumətlə münasibətləri uçuruma sürükləmişdi. Beləki, həmin ilin oktyabrında Hərbi Qərargahın rəisi P.Müşərrəf Baş nazir N.Şərifi hakimiyyətdən devirmişdi. Bəzi mütəxəssislər Pakistanda baş vermiş hərbi çevrilişi N.Şərifin Kəşmir məsələsində hərbiçilərin xeyir duası olmadan müəyyən güzəştlərə getməsinə razılıq verməsi ilə izah edirlər.

Pakistanın kiçik əyalətləri, xüsusilə Sind və Bəlucistan Kəşmirdən məsafəcən və mədəni bağlılıq cəhətdən uzaq düşdüyü üçün buradakı insanların münaqişənin çözülməsinə baxışları pəncablılardan fərqlidir. Onlar Kəşmirə mənəvi məsələ kimi baxmırlar. Bir çox sindli Kəşmir münaqişəsinin çözülməməsinə baxmayaraq, Hindistanla normal münasibətlərin qurulmasına tərəfdardır. Sind əyalətinin kütləvi informasiya vasitələrinin apardığı sorğu nəticəsində əyalətdə Dehli ilə şərt qoyulmadan əlaqələrin yenidən qurulmasının tərəfdarları daha çox olduğu məlum olmuşdu. Sindlilərin fikrincə bölgədə sabitliyin, iqtisadi inkişafın qurulması üçün dini fanatik ünsürlərin fəaliyyətinə son qoyulmalı və iki ölkə arasında dialoq davam etdirilməlidir.

Sərvətləri istismar olunduğu və siyasi cəhətdən söz sahibi olan hərbi qüvvələrdə əsas postları tutmadıqları üçün mərkəzi hökumətdən incik düşmüş sind, bəluc və puştunlar Kəşmir münaqişəsinin sülh yolu ilə həllinə tərəfdardır. Onlar, Pakistanla Hindistan arasında davam edən düşmənçilik nəticəsində iqtisadi cəhətdən zəifləməklə barışmır və əsasən pəncablıların təmsil olunduğu hökumətin hərbiyə ayırdığı xərclərin artırılmasına lüzum görmürlər. Puştun liderlərindən birinin bildirdiyinə görə, Pakistan yarandığı günündən bəri əhalinin ağır və

dözülməz çətinliklərlə üzləşməsinə, kasıbçılıq içində yaşamasına baxmayaraq, hökumət Kəşmiri geri almaq adı ilə hərbiyə milyardlarla dollar xərcləyib.

Kiçik əyalətlərdəki siyasi liderlər də hərbi rejimin ölkə daxilində hökmranlıq etməsi üçün Hindistandan gələn təhlükəni və Kəşmir məsələsini istifadə etməsinə etiraz edirlər. Puştunların partiyası olan Milli Xalq Partiyasının (Awami National Party) rəhbərinin bildirdiyinə görə hərbiçilər ölkəyə hökmranlıq etmək üçün Kəşmir münaqişəsini gündəmdə saxlayır. Pakistanda tənqidçilər siyasi partiyaları bir çox məsələlərdə, xüsusilə Kəşmir məsələsində hərbi rejimə dəstək verdiyinə görə qınayır. Qeyd olunmalıdır ki, Pakistanda siyasi partiyaların hakimiyyətə gəlməsi üçün hərbiçilər mütləq xeyir-dua verməlidir. Məhz buna görə də, partiya rəhbərləri hərbiçilərlə olduqca ehtiyatlı davranır və onların nifrətindən uzaq durmağa çalışır. Məhz buna görə də bəlkə də hərbi rejimi açıq tənqid edən siyasi partiyaların sayı olduqca azdır. Partiyaların arasında da təbii olaraq ideoloji cəhətdən, bəzən də daxili və xarici siyasət məsələlərində fikir ayrılığı mövcuddur. Bu da bir həqiqətdir ki, Pakistanın bütün dünyəvi partiyaları Kəşmir məsələsinin tənzimlənməsində ölkənin maraqlarına daha çox uyğun olan sülh yolunu tuturlar. Xatırladaq ki, Pakistanda sivil hökumətin hakimiyyəti zamanı Hindistanla münasibətlərin normallaşması kursu götürülmüşdü.

**Əyalət Partiyaları**

Hərbi hökumətin daxili və xarici siyasətinə ciddi şəkildə etiraz edən Pakistanın Bəlucistan, Sind, Şimal Qərb Sərhəd, eləcə də Pəncab əyalətlərində fəaliyyət göstərən dünyəvi və etnik partiyalar hökumətin Kəşmirə dair yürütdüyü siyasəti kəskin tənqid edir və Hindistanla sülh yaradılmasına çağırışlar edir. Hindistanla mübahisəli məsələnin güc vasitəsi ilə həllinə çalışan hərbiçilərin siyasətini tənqid edən Şimal Qərb Sərhəd Əyalətində yerləşən və əsasən puştunlardan ibarət olan Milli Xalq Partiyasının lideri İsfəndiyar Vəli Xan bildirir: «Biz hər iki hökuməti Simla Müqaviləsini rəhbər tutaraq danışıq masası arxasında münaqişəni həll etməyə çağırırıq. Bu bir siyasi məsələdir və tarixdə heç vaxt siyasi məsələlər güc yolu ilə həll olunmayıb. 1989-cu ildə mübarizə hərəkatının başlanması yalnız Pakistanın imicinə zərbə vurub. Biz Kəşmirdə fəaliyyət göstərən kənar qüvvələrin, cihad hərəkatının qarşısını almalıyıq və hesab edirəm ki, bunu etmək üçün bizdə yetərincə imkan vardır». *(2003-cü ilin iyununda Beynəlxalq Böhran Qrupu araşdırma mərkəzinə verdiyi müsahibədən)*

Qeyd olunduğu kimi, Pakistanın regionlarındakı siyasi partiyaları Hindistanla münasibətlərin yenidən qurulmasına olduqca mötədil mövqe nümayiş etdirirlər. Bəlucistan əyalətində yerləşən Puştun Milli Xalq Partiyasının lideri Mahmud Xan Açakzay partiyasının Kəşmir münaqişəsini

danışıqlar yolu ilə həll olunmasına tərəfdar olduğunu, lakin Cənubi Asiya regionunda münaqişələrin dialoq yolu ilə tənzimlənmə ənənəsinin yaranmadığını təəssüflə bildirir

**1. Pakistanın Xalq Partiyası (PXP)**

Ölkənin digər regional və dünyəvi partiyalarının Hindistanla münasibətə və Kəşmirə baxışından fərqli olaraq sol mərkəzçi Pakistan Xalq Partiyası (Pakistan People Party) daha aldadıcı sülhpərvər mövqeyə malikdir. PXP hakimiyyətdə olarkən hərbiçilərin Kəşmirdə fəaliyyəti ilə bağlı məsələlərdə olduqca ehtiyatlı davranır, müxalifətdə olarkən isə daha çox sülhsevər kimi görünməyə çalışır. Misal üçün 1989-cu ildə məhz Pakistan Xalq Partiyasının hakimiyyəti dövründə Kəşmirdə mübarizə hərəkatı yaradılmış və uzun zamandan bəri iki ölkə arasında sükuta son qoyulmuşdu. Lakin müxalifətdə olarkən 1999-cu ildə Karqil böhranı zamanı PXP Nəvaz Şərif hökumətinin siyasətini tənqid etmiş və bölgədə sülhün yaradılmasının zəruriliyini vurğulamışdı.

**2. Pakistan Müsəlman Liqası (Nəvaz)**

Özlərini Pakistanın banisinin partiyası olan Pakistan Müsəlman Liqasının davamçıları adlandıran bugünkü Pakistan Müsəlman Liqası (Nəvaz) (PML-N) PXP-dan fərqli olaraq sağ-mərkəzçi və Kəşmir məsələsinə daha çox diqqət yetirən partiyadır. Əsasən pəncablılardan ibarət olan PML-N özünün Kəşmir siyasətində hərbiçilərin dəstəyini qazanmağa çalışır. PML-N Hindistanla münasibətlərdə, Kəşmir məsələsində barışdırıcı mövqe nümayiş etdirməkdə davam edir. PML-in prezidenti Şahbaz Şərif bildirmişdi: »Pakistan-Hindistan sülhə nail olmayaraq bir milyarddan çox insanın gələcəyini təhlükə altına alır. Kəşmirlə bağlı bütün problemləri sülh yolu ilə həll etməliyik, tarixdə Kəşmirdə daha çox qanlı və həlli çətin problemlər çözülmüşdü, biz onlardan örnək almalıyıq» *(Ş.Şərifin Pakistanda nəşr olunan «The Nation» qəzetinə verdiyi müsahibədən)*

**3.Dini partiyalar**

Pakistanın siyasi həyatında qalmaq üçün ordu ilə əməkdaşlıq edən dini partiyalar Kəşmir siyasətində ordunun ən etibarlı tərəfdaşıdır. Camaət-e-İslami və Cəmiət Uləma İslam kimi dini partiyalar Kəşmirdə döyüşlərdə iştirakına görə ordudan siyasi dəstək və maddi qazanc əldə etmişdi. Kəşmirdəki üsyan hərəkatı dini partiyalara özlərinin siyasi gücünü möhkəmləndirməyə və iqtisadi durumunu inkişaf etdirməyə kömək etmişdi. Bunun üçün də Pakistan hərbiçiləri ilə yanaşı bu partiyalar da Kəşmirdə münaqişənin davam etdirilməsinə maraqlıdır.

Qeyd olunmalıdır ki, dini partiyaların hərbiçilərlə Kəşmir məsələsində müttəfiqlik etməsinə əsas səbəblərdən biri onların siyasi səhnədə qalması, digəri isə bir müsəlman kimi Kəşmirdəki cihad hərəkatına dəstək vermələridir. Göründüyü kimi onlar dünyəvi partiyalardan fərqli olaraq Kəşmir

məsələsində olduqca radikal mövqe nümayiş etdirirlər. Dini partiyaların orduya yaxınlığını yüksək qiymətləndirən hərbiçilər 2002-ci ildə onların Pakistanın Milli Assambleyasında kifayət qədər yerə sahib olmasına gətirib çıxarmışdı. Ordu ilə dini partiyaların yaxınlaşması əsasən hərbiçilərlə ölkənin aparıcı dünyəvi partiyaları arasında 1999-cu ildən bəri yaranmış sərinlikdən sonra başlamışdı. 2002-ci ilin oktyabrında Pakistanın qanunverici orqanına keçirilən ümumxalq seçkiləri zamanı ölkənin altı əsas dini partiyası Müttəhidə Məclise Amal (MMA) adı altında alyans yaratmış və seçkilərdə Pakistanın Milli Assambleyasına təxminən 70 deputatla qatılmağa nail olmuşdu. Müttəhidə Məclise Amal Şimal Sərhəd Qərb Əyalətində təkbaşına, Bəlucistan əyalətində isə P.Müşərrəf tərəfdarı olan Pakistan Müsəlman Liqası (Qaydi Əzəm qanadı) ilə koalisiya gedərək hökumətə gəlmişdi. Hərbiçilər kimi dini partiyalar da hesab edir ki, Kəşmir münaqişəsinin ədalətli həlli üçün mütləq plebisit keçirilməli və Pakistanın dünyəvi partiyaları ilə Hindistan arasında imzalanmış Simla müqaviləsi, eləcə də Lahor Bəyannaməsi Kəşmir münaqişəsinin çözülməsini təmin edən əsas sənəd sayılmamalıdır. Mollarla hərbiçilər həmçinin Kəşmirdəki silahlı müqavimət hərəkatını Hindistanın Kəşmirlə bağlı sərt mövqeyinə uyğun cavab olduğuna inanırlar. Camaət-e-İslami partiyası Kəşmirdəki silahlı mübarizənin əvvəl-axır Hindistan tərəfini konstruktiv mövqe tutmasına məcbur edəcəyinə inanır və oradakı müsəlman qardaşlarının azadlığı üçün bundan sonra da fəal iş görəcəyini bəyan edir.

**Pakistanda mülki hökumətlər dövrü**

Pakistanın demokratik şəkildə seçilən hökumətləri dövründə ölkənin dünyəvi partiyaları münaqişənin sülh yolu ilə həll olunmasına səy göstərmişlər. Qeyd olunmalıdır ki, Pakistan yarandığı gündən bəri ölkəni əsasən hərbçilər idarə etmişdi. Məhz buna görə də mülki hökumətin idarəçiliyi dövrü demokratik adlandırılır. 1971-ci ildə Hindistanla müharibədə məğlub olan Pakistanın o vaxtkı Baş naziri və PXP-nın rəhbəri Zülfüqar Əli Bhutto Hindistanla Simla müqaviləsini imzalamışdı. Doğrudur müqavilədə Kəşmir məsələsinin həlli bir dəfəlik kənara qoyulmasa da, qeyd olunmalıdır ki, Kəşmir ətrafında danışıqlar müqavilənin əsas predmetlərindən olmamışdı. Simlada tərəflər iki ölkə arasında Nəzarət Xəttinin toxunulmazlığına dair razılıq əldə etmişlər. 1988-ci ildə Ziya-ul-Zəqqin təyyarə qəzasında həlak olmasından və mülki hökumətin yenidən hakimiyyətə gəlişindən sonra Hindistanla sülh əlaqələrinin qurulması kursu götürülmüşdü.

1989-1990-cı illərdə özünün ilk hökuməti dövründə Baş nazir Binəzir Bhutto Hindistanda Sixlərin mübarizə hərəkatına dəstək verməyi dayandırmaqla, eləcə də nüvə qurğularının siyahısının mübadiləsini aparmaqla iki ölkə arasında etimad tədbirləri yaratmış və Raciv Qandi Hökuməti ilə münasibətləri normallaşdırmağa cəhd göstərmişdi. Lakin iki ölkə münasibətlərində, xüsusilə Kəşmir məsələsində get-gedə müşahidə olunan yaxınlaşma hərbiçilərin qəzəbinə səbəb

olmuşdu. Beləki, B.Bhuttonun hakimiyyəti zamanı hökumətin Hindistanla danışıqlara başladığı dövrdə Pakistanın hərbi qərargah rəisi General Aslam Beqin Kəşmirdə silahlı mübarizlərə yardım etməsi Bhutto hökumətinin iflasına gətirib çıxarmışdı. Qeyd olunmalıdır ki, 1990-cı ildə Pakistanda hərbiçilərin təzyiqi ilə B.Bhutto istefa vermişdi.

N.Şərif isə ikinci dəfə Pakistanın Baş naziri olarkən daha irəliyə gedərək 1999-cu ilin fevralında Hindistanlı həmkarı Atal Bihari Vacpayi ilə Lahor bəyannaməsini qəbul etmişdi. Bəyannaməyə əsasən, hər iki ölkə Simla Müqaviləsinin şərtlərinə əməl etməli və bir-birlərinin daxili işlərinə qarışmamalı idilər. Tərəflər həmçinin hər iki xalqın milli maraqlarına cavab verən bölgədə sülhün və təhlükəsizliyin bərpa olunmasına, Cammu və Kəşmir də daxil olmaqla bütün mübahisəli məsələlərin danışıqlar yolu ilə həllinə tərəfdar olduqlarını bəyan etmişlər. Bunun üçün də hökumət başçıları gələcəkdə bütün mübahisəli məsələlərin həlli istiqamətində səylərini artıracaqlarına dair razılıq əldə etmişlər. Lakin qeyd olunduğu kimi N.Şərifin də aqibəti B.Bhuttonun aqibətinə bənzər olmuşdu. Beləki, Lahor danışıqlarından cəmi bir neçə ay sonra Pakistan hərbiçilərinin Karqil münaqişəsini başlaması iki ölkə arasında böhrana səbəb olmuş və elə həmin ilin oktyabrında N.Şərif hökuməti hərbi çevriliş nəticəsində devrilmişdi. N.Şərifə görə General P.Müşərrəfin Karqil əməliyyatı Baş nazir A.B.Vacpayi ilə Kəşmirlə bağlı əldə olunmuş maksimum güzəştlərə dair razılığı alt-üst etmişdi. O, Hindistanlı həmkarı ilə Kəşmir münaqişəsinin sülh yolu ilə həllinə dair razılıq əldə etdiyini və Vacpayinin Lahora gəlişinin buna sübut olduğunu bildirmişdi. Pakistanın keçmiş xarici işlər katibi Niaz Naikin bildirdiyinə görə Lahorda N.Şəriflə A.B.Vacpayi arasında mətbuatdan kənarda danışıqlar zamanı Çenab çayı sərhəd götürülməklə Cammu və Kəşmirin iki ölkə arasında bölünməsinə dair razılıq əldə olunmuşdu.

**Media və ictimai rəy**

Media orqanları arasında ən geniş yayılanı yayımlanan media orqanıdır. Əhalisinin oxuyub yazmağı bilənlərin sayının az olduğu Pakistanda əhali məlumatı əsasən televiziya və radiodan alır. Lakin bu ölkədə media hökumətin nəzarəti altında olduğundan, məlumatlar birtərəfli verilir. Ölkədəki televiziya və radiolarda Kəşmir barədə xüsusi proqramlar hazırlanır, Hindistanın Cammu və Kəşmirdə insan haqlarını pozması məsələsi mütəmadi olaraq qınanır və Kəşmir döyüşçüləri mücahid-azadlıq mübarizləri kimi qələmə verilir. 2000-ci illərin əvvəllərində yaradılmış bir sıra özəl televiziya və radio şirkətləri öz verilişlərində Kəşmir haqqında xüsusi proqramlara yer verməsələr də, hökumətin Kəşmirə dair siyasətini təbliğ edirlər. Bir sözlə hökumətin, xüsusilə hərbiçilərin izni olmadan Kəşmir barəsində hərbiçilərin apardığı siyasət müzakirə oluna bilməz.

Qeyd olunmalıdır ki, Pakistanın mətbuat orqanlarında da eyni vəziyyətlə rastlaşmaq mümkündür. Hökumətin yardımından asılı olan mətbuat orqanları dövlətin Kəşmirə dair siyasətini dəstəkləməyə məcburdur. Pakistanın Əks Kəşfiyyat İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsi, ölkənin İnformasiya və Yayım Nazirliyi tərəfindən ciddi nəzarətdə olan mətbuat orqanları bəzən xəbərlərin yerləşdirilməsi məsələsində də müstəqil qərar verə bilmirlər. İstər ingilis, istərsə də urdu dilli mətbuat orqanları Kəşmirlə bağlı məlumatları yalnız hökumətin nəzarətində olan Assoşeyted Press Pakistan və Kəşmir Media Xidmətindən alır. Mətbuatda anti-Hindistan rəyi formalaşdırmaqla, Pakistan hökuməti, xüsusilə hərbiçilər dünya ictimaiyyəti qarşısında Kəşmirə dair radikal mövqe tutmasına haqq qazandırmağa çalışır. Lakin hökumətin ciddi şəkildə nəzarətinə baxmayaraq, ölkə mətbuatında bəzi məsələlərə tənqidi mövqe ilə yanaşan ayrı-ayrı jurnalistlərə rast gəlmək mümkündür. Doğrudur, bunu urdu dilli mətbuat orqanlarına aid etmək çətindir. Çünki, ölkədə əsasən urdu dili işləndiyi üçün bu dildə nəşr olunan qəzet və jurnallar daha çox oxunaqlıdır. Məhz buna görə də hərbiçilər dövlətin Kəşmir siyasətinə dair hər hansı bir tənqidi məqalənin urdu dilli mətbuatda dərc olunmasına imkan vermirlər. Hökumətin siyasətini tənqid edən jurnalistlərə isə ingilis dilli mətbuatda rast gəlinir. Pakistanda aylıq nəşr olunan «Herald» və «Nyuzlayn» jurnalları dövlətin Kəşmirə dair siyasətini tənqid edən aparıcı mətbuat orqanlarındandır. Adı çəkilən jurnallar Pakistanın inkişafı və əhalinin tərəqqisi üçün Kəşmirdə terrorçuluğa son qoyulmasının, Hindistanla əlaqələrin bərpa edilməsinin zəruriliyini oxuculara aşılayır. Təbii ki, bu yöndə təbliğat hərbiçilərin mənafeyinə toxunur və bir çox hallarda mətbuat orqanları və jurnalistlər müxtəlif vaxtlarda təqibə məruz qalırlar.

Maraqlıdır ki, hərbiçilərin Kəşmirə dair siyasətini az sayda jurnalistlərlə yanaşı, bir sıra Qeyri Hökumət Təşkilatları, eləcə də bəzi parlamentarilər, ölkənin tanınmış ziyalılarından da tənqid edənlər tapılır. Onlar Pakistan hərbiçilərini Kəşmir məsələsini istifadə edərək ölkədə anti-Hindistan təbliğatını aparmaqla əhalini müharibə təhlükəsi ilə hədələyərək hərbi diktatura rejimini gücləndirməkdə, demokratiyanı boğmaqda günahlandırırlar.

**Cammu və Kəşmirin Pakistan üçün əhəmiyyəti**

Kəşmirin Pakistanın ərazisinə birləşdirilməsinin əsas əhəmiyyəti odur ki, 1947-ci ildə dini amillər üzərində qurulmuş və Pakistanın banisi Məhəmməd Əli Cinnahın "İki millət" nəzəriyyəsi doğru olduğu sübut edir. O vaxtlar M.Ə.Cinnah hinduslarla müsəlmanların ayrı millət olduğunu və bir daha bərabər yaşaya bilməyəcəkləri səsləndirmişdi. Prinsip etibarı ilə Hindistan tərəfi də müsəlmanların sıx yaşadıqları ərazilərin Pakistana birləşdirilməsinə razılıq vermişdi. Lakin Kəşmir məsələsində Hindistan hökumətinin eyni mövqedə olmaması o vaxtdan bəri bu bölgənin münaqişə ocağına çevirmişdi.

Kəşmirin Hindistan üçün olduğu kimi Pakistan üçün də strateji əhəmiyyət daşıması bu bölgəni daha da cəlbedici edir. Pakistan Kəşmiri itirməklə bir tərəfdən Hindistana yüksək mövqe vermiş olur, digər tərəfdən də Sovet İttifaqı ilə Hindistanın sərhədləri yaxınlaşmış olardı. Ən əsası isə Pakistanın ən iri əyaləti olan Pəncabın su ilə təmin edilməsini şübhə altına salırdı. Qeyd olunmalıdır ki, Pakistan əhalisi əsasən kənd təsərrüfatı sahəsi ilə məşğul olur və bu sahə üçün əhəmiyyətli olan suyu Kəşmir ərazisindən Pakistana axan İndus, Celum və Çenab çaylarından götürür. Bunun üçün də Kəşmirə nəzarəti tam itirməklə çayların da ərazisinə axıdılmasını itirməsindən ehtiyat edən Pakistan hər vəchlə malik olduğu imkanları əldən vermək istəmir.

**Pakistan və Azad Kəşmir**

1947-ci ildə Pakistanın müstəqilliyindən və birinci Pakistan-Hindistan müharibəsindən sonra Şimal Bölgəsi adlanan ərazidə yerləşən Qilqit, Baltistan, Skardu və Hunza şəhərləri Pakistanın nəzarətinə keçdi, Pakistanın nəzarətində qalan Azad Kəşmir ərazisi isə “müstəqil” qaldı. Kəşmir Ovalığının digər şəhərləri olan Punç və Cammu ilə müqayisədə Azad Kəşmirdə əsasən pəncab dilli və milliyyətcə Hindistanın nəzarətində olan Kəşmirdəki əhalidən fərqli əhali yaşayır.

Pakistanla Azad Kəşmir arasındakı 50 ildən çox davam edən münasibətlər enişli yoxuşlu olmuşdur. Buna da iki tərəfin bəzən toqquşan maraqları və fikir ayrılıqları səbəb olmuşdur. İlk növbədə Pakistanın Kəşmirlə bağlı mövqeyinə nəzər salaq. Pakistan Kəşmiri mübahisəli ərazi adlandırır və bu mübahisənin yalnız Kəşmir xalqının referendum keçirməsindən sonra aradan qaldırılacağına inanır. Bu mövqedən irəli gələrək Pakistan Hindistanın nəzarətində olan Kəşmirin Hindistana və özünün nəzarət etdiyi Kəşmir ərazisinin də Pakistana birləşdirilməsinə qarşı çıxır. Çünki, Azad Kəşmirin Pakistana birləşdirilməsi ikiyə bölünmüş Kəşmir arasında Nəzarət Xəttinin beynəlxalq sərhəd kimi tanınması deməkdir. Yəni Pakistan tərəfinin Kəşmirin bugünkü statusu ilə razılaşaraq Kəşmirin bölünməsinə tərəfdar olduğunu bildirməsidir. Bəzi təhlilçilərin fikrincə əslində, bu gün Kəşmir məsələsinin həllinin ən optimal variantı Kəşmirin hazırkı sərhədlərini beynəlxalq sərhəd kimi qəbul etməkdir. Lakin bu məsələ dəfələrlə beynəlxalq səviyyədə qaldırılsa da, Pakistan tərəfi buna kəskin etirazını bildirmişdi. Bunun üçün də Pakistan hökuməti kağız üzərində olsa da, bu gün Azad Kəşmirin müstəqilliyini saxlamağa çalışır. Qeyd olunmalıdır ki, Azad Kəşmirin öz konstitusiyası, Prezidenti, baş naziri, qanunverici assambleyası, milli bayrağı, məhkəmə sistemi, paytaxtı və müstəqil dövlətin digər atributları vardır. Lakin onun büdcəsi Pakistan tərəfindən maliyyələşir və orada pul vahidi kimi Pakistan rupisi istifadə olunur.

Əslində Azad Kəşmirin bugünkü statusu tam muxtariyyətçilikdən uzaqdır. Kəşmirin iqtisadiyyatı zəif olduğuna görə, demək mümkündürsə, heç olmadığından Pakistandan asılı vəziyyətdədir. Misal üçün 1989-cu ildə Kəşmirin dövlət büdcəsinin 80 faizi Pakistan tərəfindən ödənilmişdi.

Maraqlısı budur ki, Pakistan ayırdığı maliyyənin Kəşmirdə hansı sahəyə nə qədər xərclənəcəyini özü müəyyənləşdirir. Demək olar ki, indi də Kəşmirin təhsilin, kənd təsərrüfatının və digər infrastrukturunun inkişafına büdcədən ayırdığı hissəni Pakistan tərəfi ödəyir. Ona görə də Pakistanda gedən proseslər Kəşmirin də siyasi həyatına öz təsirini göstərir. Misal üçün Kəşmirin assambleyasının 48 üzvündən 40 seçki yolu ilə 8 isə Pakistan hökuməti tərəfindən təyin olunur, daha sonra 14 nəfərdən ibarət Dövlət Şurasının Pakistan Prezidenti sədrlik edir və şura üzvlərinin yarısını da rəsmi İslamabad təyin edir. Pakistanda gedən proseslərin dərhal Kəşmirə sirayət etməsi Azad Kəşmirin müstəqil siyasət yürüdə bilməməsini bir daha sübut edir. Pakistanda gedən proseslərin Kəşmirə təsir etməsi məsələsi əsasən Pakistan Prezidenti Əyyub Xan və Ziya-ul-Həqq dövrlərində bu bağlılıq daha çox olmuşdu. Birincinin prezidentliyi dövründə ilkin demokratik sistem Pakistanla yanaşı Kəşmirdə də tətbiq olunmuşdu. Daha sonra Z.Həqq 1977-ci ildə Pakistanın o vaxtkı baş naziri Zülfüqar Əli Bhuttonu devirdikdən sonra Kəşmirin Prezidenti, Z.Ə.Bhuttonun müttəfiqi, Azad Kəşmir Müsəlman Konfransının lideri Məhəmməd İbrahimi istefa verməyə məcbur etmiş və onun yerinə özünün etibar etdiyi Məhəmməd Həyat Xanı təyin etmişdi. Z.Həqqin göstərişi ilə Pakistanda tətbiq olunan komendant saatı Kəşmirə də şamil edilmişdi.

Pakistanın siyasi partiyaları da Kəşmirdə fəal rol oynayırlar. Misal üçün Bütün Cammu və Kəşmir Müsəlman Konfransı Partiyası Pakistanın ən böyük partiyalarından olan, hələ Hindistanın tərkibində olarkən 1906-cı ildə müsəlmanların təşəbbüsü ilə yaradılan və dəfələrlə hakimiyyətə gələn Müsəlman Liqasının bir filialıdır. Digər partiyaları da misal gətirmək olar, lakin əsasını Z.Ə.Bhuttonun qoyduğu Pakistan Xalq Partiyası 1974-cü ildə Kəşmirdə öz şöbəsini eyni ad altında yaratmışdı.

1988-ci ildə Z.Həqqin təyyarə qəzasında həlak olmasından sonra Pakistanda demokratik seçkilər keçirildi və İslamabad yenidən mülki idarəçiliyi özünə qaytardı. Elə həmin il Pakistan Xalq Partiyasının rəhbəri, Z.Ə.Bhuttonun qızı Binəzir Bhutto seçkilərdə qalib gəldikdən sonra Kəşmirdə də onun partiyası hakimiyyətə gəlmişdi. Məhz bu xanımın dövründə Kəşmirn məsələsi yenidən gündəmə gəlmişdi. 1989-cu ildə Kəşmir Azadlıq Hərəkatı yaranmışdı. Qeyd olunmalıdır ki, Kəşmir məsələsi atəşkəs elan olunduqdan sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kimi o qədər də dünya ictimaiyyətinin diqqət mərkəzində deyildi. Lakin adı çəkilən hərəkatın yaranmasından sonra bu məsələ yenidən diqqət mərkəzinə gəlmişdi.

1990-cı ildə B.Bhutto hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra onun tərəfdarı Kəşmirin Baş naziri Raca Mumtaz Rator da Kəşmirdə yeni yaradılmış və Pakistanın o vaxtkı rəhbərliyi ilə sıx münasibətlərdə olan İslam Demokratik Alyansının və Kəşmirin Prezidenti Sərdar Əhməd

Qəyyum Xanın təzyiqi ilə istefa verməli olmuşdu. Bundan sonra Kəşmirdə yeni seçkilər keçirildi və Müsəlman Konfransı partiyası hakimiyyətə gəlmişdi.

Pakistanın Kəşmirə bu qədər təsir etmək imkanın olmasına baxmayaraq, hələ də aralarında olan Şimal İnzibati Ərazi ilə bağlı məsələnin həll olunmaması unudulmayıbdır. Qeyd olunduğu kimi, 1947-ci ildə Pakistanın müstəqilliyindən və birinci Pakistan-Hindistan müharibəsindən sonra Kəşmir hökumətinin Şimal Bölgəsinə nəzarət etmək imkanı olmadığı üçün həmin ərazidə yerləşən Qilqit, Baltistan, Skardu və Hunza şəhərləri Pakistanın nəzarətinə keçmişdi. O vaxtlar Müzəffərəbad hökuməti belə hesab edirdi ki, Pakistanın adı çəkilən bölgəyə nəzarət etməsi müvəqqəti xarakter daşıyır və Kəşmir hökuməti güclənəndən sonra İslamabad Şimal bölgəsinin yenidən Kəşmirin tərkibinə qoşulmasına imkan verəcəkdir. Lakin Pakistan nəinki bunu etmiş, hətta tədricən adı çəkilən bölgənin özünə birləşdirilməsi siyasətini yürütməyə başlamışdı. 1972-ci ildə Z.Ə.Bhutto Qilqit və Baltistanı sonra isə 1974-cü ildə Hunzanı Şimal Ərazilərinin tərkibinə qataraq rəsmi şəkildə federal administrasiyanı nəzarətinə keçirmişdi. Z.Ə.Buhuttodan sonra hakimiyyətə gələn Z.Həqq Şimal ərazilərin Pakistana inteqrasiya edilməsi siyasətini davam etdirmişdi. 1977-ci ildə Pakistanda baş vermiş hərbi çevrilişdən sonra yaranmış komendant saatı Z.Həqqin əmri ilə Şimal ərazilərində də tətbiq olunmuşdu. 1982-ci ildə Federal Şura Məclisinə Pakistanın digər bölgələrindən seçildiyi kimi, bu bölgədən də üç nəfər seçilmişdi. Elə həmin il Z.Həqq Qilqit, Hunza və Skardunun Pakistanın ayrılmaz hissəsi olduğunu bəyan etmişdi.

Təbii ki, Pakistanın bu addımı Kəşmir tərəfindən narazılıqla qarşılandı. 1992-ci ildə Kəşmirin Ali Məhkəməsi adı çəkilən bölgənin Pakistana birləşdirilməsinin qeyri qanuni adlandırmış və bu şəhərlərin Kəşmiri ayrılmaz hissəsi olduğunu bəyan etmişdi. Ali Məhkəmənin qəbul etdiyi bu qərar Kəşmir hökumətinin tam şəkildə İslamabadın diktəsi ilə hərəkət etdiyi barədə bir çox mütəxəssislərin fikrini təkzib edir.

Kəşmirlə Pakistanın mövqeyi təkcə bu məsələdə ayrılmır. Belə ki, tarixdə Pakistan-Hindistan danışıqları zamanı Kəşmir əhalisinin rəyi soruşulmadan Pakistan tərəfinin bir sıra təklifləri Müzəffərəbad tərəfindən xoş qarşılanmamışdı. Kəşmir rəhbərliyi dəfələrlə bəyan edib ki, Pakistan tərəfi heç vaxt Kəşmiri özünün bir hissəsi hesab etməməli və Hindistanla danışıqlar zamanı onların rəyi mütləq nəzərə alınmalıdır. Hətta Kəşmirin bəzi rəhbərləri Pakistandan tam şəkildə asılı olmaqlarına baxmayaraq, zaman-zaman rəsmi İslamabadın yürütdüyü siyasətə kəskin şəkildə çıxmağı belə cürət edirlər. Onlar Azəd Kəşmirin Cammu və Kəşmirin bir hissəsi olduğunu və lazım olanda da Pakistanla deyil, Hindistanın nəzarətindəki Kəşmirlə birləşəcəyini bildirirlər. Bəzi Kəşmir siyasiləri isə Hindistan-Pakistan arasında yaradılmış və hər iki Kəşmiri ayıran Nəzarət Xəttini keçərək digər Kəşmirə getməklə Pakistan tərəfini qıcıqlandırmışlar. Onlar bu hərəkətlərini Kəşmirin bir olacağı və Pakistana birləşməyəcəyi ilə izah etmişlər.

Ümumiyyətlə, Kəşmirin gələcək taleyi ilə bağlı demək olar ki,  Kəşmir xalqı arasında fikir birliyi mövcud deyil. Əhalinin bir hissəsi Kəşmirin müstəqil dövlət olmasına, digəri isə Pakistana birləşdirilməsinə üstünlük verir. Təbii ki, bütün bunların Kəşmir məsələsinin çözülməsindən sonrakı işlər olduğunu hər iki tərəf yaxşı anlayır. Kənardan baxdıqda belə qənaətə gəlmək olar ki, ikiyə bölünmüş Kəşmirin bir hissəsinə Pakistan digərinə Hindistan nəzarət edir və onlar bu ərazilərə özününkü kimi baxırlar. Əslində bunu yalnız Hindistana şamil etmək olar.  Beləki, Hindistan tərəfinin qənaətinə görə 1947-ci ildə Kəşmir Maharacası Kəşmirin Hindistana birləşdirilməsi haqqında akt imzaladığına görə Kəşmir onun ərazisi hesab olunur, lakin Pakistan Kəşmirin bir hissəsini işğal edib. Ona görə də Dehli adı çəkilən aktı əsas tutaraq Kəşmiri özünün ayrılmaz hissəsi hesab edir. Pakistan isə Kəşmirin Hindistan tərəfindən işğal olunduğunu bildirir və nəzarətində olan Kəşmirin özünə birləşdirilməsini qanuni saymır. Əks halda İslamabad Kəşmiri çoxdan özünün beşinci əyaləti elan etmişdi. Pakistanın qənaətinə görə ilk öncə Hindistan tərəfi öz qoşunlarını Cammu və Kəşmirdən çıxarmalı və əhaliyə öz müqəddəratını təyin etmə hüquqi verməlidir. Əslində Pakistanın tələbləri BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə də öz əksini tapıb. Lakin Hindistan hökuməti hələ də bu tələbləri yerinə yetirmək istəmir.

Hər iki Kəşmiri fərqləndirən digər cəhət ondan ibarətdir ki, Hindistanın nəzarətində olan Kəşmir əhalisi Hindistan hökumətinə qarşı mübarizə apararaq, mərkəzi hökumətdən müstəqillik və Kəşmirin digər hissəsi ilə birləşməyi tələb edir. Qeyd olunduğu kimi, Hindistan Pakistandan fərqli olaraq Kəşmiri öz ərazisi hesab etdiyindən Azad Kəşmirdəki kimi orada Prezident, Baş nazir və ya parlament yoxdur. Bir sözlə Cammu və Kəşmir Hindistanın digər əyalətlərindən heçnə ilə seçilmir. Bunun üçün də mərkəzi hökumət ifadəsinin işlədilməsi lazım gəlir. Pakistan isə nəzarətində olan Kəşmir əhalisi tərəfindən törədilən hər hansı bir zorakılıq, etirazlarla qarşılanmır. Amma bu o demək deyil ki, onlar hazırkı mövqelərin-dən razıdır və müstəqillik tələb etmirlər. Misal üçün Pakistanın keçmiş Baş Naziri və Pakistan Xalq Partiyasının rəhbəri B.Bhuttonun iddiasına görə onun partiyasından olan Kəşmirin Baş Naziri Ratorun 1990-cı ildə həbsi məhz Kəşmir xalqının müstəqillik istəməsinin qarşısını almaq məqsədi daşıyırdı.

Kəşmir məsələsi Pakistanın ictimai, siyasi, iqtisadi və digər sahələrinə öz təsirini göstərməkdədir. Pakistan ordusu durmadan silahlanmasını Hindistanla olan gərginliklə, Kəşmir münaqişəsinin hələ də həllini tapmaması ilə izah edir və heç bir maneə olmadan dövlət büdcəsindən istənilən vəsaitin ayrılmasına nail olur. Tarixə nəzər saldıqda isə Kəşmir məsələsində yumşaq mövqe nümayiş etdirdiyinə görə bir neçə dəfə Pakistanın yüksək vəzifəli şəxsləri, hətta Baş naziri istefa verməli olub. Demək olar ki, Kəşmirlə bağlı Pakistanın tutduğu mövqeni ordu müəyyənləşdirir. 1990-cı ildə Pakistanın Baş naziri B.Bhutto İslamabadın Kəşmir

məsələsində tutduğu mövqedən çıxış etmədiyi üçün ordunun təzyiqi ilə istefaya getmişdi. İkinci dəfə hakimiyyətə gələn B.Buhutto bir daha keçmişdə buraxdığı səhvi təkrarlamamışdı. Əksinə Kəşmir məsələsində kəskin mövqe tutmuş və Pakistan üçün strateji əhəmiyyətli olan Əfqanıstana bütövlükdə nəzarət etmək üçün Taliban qüvvələrinin meydana çıxarılmasında böyük rol oynamışdı. Lakin göstərdiyi bu xidmətlər də sonralar Baş naziri xilas etməmişdi. Korrupsiyada günahlandırılan B.Bhutto ordu generallarının tələbi ilə istefa vermişdi. 1999-cu ildə Karqil münaqişəsi zamanı Pakistan ordusunun strateji əhəmiyyətli Hindistan mövqelərini tutmasına baxmayaraq növbəti Baş nazir Nəvaz Şərifin ABŞ-ın təzyiqi ilə ordunun geriyə çəkilməsi əmrini verməsi Pakistan xalqı tərəfindən etirazla qarşılanmışdı. O dövrdə Pakistanın Hərbi Qərargahının rəisi General Pərviz Müşərrəfin Karqil əməliyyatına bir başa özü başçılıq etmişdi. N.Şərifin də geriyə addım atması əməliyyat başçısına xoş gəlməmiş və aralarında soyuqluq yaranmışdı. Elə həmin il P.Müşərrəf tərəfindən N.Şərifin devrilməsinə səbəblərdən birini Karqil münaqişəsində birincinin göstərdiyi yumşaqlıqla bağlayanlar var. Qeyd olunduğu kimi, Pakistanda siyasi qüvvələr seçicilərin səsini almaq üçün və ordu özünün lazımlı olduğunu sübut etmək məqsədilə Hindistanla münasibətlərdə və Kəşmir məsələsində radikal mövqe nümayiş etdirməyə məhkumdur. Artıq, Pakistan xalqı bu qüvvələrin hər hansı birinin Kəşmir məsələsində yumşaqlıq göstərdiyi təqdirdə nə edəcəyini yaxşı bilir.

**Nəticə**

Pakistan tərəfi Hindistanın nəzarətində olan Cammu və Kəşmiri Dehlinin iddia etdiyi kimi Hindistanın ərazisi olduğunu qəbul etmir və bu istiqamətdə hər hansı bir güzəştə getməyə də razılıq vermir. Rəsmi İslamabad adı çəkilən ərazini mübahisəli adlandırır və BMT-nin qəbul etdiyi qətnamələr əsasında Kəşmirdə plebisitin keçirilməsini və xalqın özünün Pakistana və ya Hindistana birləşməsi haqqında qərar verməsini, eləcə də Kəşmirin Hindistana birləşməməsini tələb edir. Pakistan tərəfi əmindir ki, Kəşmir xalqına öz müqəddəratını həll etmək hüquqi versə, onlar Pakistan birləşmək haqqında qərar verəcəklər. Elə məhz bunun üçün də Pakistan tərəfinin məsələni beynəlxalq səviyyəyə qaldırmasına Hindistan etiraz edir.

Maraqlıdır ki, Hindistan və Pakistan Kəşmirin müstəqil olmasına qarşı çıxır. Aydın məsələdir ki, Hindistan Kəşmiri öz ərazisi hesab etdiyi üçün bunu edir, lakin Pakistanın etirazına bir neçə səbəb var.

İlk növbədə, Kəşmirirn müstəqil olması 1947-ci ildə dini mənsubiyyət əsasında hər iki dövlətin yaranma prinsipinə ziddir. Qeyd olunmalıdır ki, həmin dövrdə Britaniya Hindistanında olan müsəlmanların sıx yaşadığı ştatlar Pakistana digər dinlərə mənsub olanlar isə Hindistana birləşməli idilər. Pakistanın qənaətinə görə müsəlmanların kompakt şəkilində yaşadığı Kəşmir

həmin prinsip əsasında Pakistana birləşməli idi. Lakin o vaxt digər ştatlardan fərqli olaraq Kəşmirin Britaniya Hindistanının tərkibində olmaması məsələni mürəkkəbləşdirmişdi. Məhz bu səbəbə görə Hindistan tərəfi 1947-ci ildə öz qoşunlarını Kəşmirə göndərərək oranı ələ keçirməsinə bəraət qazandırır. Kəşmirin müstəqilliyinə Pakistanın etiraz etməsinə ikinci səbəb ölkədə siyasi dəyərini itirmə təhlükəsidir. Üçüncü, bəlkə də ən əhəmiyyətlisi budur ki, əgər Pakistan Kəşmirin müstəqilliyinə razılıq vermiş olsa, o zaman nəzarətində olan Azad Kəşmiri və qeyd olunduğu kimi bir vaxtlar Kəşmirin tərkib hissəsi olmuş sonralar isə Pakistana ilhaq edilmiş Şimal Ərazilərini yeni qurulacaq Kəşmir dövlətinə verməlidir. Şimal bölgəsinin itirilməsi isə Pakistanın iqtisadiyyatı və siyasi həyatı üçün əhəmiyyətli olan Çinlə sərhədlərinin itirilməsi deməkdir. İslamabadın bölgədə ən yaxın müttəfiqi olan Çinlə sərhədlərini itirməsinə razılıq verməsi inandırıcı görünmür.

## Ədəbiyyat


1.Cam Çandianın şərhi «Kashmir: What next? » «Kəşmir: Növbəti nədir?» kitabı, İslamabad, Fredrix Noumann Stiftanq, 2001.

2.İffət Malik, «Kashmir, Ethnic Conflict İnternational Dispute» (Kəşmir, etnik münaqişə, beynəlxalq mübahisə) kitabı, Kəraçi (Pakistan) 2002.

3. О.В. Плешов. Мусульманские страны у границ СНГ, (MDB sərhəddi boyunca müsəlman ölkələri) Москва. Изд. «Ивран-Крафт+» 2002.

4.Viktoria Skofield, «Kashmir in Conflict» (Münaqişəli Kəşmir) kitabı, 2003-cü ildə Londonda nəşr olunub

5. Jozef Korbel, «Danger in Kashmir» (Kəşmirdə təhlükə) kitabı, Oksford, 2002.

6. Alastayr Lamb, «Kashmir, A Disputed Legacy 1846-1990» (Kəşmir, nəsillərdən gələn münaqişə 1846-1990-cı illər) kitabı, Oksford 1991.

7.«ANP müdafiəyə ayrılan xərclərin azaldılmasını tələb edir» «Daun» qəzeti 7 oktyabr 2003.

8.Beynəlxalq Böhran Qrupunun hesabatı «The Mullahs and Military in Pakistan» (Mollar və Pakistandakı hərbiçilər) 20 mart, 2003.

9.«Mən satqınlara güzəştə getmərəm» «The Daily Times» qəzeti 25 iyun 2003.

10.«List of Pakistan №s proposed CBM №s with India» «Daily Times» qəzeti, 30 oktyabr, 2003.

**Hassan Mammadzadeh**

**Second Secretary. Embassy of the Republic of Azerbaijan to Islamic Republic of Pakistan.**

**Summary**

**The attitude of political and religious parties of Pakistan towards Kashmir problem**

In this article the author mainly concentrates on the description of the political situation of the territorial dispute between Pakistan and India on the region of Kashmir. He points to the both sides' positions, the factors causing these positions and differences in the approaches to ways of the conflict solution between different political parties of Pakistan and the differences in the mass opinions in the different regions of Pakistan. In parallel the parties themselves are reviewed. It is especially mentioned that an approach of a particular political party in Pakistan to the ways of Kashmir problem solution directly affects on the attitude of the military elite of the country to that party. Militaries are the highest strata in Pakistan, and their blessing is vital for political success of any political party their. So the principal condition for gaining good reputation near the militaries is a strict position in the issue of the Kashmir problem solving, excluding any concessions to India in regard to the political status of the part of Kashmir included in the Jammu and Kashmir region controlled by India. In this respect the religious parties are notable for their solidarity with the military government.

The author places high emphasize also on the situation and the status of Azad Kashmir (Free Kashmir) occupied by Pakistan, its relations with Pakistan, significance of Jammu and Kashmir for Pakistan, situation of mass media and public opinion, and marks out special characteristics in the policy of Pakistan during the civil government periods. The described political traditions in Pakistan and political backgrounds of governments behaving in one way or another in the Kashmir problem solving process are supported by the historical evidences having occurred since the establishment of Pakistan in 1947.



*GÜLGƏZ ƏLİYEVA*
*Nazirlər Kabineti Aparatı*
*Xarici-iqtisadi əlaqələr şöbəsinin*
*aparıcı məsləhətçisi*
*İqtisad Universitetinin aspirantı*

## *AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA İTTİFAQI İLƏ MÜNASİBƏTLƏRİ HAQQINDA*

Azərbaycan Respublikasının Avropa və Asiya arasında strateji yerləşməsi onun digər dövlətlər ilə əlaqələrinin müəyyənləşdirilməsinə böyük təsir göstərir. Qafqaz bölgəsinin şərq hissəsində Xəzər dənizinin sahilində yerləşən Azərbaycandan tarixən ticarət yolları keçmişdir. Buna görə də Azərbaycan Avropa, Qafqaz və Mərkəzi Asiya arasında, və həmçinin Xəzər dənizinin neft və qaz ehtiyatlarının qərbə boru kəmərləri vasitəsi ilə nəql edilməsində körpü rolunu oynamaq imkanına malikdir.

Avropa İttifaqı qeyd edilən imkanın inkişaf etdirilməsi üçün TACIS proqramı çərçivəsində texniki yardım vasitəsi ilə Azərbaycana kömək göstərmək öhdəliyini üzərinə götürmüşdür. Avropa İttifaqı Azərbaycanı azad bazarın və açıq çoxpartiyalı demokratiyanın inkişaf etdirilməsində daimi dəstəkləyir. Bu dəstək müstəqilliyin əldə edilməsindən etibarən ərazi bütövlüyünə təhlükə yaradan cəmiyyətdaxili problemlərin münaqişə bölgələrin bərpası vasitəsi ilə həll edilməsində Azərbaycana yardım göstərməkdən ibarətdir. Bir sözlə, Avropa İttifaqı Avropa-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsinə və XXI-ci əsrdə dünya səhnəsində özünə məxsus rolunun oynamasına Azərbaycana yardım göstərilməsində Azərbaycanı onun uzunmüddətli tərəfdaşı kimi qiymətləndirir.

### **Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS)**

Azərbaycan ilə Avropa İttifaqı arasında hərtərəfli münasibətlərin hüquqi əsasını 22 aprel 1996-cı ildə Lüksemburq şəhərində imzalanmış "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" təşkil edir. Bu Sazişin qüvvəyə minməsi münasibəti ilə 1999-cu ilin 22 iyun tarixində Lüksemburq şəhərində Zirvə Toplantısı keçirilmişdir. Həmin tədbirdə Avropa İttifaqının Qafqaz ölkələri ilə əlaqələri barədə Birgə Bəyannamə də qəbul olunmuşdur.

1999-cu ilin 1 iyul tarixində qüvvəyə minmiş bu Saziş Avropa İttifaqı və Azərbaycan arasında əməkdaşlığın bütün mümkün, xüsusilə də siyasi və ticarət, sahələrini əhatə edir. Saziş Azərbaycan ilə Avropa İttifaqı arasında hərbi sahəni əhatə etməyən bütün növ əməkdaşlığın çərçivələrini təmin edir. Sazişin əsas amillərindən biri həm Azərbaycan həm də Avropa İttifaqı demokratiya və insan hüquqlarının qorunması və həmçinin, azad bazar iqtisadiyyatı prinsiplərinə söykənməsindən ibarətdir. Bununla yanaşı, Azərbaycan qanunvericiliyinin Avropa hüquq sisteminə uyğunlaşdırılması Sazişin əsas məqsədlərindən biridir.
Saziş Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın aşağıdakı əsas müddəaları müəyyən edir:

- Avropa İttifaqı və Azərbaycan arasında Nazirlər, Parlamentlər və dövlət məmurları səviyyəsində hər il görüşlərin keçirilməsi;
- Azərbaycana sərmayələr gətirən Avropa İttifaqının şirkətlərinə Azərbaycan və ya hər hansı üçüncü dövlətin şirkətinə yaradılan əlverişli şəraitlərin şamil edilməsi;
- Azərbaycan və Avropa İttifaqı arasında ticarət kvotaların aradan qaldırılması və sərhədlərdə ən əlverişli şəraitlərin təmin edilməsi;
- Avropa İttifaqı və Azərbaycan işçilərin bərabərli əmək şərtlərdən istifadə edilməsi;
- Maliyyə vəsaitlərin azad hərəkatı;
- İntellektual, sənaye və kommersiya mülkiyyəti hüquqların qorunması.

Sazişin müvafiq müddəalarına uyğun olaraq, Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında aşağıdakı strukturlar yaradılmışdır:

- Avropa İttifaqı - Azərbaycan Əməkdaşlıq Şurası (Şuranın iclasları hər il Lüksemburq və ya Brüssel şəhərində keçirilir; 2002-ci ilin oktyabrında Şuranın dördüncü iclası keçirilmişdir);
- Avropa İttifaqı - Azərbaycan Əməkdaşlıq Komitəsi (Komitənin iclasları hər il növbə ilə Brüssel və Bakı şəhərində keçirilir; 2002-ci ilin iyulunda Komitənin üçüncü iclası keçirilmişdir);
- Avropa İttifaqı - Azərbaycan Əməkdaşlıq Komitəsinin ticarət və sərmayələr üzrə Yarımkomitə (Yarımkomitənin iclasları hər il Bakı şəhərində keçirilir; 2003-cü ilin martında Yarımkomitənin üçüncü iclası keçirilmişdir);
- Avropa İttifaqı - Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsi (Komitənin iclasları hər il növbə ilə Brüssel və Bakı şəhərində keçirilir; 2002-ci ilin fevral ayında Komitənin üçüncü iclası Brüsseldə keçirilmişdir).

Hər iki tərəf TƏS-in yerinə yetirilməsi istiqamətində bütün lazımi səyləri göstərir. Avropa İttifaqı daim vurğulayır ki, TƏS-in tam və effektiv şəkildə həyata keçirilməsi Azərbaycan ilə daha yaxın Avropa əlaqələrinin formalaşmasına və Azərbaycanda Avropa modellərinin və standartlarının geniş tətbiq olunmasına əlverişli şərait yaradacaqdır. Buna görə də, Avropa İttifaqı TƏS-in həyata keçirilməsi üzrə Azərbaycan Respublikasının Dövlət Proqramının hazırlanması üzrə hökumətin hazırkı səylərinin tam dəstəkləyir.

Azərbaycan və Avropa İttifaqı TƏS-in çərçivəsində terrorizmə qarşı mübarizə, narkotiklərin qeyri-qanuni dövriyyəsi kimi və digər müvafiq məsələlər üzrə fikir mübadiləsini aparırlar.

<u>Azərbaycan – Avropa İttifaqı əməkdaşlığının əsas istiqamətləri</u>

**Siyasi əməkdaşlıq**

TƏS-in müvafiq müddəalarına uyğun olaraq, Avropa İttifaqı və Azərbaycan arasında müxtəlif səviyyələrdə müntəzəm məsləhətləşmələr vasitəsi ilə siyasi dialoq aparılır.

Bundan əlavə, Avropa İttifaqı və Azərbaycan arasında siyasi əməkdaşlığın əsas prioritetləri və istiqamətləri 1999-cu ilin 22 iyun tarixində Lüksemburq şəhərində keçirilmiş Zirvə Toplantısı zamanı qəbul olunmuş Birgə Bəyannamədə öz əksini tapmışdır.

Avropa İttifaqı ümumiyyətlə Cənubi Qafqazda daha fəal rol oynamağa çalışır və bunu hər zaman bəyan edir. Bunun təsdiqi olaraq, həm Avropa İttifaqının həm də Azərbaycanın böyük əhəmiyyət verdikləri Avropa İttifaqının müxtəlif səviyyələrdə Üçlüklərinin Azərbaycana səfərləri qeyd olunmalıdır.

Avropa İttifaqının Nazirlər səviyyəsində Üçlüyünün (İsveçin Xarici İşlər Naziri xanım Anna Lind, Avropa İttifaqı Şurasının Baş Katibi / Ümumi Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi cənab Xavyer Solana, Xarici Əlaqələr üzrə Avropa Komissarı cənab Kristofer Patten) Azərbaycana ilk səfəri 2001-ci ilin fevral ayında həyata keçirilmişdir. Daha sonra 2001-ci ilin sentyabrında Aİ-nin Regional Direktorlar səviyyəsində, 2002-ci ilin oktyabr ayında isə Siyasi Direktorlar səviyyəsində nümayəndə heyətlərinin Azərbaycana uğurlu səfərləri həyata keçirilmişdir.

**Münaqişə**

Avropa İttifaqı etiraf edir ki, ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq əsasında hərtərəfli nizama salınması üçün ən yaxşı mexanizmdir və Azərbaycan ilə Ermənistan arasında aparılan ikitərəfli dialoqun təkmilləşdirilməsinə istiqamətləndirilən səyləri

tam dəstəkləyir. Avropa İttifaqı Azərbaycanı və Ermənistanı etimadı yaradan addımların atılmasına müntəzəm şəkildə çağırır.
Avropa İttifaqının mövqeyinə görə, Dağlıq Qarabağ problemində irəliləmə əldə olunmasına qədər regional sabitlik təhlükə altında qalacaqdır və inkişaf məhdudlaşdırılacaqdır.

Avropa İttifaqı Azərbaycanın Ermənistan ilə dəmir yolunun açılması əvəzinə işğal altında olan 4 rayonun tam azad olunmasını nəzərdə tutan təşəbbüsünə tam şərikdir. Avropa İttifaqı bu məsələ üzrə Azərbaycan və Ermənistan arasında əldə olunacaq hər bir razılaşmanı dəstəkləyəcəkdir və onun praktiki həyata keçirilməsi üçün zəruri olan maliyyə və texniki yardımı göstərəcəkdir.
Avropa İttifaqı tərəfindən Azərbaycana göstərilən və münaqişənin nizamlanması məsələsində əldə ediləcək irəliləyişdən asılı olaraq həcmi müəyyənləşdirilən yardım regional əməkdaşlığın dəstəklənməsi vasitəsi ilə Dağlıq Qarabağ münaqişəsinin həll olunmasına və münaqişədən sonra bərpa işlərinin aparılmasına istifadə olunacaqdır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, Avropa İttifaqı yeganə beynəlxalq təşkilatdır ki, 2002-ci ildə Dağlıq Qarabağda keçirilmiş "seçkilər" ilə əlaqədar 2 avqust tarixində Aİ-nin üzvü olan 15 dövlət, Aİ ilə assosiasiya münasibətlərində olan Mərkəzi və Şərqi Avropa dövlətləri, Kipr, Malta, Türkiyə, İslandiya, Lixtenşteyn, Norveç və daha sonra Ukrayna adından verilmiş və bütün dünyada yayılmış məlum Bəyannamədə Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləmişdir. Eyni zamanda, Avropa İttifaqı 2002-ci ilin iyulun 12-də Aİ-Azərbaycan Əməkdaşlıq Komitəsinin iclasında Azərbaycanın ərazi bütövlüyünü bir daha tanımış və DQ münaqişəsinin həll olunması prosesində Azərbaycanın çıxış etdiyi bəzi mövqelərini də dəstəkləmişdir.

**Demokratiya və insan hüquqları**

TƏS-in 2-ci maddəsinə əsaslanaraq, TACIS-in Demokratiya proqramı 1992-ci ildən etibarən Azərbaycanda plüralist cəmiyyətin gücləndirilməsini və qanunun aliliyini təmin edən səyləri dəstəkləyir. O, hərtərəfli siyasi və iqtisadi islahatlar prosesində demokratik normaların və institutların rolunu dəstəkləyir və həmçinin, jurnalistlər üçün demokratik cəmiyyət şəraitində mədəniyyət üzrə xüsusi tədris proqramları həyata keçirir. Qeyri-hökumət təşkilatları tərəfindən təqdim olunmuş və Demokratiya proqramı tərəfindən maliyyələşdirilən layihələr insan hüquqlarının müdafiəsi, kütləvi informasiya vasitələrin təşviqi, parlament təcrübəsi, həmkərlar ittifaqların inkişafı və qadın hüquqlarının qorunması sahələrini əhatə edirlər.
Eyni zamanda, Avropa İttifaqı Demokratiya proqramı vasitəsi ilə Azərbaycana Avropa Şurası qarşısında götürülmüş öhdəliklərin həyata keçirilməsində yardım göstərməkdə əsas rollardan birini oynayır.

**Ticarət**

Azərbaycan Avropa İttifaqının Qafqazda ən böyük ticarət tərəfdaşıdır və bu ticarətin əsas məhsullarını neft, qaz və pambıq təşkil edir. 1993-cü ildən etibarən Avropa İttifaqı ilə ümumi ticarət dövriyyəsi daimi artmaqdadır. Avropa İttifaqı hazırlanmasında kömək göstərmiş, 1998-ci ilin sentyabr ayında Bakıda keçirilmiş Zirvə Toplantısı zamanı imzalanmış "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin" həyata keçirilməsi vasitəsi ilə TRACECA ticarət yolunun inkişafı Azərbaycanın gələcək iqtisadı artımı təmin edəcəkdir.

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması hal-hazırda Azərbaycan Hökumətinin bərabərhüquqlu şərtlər əsasında dünya ticarətində iştirak etmək niyyətini nümayiş etdirən prioritetlərdən biridir. Avropa İttifaqı Azərbaycanın Ümumdünya Ticarət Təşkilatının yaxın bir zamanda üzvlüyünü dəstəkləyən qüvvələrdən biridir. Bunun üçün Avropa İttifaqı TACIS proqramı çərçivəsində müvafiq ekspertizanın təmin edilməsi vasitəsi ilə Azərbaycanın həmin təşkilata daxil olmasına yardım göstərir.

Azərbaycan və Avropa İttifaqı arasında parça məhsulları ilə ticarət xüsusi saziş ilə tənzimlənir.

**TACIS**

Avropa İttifaqı qrant şəkilində Azərbaycana texniki yardım göstərilənlərin əsas təminatçılarından biridir. Bununla yanaşı, Avropa İttifaqının üzv-dövlətləri Azərbaycanı ikitərəfli əsasda dəstəkləyirlər. Avropa İttifaqı TACIS proqramı vasitəsi ilə Avropadan Azərbaycana yeni texnologiyaları gətirən layihələrin qrant şəkilində maliyyələşdirərək, Azərbaycanda bazar iqtisadiyyatın və demokratik cəmiyyətin inkişafını təşviq edir. Avropa Komissiyası Azərbaycan Hökuməti və habelə digər təşkilatlar ilə TACIS proqramı çərçivəsində maliyyələşdirməyə ehtiyac olan əsas sektorları müəyyənləşdirmək üçün birgə fəaliyyət göstərir.

Azərbaycanı texniki yardım ilə təmin edilməsində ən mühüm rol oynayan TACIS proqramı öz fəaliyyətini Azərbaycana maliyyə yardımı göstərən Ümumdünya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı kimi beynəlxalq təşkilatlarla koordinasiya etməyə çalışaraq, nəticədə yardım göstərməkdə təkrarlaşmaya yol vermir və onun səmərəli istifadə olunmasına nəzarət edir.

Eyni zamanda, TACIS Azərbaycan Hökumətinə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişin müddəalarına uyğun olaraq islahatların aparılmasına yardım göstərir. Bunun üçün TACIS Azərbaycan-Avropa Siyasi və Hüquqi Məsləhət Mərkəzinin yaradılmasında böyük rol oynayır. Bu Mərkəzin məqsədi Azərbaycanın iqtisadi sahəsində olan qanunvericiliyinin Avropa qanunvericiliyi ilə uyğunlaşdırmağa kömək göstərməkdən ibarətdir. Əlavə olaraq, TACIS

Azərbaycanın özəl şirkətlərini, xüsusilə də kiçik müəssisələri, enerji, nəqliyyat və rabitə sahələrini dəstəkləyir.

Bununla yanaşı, Avropa İttifaqı Azərbaycana TACIS çərçivəsində Fövqəladə Yardım Proqramı üçün 30 mln. AVRO məbləğində vəsait ayırmışdır. Bu vəsaitin ayrılmasının məqsədi Azərbaycan şirkətləri tərəfindən həyata keçirilən layihələrin maliyyələşdirilməsindən və bunun nəticəsində dövlətimizin vəsaitlərinin sosial məsələlərin həll olunmasına istiqamətləndirilməsindən ibarətdir. Hal-hazırda həmin proqramın 2-ci fazası həyata keçirilir, 3-cü fazanın isə başlanılması üçün müvafiq inzibati məsələlər həll olunur.

Avropa İttifaqının Respublikamızın müstəqilliyinin əldə edilməsindən etibarən bu günə qədər aşağıdakı istiqamətlər üzrə göstərilmiş və hal-hazırda göstərilən ümumi yardımı 370 mln. AVRO məbləğində vəsait təşkil edir: humanitar yardımı, ərzaq və büdcə ərzaq təhlükəsizliyi yardımı, fövqəladə yardım, bərpa və texniki yardım.

Avropa İttifaqı TACIS Milli Proqramı çərçivəsində 2002-2003-cü illər üçün Azərbaycana 14 mln. AVRO məbləğində vəsait ayırmışdır.

*Hökumətdaxili islahat*

Avropa İttifaqı hesab edir ki, Azərbaycanda hökumət təşkilatlarının islahatı ən vacib məsələlərdən biridir. Demokratik cəmiyyət və azad bazar iqtisadiyyatı istiqamətində irəliləyiş məhz hökumət strukturları çərçivəsində aparılan islahatlar nəticəsində əldə oluna bilər. Buna görə TACIS idarəçilik sisteminin effektivliyinin artırılmasına yönəldilmiş təşəbbüslərin inkişafına ən böyük üstünlük verərək, Azərbaycan dövlət məmurları üçün dövlət təşkilatlarında tədris proqramları maliyyəşdirir.

Hal-hazırda TACIS-in xüsusi proqramları çərçivəsində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında, Nazirlər Kabinetində, Ədliyyə Nazirliyində və digər təşkilatlarda struktur islahatları aparılır

*İnfrastrukturların inkişaf etdirilməsi*

Azərbaycanın infrastrukturunu təşkil edən körpü və yolların inkişaf etdirilməsində böyük rol oynayan TACIS, nəqliyyat və rabitə infrastrukturunun inkişafına yardım göstərir. Avropa İttifaqı etiraf edir ki, Azərbaycanın daxilində və dünya ölkələri ilə mövcud olan bu əlaqələr Azərbaycan iqtisadiyyatının əhəmiyyətli inkişafına nail olması üçün mühüm amildir. Qafqaz, Avropa və Mərkəzi Asiya arasında malların, o cümlədən, neftin azad axımına şərait yaradan avtomobil və dəmir yolları, dəniz və hava limanlarının inkişafına yönəldilmiş layihələrin əksəriyyəti TRACECA proqramı vasitəsi ilə regional məsələləri əhatə edir.

*Biznesin təşviqləndirilməsi*

Audit, kiçik və orta müəssisələrə yardım və həmçinin insan ehtiyatların inkişafı üzrə proqramlar yeridən TACIS, bu sahələrdə idarəçilik üzrə tədris proqramları həyata keçirmişdir. TACIS-in həmin proqramları vasitəsi ilə 300 auditor təlim kurslarında iştirak etmişdirlər.

Bununla yanaşı, TACIS universitetlərdə magistratura kurslarının təşkil edilməsində və əmək bazarı üzrə layihələrin yeridilməsində yardım göstərmişdir. Uzunmüddətli perspektivdə TACIS orta və böyük müəssisələrin özəlləşdirilməsinə və münaqişə bölgələrindən qaçqınların axımı səbəbindən tez-tez ortaya çıxan işsizlik probleminin aradan qaldırılmasında Azərbaycana yardım göstərir.

*Energetika*

TACIS energetika sahəsinin Azərbaycan iqtisadiyyatında vacibliyini etiraf edir. Bu Mərkəzi Asiyadan və həmçinin Xəzər dənizində yerləşən yataqlara əsaslanan milli sənayesinin neft məhsullarının nəql edilməsi üçün Azərbaycanın strateji yerləşməsində özünü göstərir.

Avropa İttifaqı tərəfindən yeridilən regional INOGATE proqramı Azərbaycana tranzit dövlət rolunda yardım göstərməsi məqsədini daşıyır.

TACIS Azərbaycan Hökumətinə energetika sənayesi səbəbindən ortaya çıxan ətraf mühitin çirkləndirilməsi problemlərin həll edilməsi və Azərbaycanın vacib sənaye bölgələrinə enerjinin paylaşdırma üsulları üzrə məsləhətlər verir. Bu məsləhətlər xarici sərmayələrin cəlb edilməsi üçün transparent və aydın qaydaların yaradılmasına yönəldilir.

*Münaqişə bölgələrin bərpa edilməsi*

Avropa İttifaqı Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir və eyni zamanda, münaqişə bölgələrin bərpa edilməsi və ATƏT kimi digər təşkilatlar ilə əməkdaşlıq vasitəsi ilə qaçqınların qayıtmasına kömək göstərməyə hazırdır. 1997-ci ildən bu günədək Avropa İttifaqı Azərbaycana bərpa işləri üçün 18,374 mln. AVRO məbləğində vəsait ayırmışdır.

*Hökumətlərarası Proqramlar*

TACIS keçmiş Sovet İttifaqının digər ölkələrin Hökumətləri ilə birlikdə etiraf edir ki, bəzi məsələlər ilə regional əsasda məşğul olmaq daha faydalıdır. Avropa İttifaqının fikrinə görə, TACIS tərəfindən maliyyəşdirilən Hökumətlərarası proqramlar Qafqaz dövlətləri arasında və habelə digər bölgələr ilə regional əməkdaşlığı təşviq edən vacib təşəbbüslərdir.

INOGATE – Avropaya neft və qazın nəql edilməsi üzrə Dövlətlərarası proqram.

Mərkəzi Asiya və Qafqaz dövlətlərin enerji ehtiyatlarının müvəffəqiyyətli inkişafı enerji sektoruna aid olan bölgədən keçən ticarət axımından Azərbaycanın bəhrələnməsinin təmin edilməsi üçün çox vacibdir.

INOGATE Avropa Komissiyası tərəfindən yeridilən neft və qaz tədarükün idarəetməsinə yardım göstərən Avropa İttifaqının texniki yardım proqramıdır. Bu günə qədər ayrılmış 50 mln. AVRO məbləğində vəsait regional neft və qaz boru kəmərləri sistemlərini və infrastrukturunun bərpa edilməsi və müasirləşdirilməsi üzrə səylərin dəstəklənməsi məqsədini daşıyır. Bu proqram, eyni zamanda, Xəzər hövzəsi və Mərkəzi Asiyadan Avropa bazarlarına hidrokarbonların nəql edilməsi üçün yeni mümkün yollarının öyrənilməsinə yardım göstərir. Bu proqram Azərbaycana həm nefti istehsal edən dövlətə kimi həm də potensial tranzit ölkəyə kimi xüsusilə əlaqələndirilir. Bununla yanaşı qeyd etmək lazımdır ki, 2000-ci ildə Avropa İttifaqı Azərbaycana INOGATE proqramı vasitəsi ilə 2 mln. AVRO məbləğində fövqəladə yardım göstərmişdir.

***TRACECA – Avropa-Qavqaz-Asiya nəqliyyat dəhlizi***

"Yeni ipək yolu" adlandırılan TRACECA TACİS tərəfindən yeridilən Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrini inkişaf etdirən bir proqramdır və Azərbaycan bu layihədə Avropa İttifaqının ən əsas tərəfdaşıdır. TRACECA-nın məqsədi hal-hazırda mövcud olan yolları əlavə edən Avropadan Qara dəniz və Qafqaz vasitəsi ilə Mərkəzi Asiyaya ən tez və ən ucuz ikitərəfli yolun yaradılmasından ibarətdir. TRACECA, eyni zamanda, bölgədə avtomobil və dəmir yollarının təkmilləşdirilməsi üzrə layihələri maliyyələşdirir.

Azərbaycan TRACECA-nı konseptual mərhələdən praktiki həyata keçirmə fazasına keçirən 1998-ci ilin sentyabr ayında Bakıda keçirilmiş Zirvə Toplantısı zamanı imzalanmış "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin" hazırlanmasında fəal iştirak etmişdir və proqramın Daimi Katibliyinin Bakıda yerləşməsi üzrə razılaşmaya nail olmuşdur. Eyni zamanda, TRACECA proqramı Azərbaycanı Gürcüstan ilə birləşdirən yeni körpünün tikilməsinə və XII-ci əsrin qədim Qırmızı Körpünün bərpa edilməsinə yardım göstərmişdir.

*Ətraf mühitin qorunması*

Ətraf mühitin çirkləndirilməsi Azərbaycan, və ümumiyyətlə keçmiş Sovet İttifaqının digər dövlətləri üçün ən təhlükəli problemlərdən biridir. TACIS öz səylərini dövlətlərarası proqramlar vasitəsi ilə ümumi ekoloji problemlərin həll edilməsinə istiqamətləndirir. Avropa İttifaqının köməyi ilə Qafqazda həmin məsələlərin həll edilməsi üçün TACIS tərəfindən maliyyələşdirilən Qafqaz üçün Regional Ekoloji Fondu yaradılmışdır.

*Ərzaq təhlükəsizliyi proqramı*

1996-cı ildən etibarən Avropa İttifaqı ərzaq təchizatı ilə bağlı problemlərin həll olunması üçün Azərbaycanın büdcəsinə əhəmiyyətli kömək göstərir. Bu yardım 1994-1996-cı illərdə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən əsas struktur ərzaq yardımı üzrə əməliyyatların davamıdır və

razılaşdırılmış islahatların həyata keçirilməsindən asılı olaraq göstərilir. Avropa İttifaqı 2002-2003-cü illər üçün bu proqram çərçivəsində Azərbaycana 20 mln. AVRO məbləğində vəsait ayırmışdır.

*Avropa İttifaqının Azərbaycana humanitar yardımı*

Avropa Birliyinin Humanitar Təşkilatı (ECHO) Dağlıq Qarabağdan və işğal olunmuş digər ərazilərdən olan qaçqınlara və məcburi köçkünlərə 1992-ci ildən etibarən 92,17 mln. AVRO məbləğində humanitar yardım göstərilmişdir.

***Azərbaycan – Avropa İttifaqı münasibətlərin gələcəyi***

Azərbaycan – Avropa İttifaqı münasibətlərin gələcək inkişafının istiqamətləri Tərəfdaşlıq və Əməkdaşlıq Sazişində və Lüksemburq Zirvə Toplantısı zamanı qəbul olunmuş Birgə Bəyannamədə təsbit edilmişdir. Əməkdaşlığın əsas istiqamətləri Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin həyata keçirilməsindən, ticarətin, sərmayələrin və münaqişənin həllinin təşviq edilməsindən ibarətdir və Avropa İttifaqının yardımı məhz bu sahələrə yönəldiləcəkdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə 2000-ci ildə Azərbaycan Respublikasının Avropa Birliyi yanında Nümayəndəliyinin Başçısı təyin edilmişdir. Avropa Komissiyası isə Azərbaycan Hökuməti yanında Xüsusi Elçisini təyin etmişdir və Avropa Komissiyasının Bakıda Nümayəndəliyinin açılması gözlənilir.

**Gulgez Aliyeva**

**Senior expert. Foreign Economic Relations Division. Cabinet of Ministers.**

**Summary**

**Azerbaijan-European Union Relations**

Since our republic gained its independence our relations with the European Union have been developing at high rate. As a result of a useful work with the corresponding agencies of our republic there was rendered assistance in different lines to our country. At the time of cooperation assistance to the amount of 360 mln Euro has been addressed in different directions of the country's economy. Only to refugees and IDP's there was rendered assistance in the extent of 92 mln Euro.

There was an anticipated allocation of aid to the sum of 30 mln Euro in different spheres for the years of 2004-2006 in the frame of the TACIS "Indicative Program".

Special Envoy of the European Union Mr. Antonio Devris began his activity in Azerbaijan in May, 2003. As well, Representative of the European Union for the South Caucasus republics Mr. Heyki Talvitye periodically visits Azerbaijan.



***RƏNA OSMANOVA***

***Azərbaycan Respublikasının***

***Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının***

***müəllimi***

## *20-Cİ İLLƏRDƏ AZƏRBAYCAN SSR RƏHBƏRLİYİNDƏ ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA MÜBARİZƏ*

Aprel çevrilişindən sonra Azərbaycan dövlətinin və xalqının qarşısında son dərəcə ağır bir problem - ərazi bütövlüyü məsələsi dururdu. Belə ki, 1920-ci il iyul-avqust aylarında Ermənistan Azərbaycanın tərəfindən əzəli torpağı olan Zəngəzurun böyük bir hissəsinin işğalı, xüsusən də azərbaycanlıların doğma ata-baba yurdlarından vəhşiliklə qovulması və qətlə yetirilməsi əslində formal müstəqilliyin ləğvi demək idi. Xüsusən 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hökuməti qurulandan sonra Azərbaycanın ərazi bütövlüyü məsələsi daha artıq təhlükə altında qaldı.

Mərkəz xüsusilə mərkəzin respublikada yüksək vəzifə tutan kadrları bütün bu haqsızlıqları görür, bəzən laqeydliklə, biganəliklə qarşılayırdılar. Onların içərisində bu haqsızlıqlarla razılaşmayan, hadisələrə obyektiv qiymət verən Kaminski, Solovyov kimiləri də var idi. Xüsusilə bu ərəfədə azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qalmalarını olduğu kimi may-iyun aylarında Solovyovun Leninə verdiyi hesabatında yazılmışdır: ”Ermənistan respublikası yarananda onun hüdudlarında 250 müsəlman kəndi olmuşdur, onların hamısı məhv edilmiş, artıq bir müsəlman belə yoxdur.”[6] Ermənistanla sərhəd müsəlman kəndlərində azərbaycanlıların silahlarının əllərindən alınmasını, ermənilərin Qırmızı ordu və dəmiryol mühafizəsi tərkibinə

[6] Гулиев Дж. Б. К истории образования второй республики Азербайджана.Баку,1997 с.54

qəbul olunmasını Solovyov, müsəlmanların ermənilər tərəfindən qırğına məhkum edilməsi kimi nəticələndirirdi.

Çevrilişdən sonra Azərbaycan rəhbərliyində milli mənafe və yerli şəraitin nəzərə alınmaması ətrafında ixtilaflar məlum səbəblərdən təbii idi. Ancaq ərazi məsələsi ilə bağlı olan ixtilaflar son dərəcə ziddiyyətli olduğu halda həm də qlobal xarakter daşıyırdı. Azərbaycan hökuməti, o cümlədən N.Nərimanov təkcə öz daxili düşmənlərinə qarşı deyil, Mərkəzlə də qarşı-qarşıya dayanmalı olurdu. Çevrilişdən sonra ərazi məsələsini Azərbaycanın başı üstündən həll etmək istəyənlər Moskvada, həm də Bakıda az deyildi. Rusiya bir çox hallarda Azərbaycanın milli mənafeləri ilə hesablaşmır, ərazi məsələsi kimi ciddi və mühüm məsələdə Azərbaycanın mövqeyinə əhəmiyyət vermirdi. Nərimanovla Çiçerin arasında olan ixtilaflar dərinləşir. Çünki ermənilərin xeyrinə olan Çiçerin-Orconokidze-Leqran (Ermənistanın nümayəndəsi) razılaşmaları Nərimanovu qane edə bilməzdi.

Əslində Rusiya üçün ərazi məsələsinin Azərbaycanın xeyrinə obyektiv həlli heç də maraqlı deyildi. Çünki, M.Ə.Rəsulzadənin sözlərilə desək "… Rusiya üçün bir qəzanın ermənidəmi, yoxsa türkdəmi qaldığının nə əhəmiyyəti ola bilyordu!… Yetişir ki, bunlar həpsi Rusiyada olsun və ortadakı ixtilaflar həll edilsin".[7] Elə buna görə də Rusiyanın xalq xarici işlər komissarı Çiçerin

"Qarabağ, Zəngəzur, Naxçıvan və Culfa nə Ermənistana, nə də Azərbaycana birləşdirilməməli, yerli Sovetlərin razılığı ilə Rusiya qoşunlarının işğalı altında olmalıdırlar"[8] təklifini irəli sürürdü. Azərbaycanın ərazi məsələsinə laqeyd münasibət, xüsusən Mərkəzin siyasi mənafe baxımından yanaşması yeni yaranmış Azərbaycan dövlətinin nüfuzuna çox ciddi zərbə idi.

Rusiya hökumətinin günün reallığına uyğunlaşdırılan qərarları Azərbaycana ardıcıl qətiyyətli mövqe tutmağa imkan vermirdi. Çiçerin iyunun 2-də Orconikidzeyə yazırdı:" Daşnak hökuməti ilə kompromisə nail olmaq bizə vacibdir. Bu arada Azərbaycan hökuməti nəinki Qarabağ və Zəngəzuru, həm də Şərur-Dərələyəz qəzasını mübahisəli elan edir. Sonuncu heç zaman heç kim

---

[7] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990, s. 73
[8] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, Bakı Universitetinin nəşriyyatı. 1996, s.238

tərəfindən mübahisəli elan edilməmişdir, ...Bakıda Sizin nüfuzunuzdan istifadə edib Azərbaycan hökumətinin Şərur-Dərələyəz qəzasını deyil, Qarabağ və Zəngəzuru mübahisəli hesab etməyinə nail olmağı xahiş edirik."[9]

Mərkəzin mövqeyindən narahat olan N.Nərimanov yeganə ümidini Leninə bağlamışdı:" …mərkəz Qarabağ və s. haqqında qərarları ilə bizim silahımızı əlimizdən aldı, hər zaman müsəlman kommunistlərin Azərbaycanı Rusiyaya satdığını söyləyən müsavat provakasiyasını gücləndirdi, əsaslandırdı: Həmin Rusiyaya ki, eyni vaxtda Ermənistanın və Gürcüstanın müstəqilliyini tanıyır və nədənsə Azərbaycanda sovet hakimiyyəti qurulanadək mübahisəsiz vilayətləri indi mübahisəli hesab edir… Mərkəz bizi şirma olmağa məcbur edir." [10]

1920-ci il iyulun 10-da N.Nərimanov və başqa məsul şəxslərin imzası ilə Mərkəzə göndərilən məlumatda həyəcanla bildirilirdi ki, "…. Zəngəzur və Qarabağın neytrallaşdırılması, yaxud daşnaklara verilməsi… xəyanət sayılacaqdır…Sovet hakimiyyətinin Azərbaycanı əvvəlki sərhədləri hüdudlarında saxlamağa qadir olmamasını müsəlman kütlələri satqınlıq, ermənipərəstlik yaxud sovet hakimiyyətinin zəifliyi hesab edəcəklər…" [11] Təəssüf ki, Azərbaycanın bu ciddi narahatlığına nə o vaxt, nə də ərazimizin 20% işğal edildiyi bir vaxtda fikir verilmədi. Xüsusən 20-ci illərdə erməni kommunistlərinin Rusiya siyasətinə güclü təsirləri olduğundan hər şeyə istədikləri kimi nail oldular.

N.Nərimanov V.Leninə məktubunda yazırdı:.. həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazilərini almışdır. İndiyənə qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə etmişdir. Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini həm də müstəqilliyini itirir.

Vladimir İliç! Çox millətli əhalinin hüquq və hissləri ilə belə zarafat etmək olmaz. Siz inanmayın ki, Azərbaycan çoxsaylı şüurlu rus fəhlələri yaşayan Bakı deməkdir. Bu kobud səhvdir... Mən

---

9 Əhmədova F. Nəriman Nərimanov - ideal və gerçəklik. Bakı, Elm və həyat nəşriyyatı, 1998, s. 107

10 Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi. f.609, s.1, iş 32, s.47

11 К истории образования Карабахской автономной области Азербайджанской ССР. 1918-1925. Документы и материалы. Баку, Азернешр, 1989, с.56

qəti surətdə bildirirəm: əgər siz də dəlillərə diqqət yetirməsəniz, məcbur olacağıq ki, bizim geri çağırılmağımız barədə mərkəz qarşısında məsələ qoyaq. Onda qoy tarixən dolaşıq milli məsələləri belə asanlıqla həll edənlər bura gəlsinlər. O, zaman bilərik ki, bizim mənasız - şərqə doğru çığırtımız nə deməkdir. Belə olan halda Şərqə necə gedəcəyik“[12].

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən AK/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarda öz əksini tapmışdı. İclasda 3-cü məsələ kimi “Ermənistanda İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqında teleqramı“ müzakirə edilmiş və geniş bir qərar çıxarılmışdır.

Həmin qərarın “v“ bəndində yazılırdı: “… Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir: “İclasın və qərarın demək olar ki, başlıca məqsədi onun mərkəzi bəndində (“q“) öz əksini tapmışdır. Orada deyilirdi ki, Zəngəzur və Naxçıvan Ermənistana keçirlər. Digər bəndlərdə isə yazılırdı: d) Qarabağın Dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir; e) Sovet Azərbaycanı sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı bağlayır (o cümlədən neft haqqında göstərilsin) “j“ və “i“ bəndlərində isə Nərimanova bütün bunlar barədə bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda elan etmək tapşırılırdı [13]

S.Orconikidzenin təkidi ilə tarixin qara səhifəsinə düşəcək bu bəyanatı məhz N.Nərimanov elan etməli idi. Bu da düşünülmüş siyasət idi. sonradan ermənilər tərəfindən (“Dağlıq Qarabağın-əməkçi kəndlilərinə öz müqəddəratını təyin etmək hüququ verilir“ əvəzinə Yuxarı Qarabağın Ermənistan sosialist Respublikasının tərkib hissəsi kimi tanınması) təhrif edilməsinə N.Nərimanov etiraz etmişdir.

Rəsmi dairələrin ziddiyyətli, tərəddüdlü mövqeyi olduğu halda dövrü mətbuatda nikbin əhvallı məlumatlar dərc edilirdi. XI ordu tərəfindən müvəkkil Bünyadzadə Nərimanova teleqramla elə məlumat verirdi ki, heç bir problemin qalmadığı qənaətinə gəlmək olur: Erməni müsəlman məsələsi ləğv olunub. Zəngəzur məsələsi tezliklə həll ediləcək. Dekterlər həyata keçirilir.

---

[12] Nərimanov N. “Ucqarlarda inqilabımızın tarixinə dair“. (İ.V.Stalinə məktub). Bakı, Azərnəşr, 1992, s. 63

[13] Musayev İ.Göstərilən əsəri,s.266

Naxçıvanda sovet hakimiyyətidir. Tam qayda-qanun hökm sürür və s. . İyulun əvvəllərində "Kommunist" qəzetində Qarabağ bölgəsi üzrə verilən məlumatlar dinc həyat tərzindən , erməni-müsəlman dostluğundan, təsərrüfat quruculuğu, mədəni-kütləvi planından bəhs edir. Gerçək durum Nərimanovun Mdivani, Mikoyan, Nuricanyanla birgə imzaladığı teleqramda belə ifadə olunmuşdur: "Ermənistan faktiki olaraq Azərbaycanla müharibə vəziyyətindədir." Daşnak hökumətinin törətdiyi vəhşiliklər ittiham edilir və yalnız "yerli təşkilatlardan və məsuliyyətli yoldaşlardan" daxil olan informasiyaya əsaslanmaq tövsiyə edilirdi. "Öz tərəfimizdən, daşnak hökumətilə hər hansı danışıqları və nəzərdə tutulan şəkildə Türkiyə Ermənistanı məsələsini vaxtsız hesab edirik. Orconikidze ermənilərlə "zakatalaşina"nın təkrarlana biləcəyindən ehtiyat edərək Çiçerinə təklif edirdi ki, Azərbaycan nümayəndəsi Moskvaya çağırılsın, onunla Azərbaycan və Ermənistana aid məsələlər ikinci ilə müqavilə imzalananadək həll edilsin." [14]

N.Nərimanov V.İ.Leninə yazdığı məktubda göstərirdi ki, "Əziz Vladimir İliç! Mənim teleqramlarımdan birində verilmiş məlumatı demək olar ki, təkrar etmək lazım gəlir.

Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda Mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir. Əgər bu ərazilər Gürcüstana verilmiş olsaydı, əfkarı ümumiyə ilə birtəhər mübarizə aparmaq olardı, lakin Ermənistana, daşnaklara vermək düzəldilməsi mümkün olmayan, pis nəticələr verə biləcək səhvdir. Bu barədə bizim nümayəndəmiz ətraflı danışacaqdır… … Məgər müstəqil Azərbaycan sizin dilinizdən çıxmamışdırmı?"[15]

Rusiya ilə sovet Ermənistanı arasında bağlanan hərbi siyasi sazişə əsasən Rusiya İrəvan quberniyası və Zəngəzur qəzasını, birmənalı erməni ərazisi kimi tanıdı.

Ermənilərin genişlənməkdə olan işğalçı fəaliyyətinə ən böyük maniyə yerli əhalinin birgə mübarizəsi, gücü olduğundan, Zəngəzur bölgəsini məkrlə parçalayıb "Kürdüstan" yaradılan hissəsində, erməni hücumuna qarşı sipərə çevrilmiş Sultanov qardaşlarını məhv etmək planı da həyata keçirilirdi. Hələ Cümhuriyyət dövründən qənim hesab etdikləri Sultan və Xosrov

[14] Əhmədova F. Göstərilən əsəri,s.115
[15] Nərimanov N. Göstərilən əsəri,s.62

Sultanovları erməni fitnəkarları hər vasitə ilə aradan qaldırmağa çalışaraq, nəhayət, istədiklərinə nail oldular. Sentyabrın 18-də AK(b)P MK bürolarının birgə iclasında Qaragözovun məruzəsi əsasında "Qarabağ-Kürdüstan məsələsi" müzakirə edilmiş, "Sultan bəyi bandası ilə birlikdə məhv etmək" qərara alınmışdı [16]

